**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**XƏZƏR UNİVERSİTETİ**

**TƏHSİL FAKÜLTƏSİ**

İstiqamətn şifri və adı :

İxtisaslaşmanın adı: Pedaqogika (nəzəriyyəsi və tarixi)

Təhsil kafedrasının magistrantı

Rəşidli Aytən Kamil qızının

Magistr elmi ixtisas dərəcəsi almaq üçün

# IX SİNİF AZƏRBAYCAN DİLİ (DÖVLƏT DİLİ KİMİ) DƏRS KİTABINDAKI ƏDƏBİ MƏTNLƏRİN TƏNQİDİ DÜŞÜNMƏ BACARIĞI QAZANDIRMA BAXIMINDAN İNCƏLƏNMƏSİ.

Mövzusunda

DİSSERTASİYA İŞİ

Elmi rəhbər: dos. Elza Səmədli

BAKI - 2018

# MÜNDƏRİCAT


ÖN SÖZ....................................................................................IV

REFERAT..................................................................................VI

**I BÖLMƏ. GİRİŞ**

1.1. Tədqiqatın aktuallığı və əsaslandırılması..........................................1

1.2. Problem..................................................................................5

1.3.Araşdırmanın məqsədi...................................................................6

1.4.Tədqiqat sualları .......................................................................6

1.5. Araşdırmanın önəmi.....................................................................7

1.6.Fərziyyələr...............................................................................7

1.7.Tədqiqatın əhatə dairəsi...............................................................7

1.8.Tədqiqatda istifadə edilən əsas anlayışların izahı ...............................8

**II BÖLMƏ. TƏDQİQAT METODU**

2.1. Araşdırma modeli........................................................................9

2.2.Tədqiqatın obyekti və subyekti .......................................................9

2.3.Məlumat və onların toplanması.......................................................11

**III BÖLMƏ. DÜŞÜNMƏ BACARIĞI**

3.1.Düşünmə nədir?..........................................................................13

3.2.Düşünmənin növləri (səviyyələri) ....................................................18

3.3.Tənqidi düşünmə..........................................................................19

3.4.Tənqidi düşünmənin təhsildə yeri ...................................................20

3.5. Tənqidi düşünmənin formalaşmasında Azərbaycan dili fənninin rolu. ......24

**IVBÖLMƏ. IX SİNİF AZƏRBAYCAN DİLİ ƏRS KİTABLARINDAKI ƏDƏBİ MƏTNLƏRİN TƏNQİDİ DÜŞÜNMƏ BACARIĞI QAZANDIRMA BAXIMINDAN İNCƏLƏNMƏSİ**

4.1. Tənqidi düşünmə bacarığı formalaşdırılmasında seçilən mətnlərin rolu və mətn xüsusiyyətləri.............................................................................28

4.2. Tədqiqat suallarinin analizi və şərhi ....................................................29

**V. BÖLMƏ. NƏTİCƏ VƏ TƏKİLİFLƏR**

5.1. Nəticə.............................................................................................67

5.2. Təkliflər..........................................................................................70

**ƏDƏBİYYAT** ..........................................................................................71

**ƏLAVƏ** .................................................................................................75

# ÖN SÖZ

Çağdaş dövrdə hər bir ölkənin uğurlu gələcəyi onun təhsil siyasəti ilə sıx bağlıdır. Artıq ölkələrin inkişafı onların təbii sərvətlərinin çoxluğu ilə deyil, insan kapitalının qüvvəsi ilə ölçülür. Gələcək kadrların yeni tələblərə uyğun yetişdirilməsi onların uğurlu təhsili ilə sıx bağlıdır. Elə bu səbəbdən də, təhsil daim yenilənir və inkişaf edir.

Ölkəmizdə 1999-cu il Təhsil İslahatarı proqramından başlayaraq həyata keçirilən əsaslı dəyişikliklərin nəticəsi olaraq 2013-cü il Prezidentin sərəncamı ilə təstiqlənmiş Azərbaycan Respublikasının Təhsilin inkişafı üzrə dövlət Strategiyasında vətəndaş yetişdirilməsi ilə bağlı aşağıdakı müddəalar:

– *məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;*

– *milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq;*

onu göstərir ki, müasir dövrdə təhsilin əsas vəzifəsi şagirdlərin təfəkkürünün inkişafına yönəlmişdir.

Təhsildə "hafizə məktəbi"ndən "təfəkkür məktəbi"nə keçid edilməsi sistemdə kökündən dəyişikliklər olunmasına - yeni təhsil proqramının (kurikulumun) hazırlanmasına, dərsliklərin və təlim texnalogiyalarının yaradılmasına və s. səbəb oldu.

Bu araşdırmada, hal-hazırda təhsildə kifayət qədər yeni və aktual olan "tənqidi düşünmə bacarığı" və "müasir dövr dərslikləri" haqqında tədqiqat aparılmışdır. Tədqiqatın məqsədi, IX sinif Azərbaycan dili dərsliyindəki ədəbi mətnlərin şagirdlərdə tənqidi düşünmə qabiliyyətini formalaşdırıb

formalaşdırmamasını araşdırmaq, müəllimlərin həmin şagirdlərdə bu bacarığın inkişafı üçün hansı metod və texnikalardan istifadə etdiklərini incələməkdir.

Araşdırmam ilə bağlı mənə elmi və metodiki dəstəyini əsirgəməyən dos. Elza Səmədovaya təşəkkürümü bildirirəm.

Tədqiqatın ən önəmli qismi olan ekspertlərin cavablandırdıqları sorğu-anketlərə görə, Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimlərinə təşəkkürümü bildirirəm.

Tədqiqatın aparılmasında fənn müəllimlərinin anket-sorğularda iştirak etməsinə şərait yaradan Bakı Şəhər Təhsil İdarəsinə, əlaqədar məktəb direktorlarına və sorğuda iştirak edərək öz təcrübələrini bizimlə paylaşan fənn müəllimlərinə sonsuz minnətdarlığımı bildirirəm.

Türkiyə Cumhuriyyəti Mersin Universiteti Sosial Elmlər İnstitutunda aparılan bir tədqiqat işində istifadə edilən metodologiyanın Azərbaycanda tətbiq olunmasına icazə verdiyinə görə universitet rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Mənə ən çox ehtiyacım olan zamanda öz mənəvi köməyini əsirgəməyən anam Səmədova Sevincə sonsuz təşəkkürümü bildirirəm.

## REFERAT

## IX SİNİF AZƏRBAYCAN DİLİ (DÖVLƏT DİLİ KİMİ) DƏRS KİTABINDAKI ƏDƏBİ MƏTNLƏRİN TƏNQİDİ DÜŞÜNMƏ BACARIĞI QAZANDIRMA BAXIMINDAN İNCƏLƏNMƏSİ.

**AYTƏN RƏŞİDLİ**

**DİSERTASİYA İŞİ**

**Elmi rəhbər: Elza Səmədova**

**Xəzər Universiteti /Təhsil fakültəsi**

Qloballaşan dünyada informasiya çoxluğu cəmiyyətin inkişaf tendensiyalarına münasibəti xeyli dəyişmişdir. İnformasiya dünyasının fəal üzvünə çevrilmək, yeni bacarıqlara yiyələnmək və ən əsası isə düzgün təfəkkür mədəniyyətinə sahib ola bilmək müasir dünyanın hər bir fərdi üçün həyati tələbata çevrilmişdir. Ona görə də insan həyatının ən önəmli mərhələsi olan təhsil yeni müstəvidə inkişaf etməyə başlamışdır. Qədim zamanlardan bu günə qədər məktəblərin missiyası insanları formalaşdırmaq və yetişdirmək olmuşdur. Zaman keçdikcə, cəmiyyətin məktəbdən olan gözləntiləri və tələbatları dəyişmişdir. Uzun illərdir ki, təhsilin əsası şagirdlərə yalnız akademik biliklər verməyə çalışan hafizə məktəbi olmuşdur. Bu gün sosial mühit dəyişmiş, təhsildə yeni beynəlxalq səviyyəli innavativ tələblər yaranmışdır. İnsanların düşüncə və idrak bacarıqlarına, yaradıcılıq qabiliyyətinə önəm verilməyə başlanmışdır (25, 9).

Yüksək intellektual potensiallı və müasir tələblərə uyğun kadrlar yetişdirmək üçün dövlət təhsildə əsaslı dəyişikliklər etməyə borclu idi. Elə bu səbəbdən, Prezident Heydər Əliyevin hələ 1998-ci il 30 mart tarixli sərəncamı ilə yaradılmış Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının hazırladığı və 1999-cu il 15 iyun tarixli sərəncamı ilə təstiq olunmuş “Azərbaycan Respublikasının təhsil

sahəsində İslahat Proqramı” təhsil sisteminin əsaslı, yenidən qurulmasına səbəb oldu.

Həmin sərəncam əsasında təhsil sahəsində bir sıra qanunverici aktlar qəbul olundu, təhsil strategiyası və siyasəti, Azərbaycan Respublikasının “Təhsil haqqında” qanunu qəbul olundu.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 30 oktyabr tarixində təsdiqlədiyi "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" qərarı ümumi təhsil üzrə təlim nəticələrinin və məzmun standartlarının, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənlərin, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarının, pedaqoji prosesin təşkilinin, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsiplərin, fənn kurikulumlarının dəyişməsinə səbəb oldu (5). Bu dəyişikliklərin nəticəsi idi ki, artıq şagirdlər üçün yeni dərsliklər yaradıldı. Yeni sistemin tələbi ilə dərsliklər informasiya bolluğu içərisində olan şagirdlərdə məlumatları öyrənmək üçün maraq yaratmalı, onların ən yaxın dostuna, müsahibinə çevrilməli idi (25, 19-20).

Dövlət sənədlərinin tələbi ilə artıq təlimlər müəllim mərkəzli deyil, şagird mərkəzli olmuşdur. Ona görə də, yeni təhsil proqramı şəxsiyyətyönümlü adlanır. Proqrama əsasən, təlim prosesi şagirdlərin əqli, fiziki inkişafına, onlarda müxtəlif vərdiş və bacarıqların formalaşmasına, bir sözlə şəxsiyyət kimi yetişməsinə xidmət etməlidir. Müasir dövr vətəndaşından tələb olunan basılıca bacarıqlardan biri tənqidi düşünmədir ki, həmin problem tədqiqatın əsas araşdırma mövzusudur.

Əsas məqsədi vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaş yetişdirmək olan “Ümumitəhsil sistemində dərslik siyasəti” sənədində dərsliklərin məzmununa verilən əsas tələblərdən biri kimi dərsliklərin şagirdlərə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişləri aşılaması, onları düşünməyə sövq etməsi, məntiqi təfəkkürü inkişaf etdirməsidir (33). Göründüyü kimi, təfəkkürün inkişaf etdirilməsi yeni hazırlanan dərsliklərə qoyulan əsas tələblərdən biridir.

Məlum olduğu kimi, idrak prosesinin bütün mərhələlərində fəaliyyətlər mənimsənilmiş dil vahidlərinə və nitq modellərinə əsasən qurulur. Çağdaş təhsilin təməlini təşkil edən öyrənmə (qavrama) və düşünmə prosesinin həyata keçməsində ana dili fənninin rolu əvəzsizdir (7, 22). İnsan düşündüklərini ana dilində daha asan və sərbəst ifadə etdiyinə görə, bu gün tənqidi düşünmənin formalaşmasında Azərbaycan dili fənninin əhəmiyyəti son dərəcədə vacibdir. Azərbaycan dili fənni üzrə təhsil proqramında ümumi orta təhsil səviyyəsi üçün verilmiş təlim nəticələrini nəzərdən keçirək:

- *dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir; şüurlu və ifadəli oxu bacarıqları nümayiş etdirir;*
- *müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;*
- *öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir.*
- *nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarıqları nümayiş etdirir;* (7, 7)

Dövlət sənədinin tələb etdiyi təlim nəticələrində də aydın olur ki, burada göstərilmiş bacarıqlar yalnız mətnlər üzərində işləməklə formalaşa bilər. Buna görə də, yeni tələblərə əsasən hazırlanmış Azərbaycan dili dərsliklərini nəzərdən keçirsək mətnlərə kifayət qədər çox yer verildiyinin şahidi olarıq. Çünki şagirdlərin düşüncə gücü, yəni, tənqidi təfəkkürü ədəbi hekayədəki hadisələrə yazıçının nöqteyi-nəzərindən baxarkən, əsərin ideyasını dərs prosesi zamanı təhlil edərkən, sətiraltı mənaları açarkən, mətnin məzmunu ilə bağlı səbəb-nəticə əlaqəsi qurarkən formalaşa bilər.

Bu tədqiqatda lX sinif Azərbaycan dili dərsliklərində olan ədəbi mətnlər tənqidi düşünmə bacarığı qazandırma baxımından incələnmiş və müəllimlərin dərs prosesində mətnlər üzərində işləyərkən şagirdlərdə tənqidi düşünməni inkişaf etdirmək üçün istifadə etdikləri metod və texnikalar araşdırılmışdır.

Tədqiqatın məqsədi aşağıdakı məsələləri araşdırmaqdır:

a) Tənqidi düşünmə bacarığını formalaşdıran mətnlərin xüsusiyyətlərini araşdırmaq;

b) lX sinif Azərbaycan dili (dövlət dili kimi) dərs kitabındakı ədəbi mətnlər tənqidi düşünmə bacarığını formalaşdırması baxımından araşdırmaq;

c) lX sinif Azərbaycan dili müəllimlərinin dərsliklərdə olan ədəbi mətnlərin tədrisi zamanı şagirdlərin düşünmə qabiliyyətinin inkişaf etdirilməsi üçün lazım olan metod və texnikalardan istifadə edib etməməsini araşdırmaq.

Tədqiqatda aşağıdakı suallar araşdırılmışdır:

1. IX sinif Azərbaycan dili dərs kitabındakı ədəbi mətnlər şagirdlərdə tənqidi düşünmə bacarığını inkişaf etdirə bilmələri üçün hansı xüsusiyyətlərə malik olmalıdır? Bu xüsusiyyətlər içərisində ortaq olanları varmı?

2. IX sinif dərsliklərində olan ədəbi mətnlər şagirdlərə tənqidi düşünmə bacarığı qazandırmaq üçün uyğundurmu?

3. Azərbaycan dili müəllimləri dərs prosesində ədəbi mətnlər üzərində necə işləyirlər?

4. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən ən çox hansı öyrənmə metodlarından istifadə edirlər?

5. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən istifadə edə biləcəkləri öyrənmə metodları haqqında məlumatlıdırlarmı?

6. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən metodiki vəsaitdən başqa əlavə mənbələrdən və vəsaitlərdən istifadə edirlərmi?

7. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən ənənəvi öyrətmə metodlarından hansı sıxlıqla istifadə edirlər?

8. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən şagirdlər üçün tənqidi düşünmə bacarığını inkişaf etdirə biləcək mühit yarada bilirlərmi?

9. Azərbaycan dili müəllimlərinin gender balansı ilə istifadə etdikləri təlim metodları arasında əhəmiyyətli fərq vardırmı?

Bu tədqiqatda, IX sinif Azərbaycan dili (ana dili kimi) dərs kitabında olan ədəbi mətnlər tənqidi düşünmə bacarığı qazandırma baxımından incələnmiş, həmin fənni tədris edən Azərbaycan dili müəllimlərinin istifadə etdikləri metod və texnikalar araşdırılmışdır. Tədqiqat 2017-2018 tədris ilində aparılmış, Bakı

şəhərində 20 məktəbdən 56 Azərbaycan dili müəllimindən əldə olunmuş məlumatlara əsasən həyata keçirilmişdir.

Tədqiqatdan əldə olunmuş məlumatlar, Azərbaycan dili müəllimlərinə paylanmış "Azərbaycan dili müəllimlərinin ədəbi mətnlərlə işləmə texnikaları anketi" və ekspertlər tərəfindən "IX sinif Azərbaycan dili dərsliyindəki ədəbi mətnlərin dəyərləndirilməsi anketi"nin köməkliyi ilə statistik nəticələr əldə olunmuşdur. Anket-sorğulardan və ekspert rəylərindən toplanmış məlumat aşağıdakı kimidir:

1. IX sinif Azərbaycan dili dərsliklərindəki ədəbi mətnlər hədəf kütlə tərəfindən başa düşülən və düzgün mətn strukturuna sahib olsa belə tənqidi düşünmə bacarığını formalaşdıracaq səviyyədə deyillər.
2. Azərbaycan dili müəllimlərinin çoxu "Beyin həmləsi", "Müzakirə", "Tədqiqatın aparılması" metodlarından istifadə etdiklərini ifadə etmişlər. Tədqiqatlar göstərir ki, bu metodlar şagirdlərdə tənqidi düşünmə bacarığını formalaşdırmaq üçün kifayət deyildir.
3. Azərbaycan dili müəllimlərinin anket-sorğulara verdikləri cavablar onu göstərir ki, müəllimlərin çoxu müxtəlif təlim metodları ilə bağlı informasiyaya malikdirlər.
4. Azərbaycan dili müəllimləri metodiki vəsaitdən asılı vəziyyətdə təlim keçirlər.
5. Azərbaycan dili müəllimləri hələ də ənənəvi təlim metodlarından istifadə edərək dərs qururlar.
6. Azərbaycan dili müəllimləri təlim prosesini demokratik şəraitdə qurmağa çalışırlar.

# I BÖLMƏ

# GİRİŞ

## 1.1 Tədqiqatın aktuallığı və əsaslandırılması

Qloballaşan dünyada informasiya çoxluğu cəmiyyətin inkişaf tendensiyalarına münasibəti xeyli dəyişmişdir. İnformasiya dünyasının fəal üzvünə çevrilmək, yeni bacarıqlara yiyələnmək və ən əsası isə düzgün təfəkkür mədəniyyətinə sahib ola bilmək müasir dünyanın hər bir fərdi üçün həyati tələbata çevrilmişdir. Ona görə də insan həyatının ən önəmli mərhələsi olan təhsil yeni müstəvidə inkişaf etməyə başlamışdır. Qədim zamanlardan bu günə qədər məktəblərin missiyası insanları yalnız formalaşdırmaq və yetişdirmək olmuşdur (25, 9). Zaman keçdikcə, cəmiyyətin məktəbdən olan gözləntiləri və tələbatları dəyişmişdir. Uzun illərdir ki, təhsil şagirdlərə yalnız akademik biliklər verməyə çalışan hafizə məktəbinə əsaslanmışdır olmuşdur. Bu gün sosial mühit dəyişmiş, təhsildə yeni beynəlxalq səviyyəli innavativ tələblər yaranmışdır. İnsanların düşüncə və idrak bacarıqlarına, yaradıcılıq qabiliyyətlərinə önəm verilməyə başlanmışdır.

Yüksək intellektual potensiallı və müasir tələblərə uyğun kadrlar yetişdirmək üçün dövlət təhsildə əsaslı dəyişikliklər etməyə borclu idi. Elə bu səbəbdən, hələ 1998-ci il 30 mart tarixli Prezident Heydər Əliyevin sərəncamı ilə yaradılmış Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının hazırladığı və 1999-cu il 15 iyun tarixli sərəncamı ilə təstiq olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" (6) təhsil sisteminin əsaslı, yenidən qurulmasına səbəb oldu.

Həmin sərəncam əsasında təhsil sahəsində bir sıra qanunverici aktlar qəbul olundu, təhsil strategiyası və siyasəti, Azərbaycan Respublikasının "Təhsil haqqında" qanunu qəbul olundu.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gələcəyin ümumtəhsil məktəbi haqqında praqnostik müddəalar irəli sürülmüşdür. Burada *"Şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən,"təfəkkür və düşünmə məktəbi"nə keçidin təmin olunması məqsədilə sistemli tədbirlər görüləcəkdir"* müddəası irəli sürülmüşdür (1).

2013-cü ildə, Prezidentin sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası"nda qeyd olunan 5 strateji istiqamət yuxarıda qeyd olunmuş müddəa ilə səsləşir (4). Bu isə yeni təhsil sisteminin düşünmə və təfəkkürə əsaslandığının bariz göstəricisidir.

Hal-hazırda dünyada müasir təhsil proqramları konstruktivizm fəlsəfi cərəyanının fikirləri üzərində qurulmaqdadır. Həmin fəlsəfə Piajenin "İntellektual İnkişaf nəzəriyyəsi"nə əsaslanır. Belə ki, şagird keçmişdə öyrəndiklərinə əsaslanaraq yeni informasiyaları bildiklərinin üzərində inşa etməlidir. Bu zaman şagird xüsusidən ümumiyə doğru öyrənməklə təhsil prosesi boyunca əldə etdiyi məlumatları beynində konstruksiya halına gətirir və sistemləşdirir. Piaje, yeni informasiyanın kiçik yaşlarından başlayaraq insan beynində müxtəlif sualların formalaşmasına, tarazlığın pozulmasına gətirib çıxardığını iddia edir. Həmin informasiyanı doğru düşünüb dərk edən şəxsin beynində tarazlıq yaranır və hər şey əvvəlki normasına qayıdır (12, 1-10). Piajenin fikirlərini təhsil prosesinə gətirsək belə nəticəyə gəlmək olar ki, əgər dərs prosesində müəllim-şagird ünsiyyəti uğurlu olarsa, koqnitiv tarazlıq daha asan baş verər. Bunun üçün müəllim doğru metod və texnikalardan istifadə edərək şagirdlərin düşünməsi üçün daha yaradıcı şərait yaratmalıdır. Yalnız belə bir mühitdə şagirdin müasir tələblərə uyğun düşünmə bacarıqları formalaşa bilər.

Bu gün tənqidi düşünmə yalnız təhsilin diqqət mərkəzində deyil, həm də psixalogiya və fəlsəfənin araşdırma mövzusuna çevrilmişdir. Ona görə də, bu mövzu dünyada çox sayda alim tərəfindən, müxtəlif istiqamətlərdə araşdırılmışdır. Praqmatizm fəlsəfi cərəyanının görkəmli nümayəndəsi Con Dyui ilk olaraq tənqidi düşünmənin **aktiv düşünmə** olduğunu qeyd edərək, onu passiv düşünməyə qarşı

qoyur. Con Dyuiyə görə, insanın bir məlumatı passiv bir şəkildə qarşı tərəfdən alaraq öyrənməsindənsə, fərdi şəkildə düşünüb, öz-özünə sual verib, həmin suallara cavab axtararaq öyrənməsi daha effektivdir. İkincisi, o, tənqidi düşünmənin **diqqətli dəyərləndirmə** olduğunu irəli sürmüşdür. Beləliklə, alim, şagirdin müəyyən bir nəticə əldə etməsi üçün tələsik cavab verməsinin tənqidi düşünməyə zidd olduğunu bildirmişdir (16, 61).

Düşünmə əsaslı təhsilin doğru yol olduğunu yalnız yeni dövr alimləri təsdiq etmir. Hələ min illər bundan əvvəl, Sokratın sual-cavab metodundan istifadə edərək qurduğu dərs hal-hazırda tənqidi düşünmə əsaslı öyrənmənin ən yaxşı nümunəsi olaraq qalmaqdadır (11, 156). Bu isə bir daha onu sübut edir ki, insan, yaradılışından bəri düşünməyə və ən əsası tənqidi düşünmə bacarığını formalaşdırmaq istəyinə malik olmuşdur.

Tənqidi düşünmə qabiliyyəti formalaşmış fərdləri çox olan cəmiyyətdə inkişaf da sürətli olur. Tənqidi düşünmə yalnız demokratik və tolerant cəmiyyətdə formalaşa bilər (37, 4). Buna görə də, təhsilimiz tənqidi düşünmə bacarığı formalaşmış vətəndaş yetişdirməyə borcludur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 30 oktyabr tarixində təsdiqlədiyi "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" qərarı ümumi təhsil üzrə təlim nəticələrinin və məzmun standartlarının, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənlərin, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarının, pedaqoji prosesin təşkilinin, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsiplərin, fənn kurikulumlarının dəyişməsinə səbəb oldu (5). Bu dəyişikliklərin nəticəsi idi ki, artıq şagirdlər üçün yeni dərsliklər yaradıldı. Yeni sistemin tələbi ilə dərsliklər informasiya bolluğu içərisində olan şagirdlərdə məlumatları öyrənmək üçün maraq yaratmalı, onların ən yaxın dostuna, müsahibinə çevrilməli idi (25, 19-20).

Dövlət sənədlərinin tələbi ilə artıq təlimlər müəllim mərkəzli deyil, şagird mərkəzli olmuşdur. Ona görə də, yeni təhsil proqramı şəxsiyyətyönümlü adlanır. Proqrama əsasən, təlim prosesi şagirdlərin əqli, fiziki inkişafına, onlarda müxtəlif

vərdiş və bacarıqların formalaşmasına, bir sözlə şəxsiyyət kimi yetişməsinə xidmət etməlidir. Müasir dövr vətəndaşından tələb olunan basılıca bacarıqlardan biri tənqidi düşünmədir ki, həmin problem tədqiqatın əsas araşdırma mövzusudur.

Tənqidi düşünməni formalaşdıran dərsliklərdən biri Azərbaycan dilidir. Məlum olduğu kimi, idrak prosesinin bütün mərhələlərində fəaliyyətlər mənimsənilmiş dil vahidlərinə və nitq modellərinə əsasən qurulur. Elə bu səbəbdən də çağdaş təhsilin təməlini təşkil edən öyrənmə (qavrama) və düşünmə prosesinin həyata keçməsində dil müstəsna əhəmiyyətə malikdir (7, 22)

Cücəloğlunun fikrincə, tənqidi düşünmə, düşündüklərimizin fərqində olaraq, başqalarının düşünmələrini göz önündə tutaraq, öyrəndiklərimizi tətbiq edərək, əsas məqsədi özümüzü və ətrafımızda baş verən hadisələri dərk etmək olan aktiv zehni prosesdir (8, 164).

Cüceloğlunun tənqidi düşünmə ilə bağlı tərifini Azərbaycan dili fənni üzrə təhsil proqramında olan təlim prosesinin aşağıdakı mərhələləri ilə qarşılaşdırsaq hər iksinin də eyni mənanı ifadə etdiyinin şahidi olarıq.

Belə ki, Azərbaycan Respublikasinin Ümumtəhsil Məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə təhsil proqramında təlimin təşkilində istifadə olunan forma və üsullar haqqında məlumat verərkən dərs prosesi 3 mərhələyə bölünür.

- Düşünməyə yönəltmə mərhələsi
- Dərketmə mərhələsi
- Düşünmə mərhələsi

Birinci mərhələdə şagirdlər yeni informasiya ilə qarşılaşır və onu dərk etməyə çalışırlar. İkinci mərhələdə, informasiyanı mənimsəmək üçün keçmiş biliklərlə yeni biliklər qarşılaşdırılır. Sonuncu mərhələdə isə şagirdlər mənimsənilmiş informasiyanı öz sözləri ilə ifadə edir və onların arasında fikir mübadiləsi gedir (7).

Əsas məqsədi vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam,

müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaş yetişdirmək olan "Ümumitəhsil sistemində dərslik siyasəti" sənədində dərsliklərin məzmununa verilən əsas tələblərdən biri kimi onların şagirdlərə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişləri aşılaması, öyrənənləri düşünməyə sövq etməsi, məntiqi təfəkkürü inkişaf etdirməsidir (33). Göründüyü kimi, təfəkkürün inkişaf etdirilməsi yeni yaranan dərsliklərin əsas tələblərindən biridir. Elə bu səbəbdən də tənqidi düşünmənin inkişaf etdirilməsi müasir təhsilimizin prioritet sahələrindən biridir.

## 1.2 Problem

Çağdaş dünyada informasiya bolluğu insanlararası əlaqəni çətinləşdirmişdir. Bu gün insanlara yalnız məişətdə eşitdikləri informasiyalar deyil, Kütləvi İnformasiya Vasitələrindən, sosial şəbəkələrdən və s. əldə etdikləri xəbərlər təsir edir. Doğru və yaxud da yanlış milyonlarla informasiyanı asanlıqla əldə edən XXI əsr insanından tələb olunan ən böyük məharət həmin məlumatların içərisindən ən optimalını seçməkdir. Bunun üçün ayrı-ayrı fərdlərdə tənqidi düşünmə bacacarığı formalaşmalıdır. Hər bir bacarıq kimi bu bacarığın da bünövrəsi orta məktəbdə qoyulmalıdır.

İnsan düşündüklərini ana dilində daha asan və sərbəst ifadə etdiyinə görə, bu gün tənqidi düşünmənin formalaşmasında Azərbaycan dili fənninin əhəmiyyəti son dərəcədə vacibdir. Məlumdur ki, fənni tədris edərkən müəllimin istifadə etdiyi əsas alət dərsliklərdir. Həmin dərsliklərdəki ədəbi mətnlər şagirdlərdə tənqidi düşünmənin inkişaf etdirilməsi baxımından mühüm rol oynayır. Çünki şagirdlərin düşüncə gücü, yəni, tənqidi təfəkkürü ədəbi hekayədəki hadisələrə yazıçının nöqteyi-nəzərindən baxarkən, əsərin ideyasını dərs prosesi zamanı təhlil edərkən, sətiraltı mənaları açarkən, mətnin məzmunu ilə bağlı səbəb-nəticə əlaqəsi qurarkən formalaşa bilər.

Bu tədqiqatda lX sinif Azərbaycan dili dərsliklərində olan ədəbi mətnlər tənqidi düşünmə bacarığı qazandırma baxımından incələnmiş və müəllimlərin dərs

prosesində mətnlər üzərində işləyərkən şagirdlərdə tənqidi düşünməni inkişaf etdirmək üçün istifadə etdikləri metod və texnikalar da araşdırılmışdır.

### 1.3 Tədqiqatın məqsədi

Tədqiqatın məqsədi aşağıdakı məsələləri araşdırmaqdır:

d) Tənqidi düşünmə bacarığını formalaşdıran mətnlərin xüsusiyyətlərini araşdırmaq;

e) lX sinif Azərbaycan dili (dövlət dili kimi) dərs kitabındakı ədəbi mətnlərin tənqidi düşünmə bacarığını formalaşdırması baxımından araşdırmaq;

f) lX sinif Azərbaycan dili müəllimlərinin dərsliklərdə olan ədəbi mətnlərin tədrisi zamanı şagirdlərin düşünmə qabiliyyətlərinin inkişaf etdirilməsi üçün lazım olan metod və texnikalardan istifadə edib etməməsini araşdırmaq.

### 1.4 Tədqiqat sualları

Tədqiqatda aşağıdakı suallar araşdırılmağa çalışılacaqdır:

1. IX sinif Azərbaycan dili dərs kitabındakı ədəbi mətnlər şagirdlərdə tənqidi düşünmə bacarığını inkişaf etdirə bilmələri üçün hansı xüsusiyyətlərə malik olmalıdır? Bu xüsusiyyətlər içərisində ortaq olanları varmı?
2. IX sinif dərsliklərində olan ədəbi mətnlər şagirdlərə tənqidi düşünmə bacarığı qazandırmaq üçün uyğundurmu?
3. Azərbaycan dili müəllimləri dərs prosesində ədəbi mətnlər üzərində necə işləyirlər?
4. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən ən çox hansı öyrənmə metodlarından istifadə edirlər?
5. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən istifadə edə biləcəkləri öyrənmə metodları haqqında məlumatlıdırlarmı?
6. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən metodiki vəsaitdən başqa əlavə mənbələrdən və vəsaitlərdən istifadə edirlərmi?

7. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən ənənəvi öyrətmə metodlarından hansı sıxlıqla istifadə edirlər?
8. Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən şagirdlər üçün tənqidi düşünmə bacarığını inkişaf etdirə biləcək mühit yarada bilirlərmi?
9. Azərbaycan dili müəllimlərinin gender bərabərliyi və istifadə etdikləri tənqidi düşünmənin inkişafına yönəlmiş öyrənmə metodları arasında əhəmiyyətli fərq vardırmı?

### 1.5 Tədqiqatın önəmi

Tədqiqat nəticəsində toplanılan məlumatlar:

a) Mətnlərin tənqidi düşünmə bacarığını qazandırmağa təsiri mövzusunda yeni tədqiqat imkanları yaradacağı;

b) Azərbaycan dili dərsliklərindəki mətnlərin tənqidi düşünmə bacarığı qazandırması baxımından daha realist qiymətləndiriləcəyi;

c) Azərbaycan dili müəllimlərinin mətnlər üzərində işləyərkən bildikləri metodlar və onların tətbiqi haqqında dəqiq qiymətləndirmə aparılmasına şərait yaradacaqları gözlənilir.

### 1.6 Fərziyyələr

Bu tədqiqatda aşağıdakı fərziyyə nəzərdə tutulmuşdu:

1. Müəllimlərin sorğulara verdikləri cavablar həqiqəti özündə əks etdirir.

### 1.7 Tədqiqatın əhatə dairəsi

Bu araşdırma:

1. 2017-2018-ci illərdə Bakı şəhər məktəblərində dərs vəsaiti kimi istifadə olunan, Azərbaycan Respublikasının Təhsil Nazirliyi 03.06.2016-cı il tarixli 369 nömrəli əmri ilə təstiq edilmiş IX sinif dərsliyində olan ədəbi mətnləri;

2. Bakı şəhərinin Nizami, Yasamal, Xətai, Suraxanı, Nəsimi, Abşeron rayonlarında yerləşən 20 tam orta məktəbi;

3. Tədqiqat ekspert rəyi, “Şəxsi məlumat anketi”, “Azərbaycan dili müəllimlərinin ədəbi mətnlərlə işləmə metod və texnikaları anketi”ni əhatə edir.

**1.8 Tədqiqatda istifadə edilən əsas anlayışların izahı:**

Düşünmə: insanı digər canlılardan fərqləndirən, onun yaşadığı ətraf aləmi və özünü tanımasına imkan verən zehni fəaliyyətdir.

Tənqidi düşünmə: fərdin yaşadığı dünyanı dərk etməsi üçün zehnində yaranmış olan suallara cavab axtararaq onları mənalandırmağa çalışmasıdır.

Ədəbi mətn: hadisə və ya müəyyən situasiyanın təsvirini, oxucunun özünü hadisənin içində hiss etməsini hədəf seçən, hekayə quruluşunda olan mətnlərdir.

# II BÖLMƏ

# TƏDQİQAT METODU

## 2.1 Araşdırma modeli

Əsas məqsədi IX sinif Azərbaycan dili dərsliklərində olan ədəbi mətnlərin və fənni tədris edən müəllimlərin istifadə etdikləri metod və texnalogiyaların şagirdlərin tənqidi düşünmə qabiliyyətinin inkişafına xidmət edib etmədiyini araşdırmaq olan dissertasiya işinin məzmunundan da aydın olur ki, tədqiqat keyfiyyət araşdırmasıdır.

Araşdırma zamanı IX sinif Azərbaycan dili dərs kitablarındakı ədəbi mətnlər təyin edilmiş meyarlar əsasında ekspertlər tərəfindən qiymətləndirilmiş, Azərbaycan dili fənnini tədris edən müəllimlərin ədəbi mətnlərlə işləmə metodlarını aşkara çıxarmaq üçün araşdırmacı tərəfindən hazırlanmış anket forması tətbiq olunmuşdur.

## 2.2 Tədqiqatın obyekti və subyekti

Tədqiqatın obyekti Bakı şəhərində yerləşən 20 orta məktəbdir. Subyekti isə 2017-2018 tədris ilində IX sinif Azərbaycan dili fənnindən dərs deyən 56 müəllimdir. Məktəblər Bakı şəhərinin Nizami, Yasamal, Xətai, Suraxanı, Nəsimi, Abşeron rayonlarını əhatə edir. Müəllimlərə "Şəxsi məlumat anketi" və "Azərbaycan dili müəllimlərinin ədəbi mətnlərlə işləmə texnikaları anketi" paylanılmış və cavablandırılmışdır.

Tədqiqata qatılan müəllimlərin cinsi, məzun olduqları ali təhsil ocağı, ixtisası ilə bağlı iş təcrübələri aşağıdakı cədvəllərdə göstərilmişdir:

| Cinsi | Sayı | % |
|---|---|---|
| Qadın | 56 | 100 |
| Kişi | 0 | 0 |
| Cəmi | 56 | 100 |

**Cədvəl 1**. Müəllimlərin gender bölgüsü

Cədvəldən də göründüyü kimi tədqiqata qatılan Azərbaycan dili müəllimlərinin hamısı qadınlardır. Bu isə təhsilimizdə bu fənni tədris edən müəllimlər arasında gender bərabərliyinin pozulduğunu göstərir.

2-ci tabloda isə müəllimlərin ixtisas qazandıqları ali təhsil müəssisələrinin adları göstərilmişdir.

| Məzun olduqları ali təhsil məssisəsi | Sayı | % |
|---|---|---|
| Bakı Dövlət Universiteti | 14 | 25 |
| Azərbaycan Dövlət Pedaqoji Univerisiteti | 41 | 73.2 |
| Sumqayıt Dövlət Universiteti | 1 | 1.8 |
| Cəmi: | 56 | 100 |

**Cədvəl 2.** Müəllimlərin məzun olduqları universitetlərə görə bölgüsü

Həmin cədvəldə tədqiqatda iştirak edən IX sinif Azərbaycan dili müəllimlərinin neçə faizinin hansı təhsil müəssisəsindən məzun olduqları göstərilmişdir. Məlum olmuşdur ki, onların hamısı universitet məzunlarıdır. Müəllimlərin əksəriyyəti, yəni, 73.2 %-i Azərbaycan Dövlət Pedaqoji Universitetindən, 25%-i Bakı Dövlət Universitetindən, ən az, yəni, 1.8 %-i isə Sumqayıt Dövlət Universitetindən məzun olmuşlar.

Üçüncü cədvəldə isə müəllimlərin iş stajına görə bölgüsü göstərilmişdir.

| İl | Sayı | % |
|---|---|---|
| 0-4 il | 0 | 0 |
| 5-9 il | 3 | 5.3 |
| 10-14 il | 8 | 14.2 |
| 15-19 il | 11 | 19.6 |
| 20 ildən çox | 34 | 60.7 |
| Cəmi | 56 | 100 |

**Cədvəl 3.** Müəllimlərin iş təcrübəsinə görə bölgüsü

Araşdırmada iştirak edən müəllimlərdən 0-4 il arası iş təcrübəsi olanı yoxdur. Azərbaycan dili müəllimlərindən 5.3 %-i 5-9 il , 14.2%-i 10-14 il, 19.6%-i 15-19 il, 60.7 %-i isə 20 ildən çox əmək fəaliyyətinə malikdir.

### 2.3 Məlumat və onların toplanması

Tədqiqat aparmaq məqsədi ilə Azərbaycan dili müəllimlərinə ədəbi mətnlərlə işləmə davranışları, təlim metodlarından istifadə texnikası ilə bağlı anket-sorğu paylanılmışdır. Eyni zamanda Azərbaycan dili dərsliklərində olan ədəbi mətnlərin şagirdlərin inkişafına təsir edib-etmədiyini öyrənmək üçün ekspert rəyindən istifadə olunmuşdur.

Sorğu-anket forması 4 hissəyə bölünür:

**I hissə** "Şəxsi məlumat anketi" adlanır. Müəllimlərə aid - cins, iş təcrübəsi, bitirdikləri ali təhsil ocağı və s informasıya məhz bu anketin nəticəsində bəlli olmuşdur.

**II hissə** "Azərbaycan dili müəllimlərinin ədəbi mətnlərlə işləmə texnikaları anketi" adlanır. Burada əldə olunmuş informasiyalar müəllimlərin dərs prosesində ən çox istifadə etdikləri təlim metod və texnikalarını öyrənməklə bağlıdır.

Anketin hər meyarına uyğun 4 ölçü formatı verilmişdir: hər zaman, tez-tez, bəzən, heç vaxt.

Hər iki hissə IX sinif Azərbaycan dili müəllimlərinə eyni vaxtda paylanılmışdır.

**III hissə** “IX Sinif Azərbaycan dili dərsliyindəki ədəbi mətnlərin tənqidi düşünmə bacarığını formalaşdırması baxımından təhlili” adlanır. Bu anketdə tənqidi düşünmə bacarığının inkişaf etdirilməsi baxımından mətnə lazım olan keyfiyyətlər göstərilmişdir. Məqsəd hər hansı bir ədəbi mətnin tənqidi düşünmə bacarığının formalaşmasına xidmət etməsi üçün lazım olan meyarları müəyyənləşdirməkdir.

**VI hissə** “IX sinif Azərbaycan dili dərs kitabındakı ədəbi mətnlərin tənqidi düşünmə bacarığı qazandırma baxımından incələnməsi” anketi adlanır. Bu anketi hazırlamaqda məqsəd ekspertlərin köməyi ilə IX sinif Azərbaycan dili dərsliyindəki ədəbi mətnləri tək-tək dəyərləndirməkdir.

# III BÖLMƏ

## DÜŞÜNMƏ

### 3. 1 Düşünmə nədir?

*Düşünmədən öyrənmək itirilmiş əməkdir.*

*Konfutsi*

Yer üzərində yaşayan yeganə şüurlu, canlı varlıq insandır ki, o dünyaya gəldiyi ilk gündən bu günə qədər düşünmüş, qarşısına çıxmış bütün problemləri çözmək üçün çıxış yolu axtarmışdır. Aristotelin dili ilə desək, insanı insan edən ən əsas xüsusiyyət onun düşünə bilməsidir.

İnsan düşünmə bacarığı ilə ətrafda baş verən hadisələri araşdırır, incələyir və yeni nəticələr əldə edir. Bu prosesdə ən önəmli vasitə isə dildir. İnsan dil vasitəsi ilə baş vermiş hadisələrə aydınlıq gətirmək üçün başqaları ilə əlaqəyə girir və yaxud özü ilə danışır. Beləliklə, hadisəyə öz münasibətini-reaksiyasını bildirir. Bu zaman düşünmə prosesi baş verir.

Düşünmə, daxili və xarici təsirlərdən yaranıb fərdi narahat edən, onun fiziki və psixaloji cəhətdən balansını pozan hadisələrin həllini tapması üçün baş verən zehni prosesdir (21, 12).

Cüceloğlu, düşünmənin mövcud vəziyyəti anlamaq üçün edilən məqsədyönlü zehni proses olduğunu söyləyərək, onun ən çox istifadə olunduğu 4 sahəni açıqlamışdır.

1. Bir problemin həlli zamanı,
2. Müəyyən məqsədlərə nail olarkən,
3. Məlumat və hadisələrin mənasını anlayarkən,
4. Qarşılaşdığımız insanı daha yaxşı tanımaq üçün (8, 205-206)

Bu isə onu göstərir ki, düşünmə daim aktiv olan və həyatımız boyu davam edən mürəkkəb prosesdir.

Təlim-tərbiyə haqqında özünəməxsus fəlsəfi görüşləri olan Konfutsiyə görə, insanlar öz təbiətləri etibarı ilə bir-birlərinə olduqca yaxındırlar. Onlar təhsil prosesində bir-birlərindən fərqli formalaşırlar. İnsan keçmişdən dərs alaraq yenini dərk etməsi üçün doğru düşünməyi bacarmalıdır. Elə bu səbəbdən də düşünməsiz təlim və təlimsiz düşünmə boş şeydir (27, 47)

Düşünmə insanın idrakı – zehni fəaliyyəti ilə sıx bağlıdır. Elə bu səbəbdən də təfəkkürə əsaslanan müasir təhsil sistemi idrak nəzəriyyələri üzərində qurulmuşdur. Veysova idrakın müasir təlimdəki yerini aşağıdakı sxemlə açmışdır:




**Şəkil 1.** Təlim Modeli (34, 43)

Şəkildə uc nöqtələrdə qeyd olunan “metodlar”, “öyrədici mühit”, “qiymətləndirmə” və “məzmun” təlim prosesinin komponenetləridir. Belə ki, sxemdən aydın olur ki, təlimin iki məqsədi vardır. Birinci məqsədi şəxsiyyətin formalaşdırılması, ikincisi isə idrakın inkişaf etdirilməsidir. Bu məqsədlərdən birinin əksikliyi təlimin komponentləri arasındakı əlaqənin itməsinə və prosesin uğursuz nəticəsinə gətirib çıxarar.

Tədqiqatçı alim Sağlamın fikrincə, düşünmə 3 mərhələli prosesdir: giriş, əməliyyat və çıxış. Prosesin giriş mərhələsində məlumatlar əldə edilir, toplanır və öyrənilir. İkinci mərhələdə toplanmış məlumatlar məqsədyönlü və şüurlu şəkildə istifadə edilir. Sonuncu, yəni, çıxış mərhələsində isə yeni bilik və ya davranışlar tam şəkildə mənimsənilmiş olur. Belə ki, düşünmə məlumat əldə etmə, ondan istifadə etmə və yeni bilik qazanmaq (yaratmaq) olmaqla 3 mərhələdən ibarətdir. Bu proses aşağıda aydın şəkildə göstərilmişdir (9, 38).




**Şəkil 2.** Düşünmə prosesi (Sağlam, 2002; Akt. Alkaya, 2006, Çiğdem, 2013)

Deyilmiş fikirlərdən düşünmə prosesinin başqa bir tərifi ortaya çıxır. Düşünmə bir məqsədə çatmaq üçün məlumatları araşdırmaq, qarşılaşdırmaq və onlar arasında əlaqələr quraraq yeni fikir yaratmaq poressesidir. Burada zehnin fəaliyyəti nəticəsində yaranan məhsul isə "düşünmə" adlanır (18, 6).

Düşünmək təməl bacarıq kimi bütün insanlarda dünya ilə tanış olduğu ilk gündən bəri mövcuddur. Ancaq *düşünmək* ilə *dərin düşünmək* qabiliyyəti arasında ciddi fərq vardır. Bu fərq insanın yeriyə bilmək bacarığı ilə rəqs edə bilmək bacarığı arasında olan fərq kimidir. Bunlardan birincisi insanın təməl bacarığıdır, digəri isə sonradan zəhmətlə əldə etmiş olduğu qabiliyyətdir (16, 57-74).

Tənqidi düşünmə oxuma, anlama və bu kimi başqa təməl bacarıqlara sahib olmağı tələb edən *üst düşünmə* bacarığıdır. Təməl bacarıqların olmadığı yerdə tənqidi düşünmənin formalaşmağı qeyri-mümkündür. Tənqidi düşünmək üçün təməl bacarıqlardan doğru istifadə edərək doğru düşünməyi bacarmaq lazımdır.

Bu fikirləri birləşdirsək belə bir qərara gəlmək olar ki, "düşünmə" nəfəs almaq qədər təbii hadisədir, ancaq "doğru düşünmə" öz-özünə baş vermir, bu bacarıq insanda təhsil prosesi boyunca tədricən formalaşır. Ona görə də, bu gün təhsilin məqsədi "nə" düşünmək deyil, "necə" düşünmək lazım olduğunu öyrətməkdir.

Bəs müəllim şagirdlərdə düzgün düşünmə bacarığını formalaşdırmaq üçün nə etməlidir? Veysovanın fikrincə, müəllim ilk növbədə "şüurlu surətdə (iradi olaraq) idrak problem situasiyası" yartmalıdır (34, 11-13). Problem üzərində qurulan dərs prosesi birbaşa olaraq təffəkkürün inkişafına və şagirdlərin fəallaşmasına gətirib çıxarır.

Belə qurulmuş dərs prosesində şagirdin tədqiqatçı mövqeyində olması təlim nəticəsini daha uğurlu edir. Şagirdlər müəllimin bələdçiliyi ilə təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini aşkar etməyi, dərindən düşünüb düzgün nəticə çıxarmağı öyrənirlər.

Əgər təlim prosesində şagird öz fəaliyyəti və istəyi nəticəsində yeni biliklər kəşf edərsə, bu zaman o dərs prosesinə böyük maraqla yanaşar və beləliklə əldə etdiyi biliklər daha uzunmüddətli və möhkəm olar (34, 39).

1956-cı ildə Çikago Universitetinin professoru Benjamin Blum "Tədris məqsədilə Taksonomiya" adli nəzəriyyəsini irəli sürdü. Bununla da dünyanın bir çox təhsil sistemlərinə, eləcə də ölkəmizin təhsilinə təsir edəcək nəzəriyyənin əsasını qoydu.

Bugün dünyada Blumun taksonomiyasının (35) ən universal bir model kimi tətbiq olunmasının əsas səbəbi burada idrak prosesinin təsnifatını mərhələli şəkildə irəli sürməsi olmuşdur. Bu taksonomiyada düşünmə bacarığı sadədən mürəkkəbə doğru 6 səviyyədə göstərilmişdir. Bu səviyyələr aşağıdakı pramida şəkilində göstərilmişdir:




**Şəkil 3.** *Blumun İdrak Taksanomiyası*

Bu mərhələlərin açılışı aşağıdakı kimidir:

**Bilik** – Bu səviyyədə öyrənən şagirdlər informasiyanı və faktları səhvsiz və dəyişiklik etmədən yadda saxlamağı və ya yada salmağı bacarır.

**Anlama** – Şagird məlumatda nədən bəhs olunduğunu anlayır və ondan gələcək həyatında hansı məqsədlərlə istifadə edəcəyini dərk edir.

**Tətbiq etmək** – Bu səviyyədə şagird müəyyən nəticəyə gəlir, əldə etdiyi məlumatı izah etməyi və onu tətbiq etməyi bacarır.

**Analiz** – Bu mərhələdə şagird informasiyanın hər bir hissəsini dəqiq hissələrə ayıraraq onu təhlil və müqayisə etməyi və ya hesablamağı bacarır.

**Sintez** – Şagirdlər mövcud informasiyanı ümumiləşdirir və yeni nümunə, struktur yaratmaq məqsədi ilə hissə-hissə bölgülərlə işləməyi bacarır.

**Qiymətləndirmə** - İnformasiyanın dəyəri və onun müəyyən kriteriyaya uyğunluğu şagird tərəfindən əsaslandırılaraq qiymətləndirilir (34, 134).

Alimin nəzəriyyəsindən aydın olur ki, Blum taksonomiyasının tətbiqi ilə həyata keçirilən pedaqoji prosesdə təlimin məqsədləri reallaşaraq şagirdlərdə bir çox öyrənmə, inkişaf və mədəniyyətlə bağlı aşağıdakı keyfiyyət və dəyişiklikləri artırır:

* Müstəqil düşünmə – sərbəst fəaliyyət;

* tədqiqatçılıq – məntiq, düşünmə, nəticə çıxarma;

* təfəkkür qabiliyyətinin inkişafı və s

**3.2 Düşünmənin növləri (səviyyələri)**

Düşünmə mürəkkəb idraki proses olduğundan ədəbiyyatda onun növləri ilə bağlı müxtəlif fikirlər vardır. Düşünmənin növləri arasında oxşarlıqlar çoxdur. Ancaq bu səbəbdən onların eyni mənanı ifadə etdikləri nəticəsinə gəlmək düzgün deyil.

Presseisen düşünməni əsas (təməl) əməliyyatlar, problem çözmə, qərar vermə, tənqidi düşünmə, yaradıcı düşünmə olaraq mərhələli bir şəkildə hissələrə bölmüşdür (29, 193-194). Belə ki, əsas (təməl) əməliyyatlar mərhələsində şagirdlər səbəb-nəticə əlaqəsi qurmağı, bənzər məlumatları aşkara çıxarmağı, sinifləndirməyi bacarırlar. Problem çözmədə şagirdlər toplanmış informasiya əsasında qarşılarına çıxan əngəlləri görür, onları çözmək üçün çıxış yolu axtarırlar. Qərar vermə düşünmə mərhələsində şagird bütün məlumatları nəzərdən keçirir, təhlil edir, ən uyğun variantı seçməyi bacarır. Tənqidi düşünmə səviyyəsində şagird mühakimə yürütməyi, məlumatları tam dərk etməyi bacarır, fərqlilikləri aşkara çıxarmaq gücünə malik olur. Ən sonda yaradıcı düşünən şagirddə məntiq, intuisiya və digər hisslərin köməyi ilə yeni bir məhsul ortaya çıxarılır.

Veysova isə idrak prosesini 4 səviyyəyə bölür (34, 135):

- HAFİZƏ – İnformasiyanı və faktları səhvsiz və dəyişiklik etmədən yadda saxlama səviyyəsidir. Burada şagirdlər materialda nədən bəhs olunduğunu anlamağa çalışırlar.

- MƏNTİQİ TƏFƏKKÜR - Burada informasiya təsnif olunur, izah edilir və şərh olunur. Öyrənilmiş informasiya dərk edilir və hər hansısa bir nəticə əldə olunur.

- TƏNQİDİ TƏFƏKKÜR – Şagird informasiyanı niyə əldə etdiyini dərk edir və onda müəyyən bir məsələ ilə bağlı fikir yürütmək bacarığı formalaşmış olur.
- YARADICI TƏFƏKKÜR – Şagird məlumatlar üzərində hissə-hissə, bölgülərlə və ya onları birləşdirərək işləyir, yeni nümunə, struktur yaradır.

Hər iki alimin düşünmə ilə bağlı mərhələli araşdırması Blum taksanomiyasının mərhələlərini xatırladır. (Bax səh:17-18) Belə ki, alimlər bir daha onu sübut edirlər ki, düşünmə mərhələli proses olub, təlim prosesi ilə sıx əlaqəlidir. Yaradıcı təfəkkürü şagirdin xüsusi istedadı ilə əlaqələndirib istisna etsək, təhsildə tənqidi təfəkkür bu mərhələlərdən ən üst səviyyəni təşkil edir. Elə bu səbəbdən də müasir təhsilin ən başlıca məqsədlərindən və problemlərindən biri şagirddə tənqidi təfəkkürü formalaşdırmaqdır.

### 3. 3 Tənqidi düşünmə

*Altı nökərim var cəsur, cəngavər,*
*Pənahım onlardır çətində, darda.*
*Deyim adlarını, bilməyə dəyər –*
*Necə, Niyə, Kim, Nə, Haçan və Harada.*
***Kiplinq*** (14, 11)

*"Tənqid"* sözü Azərbaycan dilinə ingiliscədən - *"critical"* sözünündən keçmişdir. *"Criticus"* sözü isə latın dilindən tərcümədə *"dəyərləndirmə" , "bir şeyi yaxşı və ya pis cəhətdən təhlil etmək"* mənasına gəlir (29, 194). Tarixi Sokrata qədər gedib çıxan bu nəzəriyyə nəinki antik, hətta İslam fəlsəfəsində bəhs olunan *"müdriklik"* anlayışı ilə eyni mənanı ifadə edir (16, 59-60)

Halpernin fikrincə, (22, 43-44) tənqidi düşünmə arzu edilən məqsədə daha asan çatmaq üçün idraki fəaliyyət və ya strategiyaların istifadə olunması prosesidir. Bu zaman insan düşünmələrini məntiq süzgəcindən keçirərək məqsədə doğru

addımlar atmağa çalışır, müxtəlif problemlərlə qarşılaşsa da sonda müəyyən bir nəticəyə gəlir, effektiv qərar qəbul edir. Ancaq onu nəzərdən qaçırmaq olmaz ki, burada önəmli olan tənqidi düşünən insanın sonda mütləq "arzu olunan məqsədə" çatmasıdır.

Cücəloğlunun fikricə, (8, 213-220) həyata baxışına görə 2 tip insan vardır:

- "Qəliblənmiş" insan;
- "İnkişaf etmiş" insan.

"Qəliblənmiş" insanlar düşüncələrini sanki qəlibə salırlar. Yeni bir fikirlə qarşılaşan zaman düşünmə qəliblərində olmayan məlumatı qəbul etmirlər. "İnkişaf etmiş" insanlar isə əksinə, məlumatları bir-birləri ilə qarşılaşdırıb təhlil edir, fərqli qərarlar qəbul edirlər. Alim bununla da tənqidi düşünənləri "inkişaf etmiş" insanlara aid edir. Belə ki, tənqidi düşünən insan fikirlərini sanki qum torbasından ələyir. Özünə lazım olmayanları atır, lazım olanları isə yeni informasiya kimi qəbul edir.

### 3. 4 Tənqidi düşünmənin təhsildə yeri

*Birini öyrətməyin əsl məqsədi onu davamlı*
*olaraq sual verən birinə çevirməkdir.*
***Bishop Creighton***

Azərbaycan təhsil sisteminin inkişafına təsir göstərən təməl problemlərdən biri də hər bir şagirddə tənqidi düşünmə bacarığının formalaşdırılmasıdır. Bunun bir səbəbi də beynəlxalq tələblərə uyğun kadrların yetişdirilməsi siyasəti ilə bağlıdır. İƏİT (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) və BEA (Beynəlxalq Energetika Agentliyi) kimi nüfuzlu beynəlxalq təşkilatların dəstəyi ilə ölkələr arasında təhsillə bağlı beynəlxalq qiymətləndirmə testləri (PİSA, TİMSS, PİRLS) hazırlanır, şagirdlərə paylanılır və statistik nəticələr əldə edilir. Suallara dəlillərlə əsaslanmış cavablar verən şagirdlərdə tənqidi və mücərrəd düşünmə qabiliyyəti yoxlanılmış olur. Bu gün həmin beynəlxalq qiymətləndirmə proqramlarında

iştirak edən ölkəmizin təhsilində ciddi problemlərin olduğu üzə çıxmışdır. Bunlardan ən basılıcası şagirdlərdə tənqidi təfəkkürün kifayət qədər formalaşdırılmamasıdır.

Şagird məktəbdə təhsil aldığı müddətdə nəaliyyət qazanan, gələcək həyatında yaxşını pisdən ayıran, sağlam düşünə bilən fərd olmaq istəyirsə, tənqidi düşünmək məcburiyyətindədir. Öyrənənlərdə tənqidi düşünmə qabiliyyəti isə onlar yalnız bu bacarığın mövcud olduğu proqramla təhsil alarlarsa formalaşa bilər.

Elə bu səbəbdən də, ümumi təhsil pilləsinin dövlət standartları və proqramlarında tam orta təhsil üzrə ümumi təlim nəticələrindən birincisi şagirdlərin *"dinlədiklərinə və oxuduqlarına tənqidi və yaradıcı münasibət bildirməyi, maraq dairəsinə görə onları yeni məlumatlarla zənginləşdirməyi" (32)* bacarmaları haqqındadı. Nəticəyönümlü təhsil sisteminin basılıca müddəalarından birinin şagirdlərdə bu bacarığı formalaşdırmaq olması problemin önəmindən xəbər verir.

Azərbaycan Respublikasının dövlət sənədlərində tənqidi düşünmənin yeri haqqında məlumat disertasiya işinin "Giriş" hissəsində (səh:1-5) daha geniş verilmişdir. Buna görə də, bu hissədə tənqidi düşünmənin təlim prosesində yeri və şagirdlərdə bu bacarığın formalaşması üçün müəllimlərin istifadə etdiyi metodlar haqqında informasıya veriləcəkdir.

Uzun illər Azərbaycan təhsil şagirdlər üçün verilən biliklərin mənimsənilməsi üzərində deyil, məlumatların yadda saxlanılması üzərində qurulmuşdur. Bu zaman şagirdin şəxsi təcrübəsi, tələbatları, maraqları, qabiliyyətləri və fərdi xüsusiyyətləri nəzərə alınmırdı. Şagirdin hazır bilikləri mənimsəməsi onların təfəkkürünün inkişafını ləngidir, idrak prosesinin kütləşməsinə gətirib çıxarırdı. Ancaq onu etiraf etmək lazımdır ki, hal-hazırda elə bir əsrdə yaşayırıq ki, dərslik və müəllimlərin öyrənənlərə verdiyi informasiya kənardan aldığı məlumatlardan daha zəifdir. Elə bu səbəbdən də müasir təlimin məqsədləri kökündən dəyişmişdır. Hal-hazırda təlimin basılıca vəzifələrindən biri öyrənməyi öyrətmək və şagirdləri bilikləri müstəqil əldə etməyə cəlb etməkdir (34, 8). Bu isə bir daha onu göstərir

ki, dövrün tələbinə uyğun olaraq müasir təlim yalnız tənqidi təfəkkürü inkişaf etmiş şagirdlərlə səmərəli həyata keçirilə bilər.

Təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri təhsildə demokratiklikdır. Müddəalardan birində deyilir ki, təhsilin əsas vəzifələrindən biri təhsil alanların azad düşünmə ruhunda yetişdirilməsidir (30). Yalnız tənqidi düşünə bilən vətəndaş azad düşünmə ruhunda ola bilər.

Alman klassik fəlsəfəsinin nümayəndəsi Hegelin fikrincə, təlimin basılıca məqsədi təfəkkür müstəqilliyini formalaşdırmaqdır. Müstəqil düşünən insanın təfəkküründə rəngarənglik olur, beləliklə onda qabiliyyətlər daha asan formalaşa bilir (27, 408).

Düzgün düşünməyi öyrətmək olduqca çətin məsələdir. Ona görə də bu işdə müəllimlərin üzərinə düşən yük daha ağırdır. İlk növbədə onu qeyd etmək lazımdır ki, şagirddə tənqidi təfəkkürü formalaşdırmaq istəyən müəllim ilk növbədə bu anlayışı özü mənimsəməlidir.

Tənqidi düşünən şagird yetişdirmək üçün:

- Şagirdlərin tənqidi düşüncəsinin inkişafına yönəlmiş fəal təlim qurulmalıdır.
- Məktəb direktoru və müəllim şagird üçün özünü yaxşı ifadə edə biləcəyi mühit yaratmalıdır.
- Müəllim şagirdə "necə" düşünməli olduğunu aşılamalıdır (23, 62-66).

Yalnız belə bir mühitdə yetişən şagird təkcə dərs prosesində deyil, gündəlik həyatında qarşılaşdığı problemlərin həlli üçün tənqidi düşünə bilir.

Tənqidi düşünməni formalaşdırmaqda müxtəlif metodlardan istifadə olunur.

***"Altı şapkalı düşünmə" metodu***

Düşünməyi öyrətməkdə böyük rolu olan De Bono ***"Altı şapkalı düşünmə"*** metodu ilə təhsilə yenilik gətirdi (15, 11). Hansı ki, bu metodla təlim quran müəllim şagirdləri hərtərəfli düşünməyə vadar edir. Adından da göründüyü kimi metodun tətbiqində 6 şapkadan istifadə olunur. Ancaq bu şapkaların rəngi bir-

birindən fərqlidir. Belə ki, sinif 6 qrupa bölünür və hər qrup şapkanın rənginə uyğun olaraq müxtəlif mövqedən çıxış edirlər. Həmin şapkalara uyğun mövzuya baxış bucağı aşağıda göstərilmişdir:

**Ağ şapka** – Saflığın, təmizliyin simvoludur. Bu şapkanın qrup üzvləri neytral hesab olunur. Müzakirə olunan məsələ ilə bağlı fikirlərini konkret faktlarla bildirirlər. Bu şapkanı geyinən qrup üzvləri tərəfsiz olmalıdırlar. Hətta onlara bu cür dəqiqliklərinə görə alim qrupu da deyilir.

**Qırmızı şapka –** Duyğusallıq, emosionallıq rəmzidir. Bu şapkanı taxan qrup üzvləri müzakirə olunan problemə emosional yanaşırlar.

**Qara şapka –** neqativliyi və pessimizmi ifadə edir. Bu qrupun üzvləri müzakirə olunan məsələyə bədbin münasibət bildirirlər. Onlar bir işin nəyə görə həyata keçirilməməsini və həmin məsələ gerçəkləşərsə səbəb olacaq zərərləri irəli sürürlər.

**Sarı şapka –** Pozitiv düşünmənin simvoludur. Şapkanın üzvlərinin əsas vəzifəsi ətrafa günəş kimi pozitiv enerji saçmaqdır. Onlar hər şeyə optimist yanaşırlar. Problemlə bağlı hər şeyin yoluna düşəcəyinə inanırlar.

**Yaşıl şapka –** Yaradıcılığı təmsil edir. Düşünülməyəni düşünmək bu qrupun işidir. Yaşıl yaz fəslinin – yaradılışın simvolu olduğu üçün qrupa bu ad verilmişdir.

**Mavi şapka –** Öz adını göy üzündən götürdüyü üçün təmsil etdiyi xarakter soyuqqanlılıqdır. Problemə səbrlə, təmkinlə yanaşır. Digər şapkaların irəli sürdüyü məsələləri gözdən keçirir və sonda ümumi nəticəyə təsir edir. Bütün problemləri yoluna qoymaq mavi şapkalıların işidir (10, 193-194)

***"Beyin həmləsi" metodu***

1953-cü ildə Amerika psixoloqu A.Osborn tərəfindən yaradılmışdır. Metodun başlıca məqsədləri aşağıdakılardır:

- Problemin həlli yollarının araşdırılmasını öyrətmək;
- Şagirdlərdə fikir azadlığını, müstəqil düşünməni inkişaf etdirmək;
- Şagirdlərin təfəkkürünü inkişaf etdirmək (34, 66)

*“Sual-cavab” metodu*

Sual-cavab, qədim dövrdən istifadə olunan metoddur. Bu metoddan istifadə olunan zaman, sualların köməkliyi ilə problem hissələrə bölünərək ayrı-ayrılıqda çözülür. Verilmiş suallar müxtəlif tipdə olur:

- *Faktiki suallar* – Belə suallar konkret doğru cavab almaq məqsədi ilə verilir. Başqa cür ifadə etsək, belə suallar bilik xarakterli suallardır. Məsələn: *Şəxs əvəzlikləri hansılardır?* və ya *Kompyuter hansı hissələrdən ibarətdir?* və s.
- *Üstünlük sualları* – Bu cür suallar şagirdlərin daha çox nəyə üstünlük verdiklərini, onların bir hadisəyə şəxsi münasibətlərini öyrənmək məqsədi ilə verilir. Məsələn: *Hansı janrda olan musiqini dinləməyə üstünlük verirsiniz?*
- *Hökm xarakterli suallar* – Bu tip sualları verən müəllim şagirddən alacağı cavaba sübut, izah tələb edir. Məsələn: *Ətraf mühidi zərərli tullantılardan qorumaq üçün hansı tədbirlər görülməlidir? (13, 32-34)*

Məşhur psixoloq Əbdül Əlizadə haqlı olaraq dərslik-müəllim-dərs arasındakı əlaqəni təhlil edərkən bu prosesi teatr tamaşasına bənzədir. O, müəllimi həm teatr tamaşasını yazan dramaturqa, həm quruluşçu rejissora, həm də aktyora bənzədir. Şagirdləri isə müəllimin tərəf-müqabilləri adlandırır. Müəllim şagirdlərlə necə ünsiyyətə girəcəyini, onların təfəkkürünü necə aktivləşdirəcəyini, onların xəyal dünyasına necə daxil olacağını öncədən düşünməli, hətta bunun üzərində bir aktyor qədər məşq etməlidir (14, 29-31). Yalnız belə bir mühitdə şagirdlər dərs prosesi zamanı materialı mənimsəmiş olurlar. Dərsliklərdən asılı təlim keçmək şagirdlərin idrak marağının zəifləməsinə, müstəqil düşünmə prosesinin ləngiməsinə səbəb olur. Ona görə də, müəllimlər daim öz üzərlərində işləməli, müasir dövr tələblərinə uyğun təlim texnalogiyalarından istifadə etməlidirlər.

## 3.5 Tənqidi düşünmənin formalaşmasında Azərbaycan dili fənninin rolu

Tənqidi düşünmə ilə ana dili fənni arasındakı əlaqəni tapmaq üçün ilk növbədə düşünmə ilə dil arasındakı əlaqəni araşdırmaq lazımdır. Dil və düşünmə

arasındakı əlaqə hələ antik dövrdən araşdırılmağa başlanılmış, görkəmli filosofların diqqət mərkəzində olmuşdur.

Platon, düşünməni insanın “öz-özü ilə dialoqu” , “daxili səsi” adlandırmışdır. Aristotelə görə isə, dil, düşüncələrdəki arzuların, hirsin, sevincin və s. bir sözlə bütün təəssüratların ətrafdakı insanlarda əks olunmasıdır. Filosofun fikrincə, dil düşünmənin konkret sübutudur (28, 390). Buradan aydın olur ki, dil və düşünmə bir-biri ilə əlaqəli anlayışlardır.

Bəs ana dilinin düşünmənin inkişafında rolu nədir? Bu sahədə dahi rus alimi K.D. Uşinski “Ana dili” məqaləsində (27, 501-510) olduqca maraqlı fikirlər səsləndirmişdir. Dəyərli pedaqoq, təhsildə bütün təlim prosesinin ana dilində aparılmasını tələb edir. Uşinskiyə görə, şagirdin qabiliyyətləri xalqı tərəfindən yaradılan ana dilində daha asan formalaşır. Öyrənənin özünü ifadə etməsi, müxtəlif əşyalara, hadisələrə, anlayışlara münasibəti və s. ana dilində olarsa təlim prosesi daha səmərəli həyata keçər. İnsanın ruhunun, təfəkkürünün inkişafı ana dilini mükəmməl bilməsindən keçir. Beləliklə, məqalədən aydın olur ki, şagirdin düşünməsinin inkişafında ana dilinin rolu əvəzsizdir.

Elə bu səbəbdən də, ana dili müəllimləri təfəkkürü inkişaf etdirmək üçün yeni informasiyaya açıq olmalı, daim öz üzərlərində işləməli, öyrənənləri fəal təlimə cəlb edərək yeni metod və texnikalardan istifadə etməyi bacarmalıdırlar.

Məlum olduğu kimi, düşünmə insan yaradılışından mövcud olan anlayışdır. Zaman keçdikcə insanlarda fikirlərini, duyğu və düşüncələrini təkcə sözlərlə deyil, həm də yazılı şəkildə ifadə etməyə ehtiyac yaranmışdı. Onlar yazının kəşf olunması sayəsində məlumatları qalıcı hala gətirmiş və sonrakı nəsillərə ötürmüşlər. Bu gün daş salnamələrdə, kitablarda və s. yüz illər bundan öncə yazılmış yazılar vardır. Müəyyən məzmuna malik yazılar “mətn”lər (“text”) adlanır ki, həmin söz fransız dilindən tərcümədə “parça” mənasını verir (31, 121-132). Azərbaycan dilində istifadə olunan “tekstil” kəlməsi o sözdən götürülmüşdür. İplərin müəyyən ardıcıllıqla toxunaraq parça yaratması kimi, mətnlərin də komponenetləri birləşərək onu yaradır.

Azərbaycan dili fənni üzrə təhsil proqramında ümumi orta təhsil səviyyəsi üçün verilmiş təlim nəticələrini nəzərdən keçirək:

- *dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir; şüurlu və ifadəli oxu bacarıqları nümayiş etdirir;*
- *müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;*
- *öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir.*
- *nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarıqları nümayiş etdirir; (7, 7)*

Dövlət sənədinin tələb etdiyi təlim nəticələrində də aydın olur ki, burada göstərilmiş bacarıqlar yalnız mətnlər üzərində işləməklə formalaşa bilər. Elə bu səbəbdən də, yeni tələblərə əsasən hazırlanmış Azərbaycan dili dərsliklərini nəzərdən keçirsək mətnlərə kifayət qədər çox yer verildiyinin şahidi olarıq.

Ana dilinin tədrisində öyrənmək üçün tətbiq edilən mətnlər olduqca önəmli vasitədir. Belə ki, şagirdlərdən tələb olunan basılıca bacarıqları formalaşdırmaq üçün onlara müxtəlif növ mətnlər təqdim olunur. Şagirdlər qarşılaşdıqları fərqli mətnlərin köməyi ilə həm həmin bacarıqlara sahib olur, həm bir-birləri ilə əlaqə qurmağı öyrənir, həm də ana dillində olan zəngin nümunələrlə tanış olub oxuma sevgisi qazanırlar.

Azərbaycan dili fənninin basılıca məqsədi şagirdlərə ana dilinin tam mənimsədilməsidir. Dili tam qavramaq üçün qrammatik qaydaların öyrənilməsinin vacibliyi danılmaz faktdır. Ənənəvi təhsildə şagirdlər əvvəlcə qrammatik qaydaları öyrənir, daha sonra onları həyatda tətbiq edirdilər. Bu gün isə əksinə şagirdlər qrammatik qaydaları tətbiq edərək öyrənirlər. Buna görə də, dərsliklərə xeyli ədəbi mətnlər salınmışdır. Şagirdlər bədii mətni elə mənimsəyirlər ki, dil qanunları onlara özlüyündə tam aydın olsun. Beləliklə, uğurlu təlim nəticəsində, onlar gələcəkdə nitq hissələrinin, cümlə üzvlərinin və digər qrammatik məfhumların bədii mətndəki yerini tapmaqda çətinlik çəkməyəcəklər (24, 110).

Ana dili dərsinin tədrisi zamanı təkcə dil qrammatikası, qanunlarını və s. öyrətmək nəzərdə tutulmur. Təlimdə şagirdin təfəkkürünün inkişafında bədii nümunələrin əhəmiyyəti də böyükdür. Bədii nümunələrin çoxluğu və dərs prosesində hekayələrin təhlili şagirdin leksikasını zənginləşdirir, özünü daha yaxşı ifadə etməsinə kömək edir (24, 101-103). Bu hadisə onun tənqidi təfəkkürünün daha da inkişafına gətirib çıxarır.

Azərbaycan dili fənni üzrə 4 məzmun xətlərindən (dinləyib-anlama, oxu, yazı, dil qaydaları) biri "oxu"dur ki, həmin məzmun xəttinin əsas və alt standartları mətnlər üzərində işlə bağlıdır (7, 26). Sənəddə deyilir:

*"Şagirdlərin müxtəlif mənbələrdən istifadə etməklə həyat şəraiti üçün lazım olan fakt və hadisələri öyrənmə imkanlarını genişləndirir. Lüğət ehtiyatlarının zənginləşdirilməsi, ilkin oxu texnikasının, düzgün tələffüz, sürətli, düzgün, şüurlu, ifadəli oxu vərdişlərinin formalaşdırılması təmin olunur. Oxunmuş müxtəlif növdə, üslubda olan mətnlərin məzmunu üzərində iş aparmaqla fakt və hadisələri qruplaşdırmaq, müqayisə etmək, oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, onlara münasibət bildirmək üçün şərait yaranır. Şagirdlər idraki və hissi bacarıqlara yiyələnmək üçün imkanlar əldə edirlər"* (7, 8-9)

Buradan da aydın olur ki, mətnlər və onların məzmunları üzərində iş aparmaqla şagirdlərdə zehni və hissi bacarıqlar inkişaf edir. Tənqidi düşünmə zehni inkişafla əlaqəli olduğundan mətnlər şagirdlərdə həm də həmin bacarıqların formalaşmasına səbəb olur.

Ədəbi mətnin şagirddə tənqidi düşünməni formalaşdırması üçün ilk növbədə mətnə xas olan xüsusiyyətləri özündə əks etdirməlidir. Bu xüsusiyyətlərdən ən önəmliləri mətndəki hadisələrin düzgün ardıcıllığı və hissələr arasındakı əlaqələrdir.

# IV. BÖLMƏ

# IX SİNİF AZƏRBAYCAN DİLİ DƏRS KİTABLARINDAKI ƏDƏBİ MƏTNLƏRİN TƏNQİDİ DÜŞÜNMƏ BACARIĞI QAZANDIRMA BAXIMINDAN İNCƏLƏNMƏSİ.

Bu bölmədə, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin əmri ilə hazırlanmış, 2017-2018-ci tədris ilində istifadə olunan IX sinif Azərbaycan dili dərsliyindəki ədəbi mətnlər incələnəcək. Tədqiqatçı tərəfindən hazırlanmış anket-sorğular ekspertlər tərəfindən dəyərləndirilmiş və tədqiqat suallarının cavabları əldə olunmuşdur.

## 4.1. Tənqidi düşünmə bacarığı qazandıra biləcək mətnlərin xüsusiyyətləri

Tənqidi düşünməni formalaşdırmaq üçün ədəbi mətnlərin əhəmiyyəti böyükdür. Ancaq bu da danılmaz faktdır ki, bütün ədəbi mətnlər tənqidi düşünmə bacarığı qazandıracaq səviyyədə deyildir. Bir mətnin bu bacarığı inkişaf etdirməsi üçün onun üzərində dəqiqliklə işlənməlidir.

Təhsilin əsas məqsədlərindən biri olan tənqidi düşünmə bacarığının inkişaf etdirilməsi üçün müəllim sinifdə hekayəni şagirdlərlə təhlil və müzakirə etməli, səbəb-nəticə əlaqəsi qurmalıdır. Ədəbi mətnlər üzərində işləyən şagirdlər onun məzmunu ilə tanış olub, hekayələri əzbərləməməlidirlər. Əksinə, qarşılıqlı sual-cavablar vasitəsi ilə nəticə əldə olunmalıdır.

Ədəbi mətn şagirdlərdə tənqidi düşünməni formalaşdırması üçün bu xüsusiyyətləri daşımalıdır:

- Şagirdlər mətnin təhlili zamanı yalnız bir “doğru” nəticəyə gəlməməlidirlər. Mətni hərtərəfli analiz etməlidirlər.
- Mətndə ziddiyyətli məsələlər olmamalı, dəlillər əsaslı olmalıdır.
- Mətndə qərəzli ifadələr olmamalıdır.
- Mətn şagirdi məntiqli, diqqətli, sorğulayan, düşünməyə yönləndirən olmalıdır. Mətndə gizli, sətraltı ifadələr olmalıdır.
- Mətn şagirdin beynində suallar yaratmaq xüsusiyyətinə malik olmalıdır (21, 983-998).

## 4.2. Tədqiqat suallarinin analizi və şərhi

Bu bölmədə IX sinif Azərbaycan dili dərsliyindəki ədəbi mətnlər tənqidi düşünmə bacarığı qazandırması baxımından incələnmişdir. Azərbaycan dili müəllimlərinin düşünmə bacarığını inkişaf etdirmələri üçün hansı metod və texnikalardan istifadə etdikləri araşdırılmışdır.

“Azərbaycan dili müəllimlərinin ədəbi mətnlərlə işləmə texnikaları anketi” və “ Ekspert fikirləri anketi”indən əldə olunmuş məlumatlara əsasən tədqiqat suallarına cavablar tapılmışdır.

**Tədqiqatın birinci sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın birinci sualı belədir: “IX sinif Azərbaycan dili dərs kitabındakı ədəbi mətnlər şagirdlərdə tənqidi düşünmə bacarığını inkişaf etdirə bilməsi üçün hansı xüsusiyyətlərə malik olmalıdır? Bu xüsusiyyətlər içərisində ortaq olanları varmı?”

Azərbaycan dili dərsliklərindəki ədəbi mətnlərin tənqidi düşünmə bacarığını formalaşdırması üçün tələb olunan bacarıqlar müəyyən olunduqdan sonra ekspertlərə paylanmış sorğu-anket nümunəsinə verilən cavablar əsasında tədqiqat sualı araşdırılmışdır. Nəticələr **Cədvəl.4** –də göstərilmişdir.

**Cədvəl 4.** Tənqidi düşünmə bacarığını inkişaf etdirə biləcək mətnlərdən gözləniləcək keyfiyyətlərin ekspertlər tərəfindən qiymətləndirilməsi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | s | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgün olmalıdır. | 4 | 100 | | | | | 4 | 100 |
| 2. Hədəf kütlə (lX sinif) tərəfindən başa düşülən olmalıdır. | 4 | 100 | | | | | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəli olmalıdır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaratmalı və onları bu suallara cavab axtarmağa yönləndirməlidir. | 4 | 100 | | | | | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünə bilən olmalıdır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanmalıdır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verilməlidir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna bilən olmalıdır. | 4 | 100 | | | | | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verməlidir. | 4 | 100 | | | | | 4 | 100 |
| 10. Zaman, məkan obrazlar və hadisələrin axışı bir-birləri ilə əlaqələndiriləbilən olmalıdır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 11. Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıq olmalıdır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |

Cədvəldə göstərilmiş meyarların ekspertlər tərəfindən qiymətləndirilməsi belədir: 1, 2, 4, 8, 9- cu maddələr ekspertlər tərəfindən 100 % “uyğun” cavabı ilə qiymətləndirilmişdir. 3, 5, 6, 7, 10, 11-ci meyarlar isə 80 % “uyğun” , 20%-i isə “qismən uyğun” olduğunu bildirmişlər. Elə bu səbəbdən də ekspertlər tərəfindən cavablandırılan sorğu-anket forması həmin meyarlar əsasında incələnmişdir.

**Tədqiqatın ikinci sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın ikinci sualı belədir: “IX sinif dərsliklərində olan ədəbi mətnlər şagirdlərdə tənqidi düşünmə bacarığı qazandırmaq üçün uyğundurmu?”

Bu sualın cavabını araşdırarkən IX sinif Azərbaycan dili dərsliyindəki ədəbi mətnlər seçilmişdir. Tənqidi düşünməni inkişaf etdirmək üçün bir mətndən tələb olunan xüsusiyyətlər tədqiqatçı tərəfindən anket-sorğu halına gətirilmiş və bununla da ayrı-ayrı hekayələr ekspertlər tərəfindən qiymətləndirilmişdir.

Aşağıdakı cədvəldə IX sinif Azərbaycan dili dərsliyindəki həmin mətnlər verilmişdir. Mətnlərin sayı çox olsa da həcmləri böyük deyildir.

**Cədvəl 5.** IX sinif Azərbaycan dili dərsliyindəki ədəbi mətnlər

| Mətnin adı | Müəllifi | Səhifə sayı |
|---|---|---|
| Ana Qucağı | İsmayıl Həqqi | 2 |
| Ana dili | Fiyuzat jurnalından | 1.5 |
| Üçüncü il | Cəlil Məmmədquluzadə | 1.5 |
| Sizi təbrik edirəm qızlar! | Seyfəddin Dağlı | 3 |
| Bir ağacın hekayəsi | Vüqar Adilov | 2 |
| ən yaxın planet | Elxan Elatlı | 2.5 |
| Ağ göyərçin | Fiyuzat jurnalı | 3 |
| Bir şahidin beş şəhidi | Elmira Qasımova | 2 |
| Şah abbas və çəkməçi | Anonim (rəvayət) | 2 |
| Qarı dağı | İlyas Əfəndiyev | 3 |

Mətnlərlə bağlı ekspert rəyləri aşağıdakı kimidir:

**“ANA QUCAĞI” mətni**

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində “Dil, təhsil və cəmiyyət” bölməsində yerləşir. Hekayə İsmayıl Həqqi tərəfindən ixtisarla yazılmışdır və həcmi ümumilikdə 2 səhifədən ibarətdir.

**Mətnin məzmunu**

Hekayə 4 yasılı uşağın anası ilə dialoqu üzərində qurulmuşdur. Balaca qəhrəman ağlayaraq anasından xahiş edir ki, ona icazə versin, gedib qonşunun oğlu Raufun nə üçün valideyni tərəfindən döyüldüyünü öyrənsin. Beləliklə, öyrənir ki, uşağı döyən anasıdır, səbəbi isə Raufun məktəbə getmək istəməməsidir. Ana-bala Raufun valideyni tərəfindən döyülməsini müzakirə edirlər. 4 yaşlı qəhrəmanın anası qonşu valideyni cahil adlandıraraq onun Raufu döyməsini qınayır və məktəbin necə bir yer olduğunu övladına başa salmağa çalışır. Mətnin sonu yarımçıq saxlanılmışdır. Onu tamamlamaq şagirdlərin ixtiyarına buraxılmışdır.

**Cədvəl 5.1** "Ana Qucağı" adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | **Uyğun** | | **Uyğun deyil** | | **Qismən Uyğun** | | **Cəmi** | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | S | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 4 | 100 | | | | | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 4 | 100 | | | | | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | 1 | 25 | 3 | 75 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 1 | 25 | 3 | 75 | | | 4 | 100 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |

Ekspertlərin rəyinə görə, “Ana qucağı” hekayəsində məntiqi ardıcıllıq düzgün, hədəf kütlə tərəfindən 100 % başa düşüləndir. 75 % ekspert rəyinə əsasən, mətnin verdiyi mesajlar şagirdlərdə suallar yaradır və bu suallara cavab axtarmağa yönəldir. Bundan başqa, 75 % müəllim hekayənin məzmununda sətiraltı mənanın “qismən”, 25 %-i isə heç olmadığını bildirmişdir. Müəllimlərin 75 %-i mətnin zehni fəaliyyətin inkişafına kömək etmədiyini bildirmişdir.

Buradan da aydın olur ki, “Ana qucağı” hekayəsi şagirdlərin yaş səviyyəsinə uyğun, başa düşülən olsa da mətndə sətraltı mənaların zəifliyi və şagirdlərin zehni fəaliyyətini gücləndirməməsi onlarda tənqidi düşünmə bacarığını formalaşdırmaq üçün kifayət deyildir.

**“ANA DİLİ”**

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində “Dil, təhsil və cəmiyyət” bölməsində yerləşir. Hekayə “Fiyuzat” jurnalının 2012-ci il buraxlışında dərc olunmuşdur. Həcmi ümumilikdə 1.5 səhifədən ibarətdir.

**Mətnin məzmunu**

Mətn Azərbaycanın görkəmli şairi Məhəmməd Hüseyn Şəhriyarın həyatından bəhs edir. Belə ki, şair şeirini anası ilə bölüşmək qərarına gəlir. Şeir isə fars dilində yazılmışdır. Oğlunu soyuqqanlılıqla dinləyən ana onun suallarına farsca cavab verir, halbuki, Şəhriyarın ağlı kəsəndən evdə hər kəs türkcə danışır. Ana təəccüblənmiş oğluna: *“Sən türkcə şeir yazmırsan ki, mən sənə türkcə cavab verəm? Evimizdə türkcəni həbs etdin”* - deyə cavab verir. Həmin gündən Şəhriyar türkcə şeirlər yazacağına söz verir.

**Cədvəl 5.2** " Ana Dili" adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | S | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 4 | 100 | | | | | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | 1 | 25 | 2 | 50 | 1 | 25 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | 1 | 25 | 1 | 25 | 2 | 50 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 4 | 100 | | | | | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndir. | 4 | 100 | | | | | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |

"Ana dili" hekayəsinə aid ekspert rəyinə əsasən, hekayədə məntiq ardıcıllıq gözlənilmiş; mətnin ideyası şərh edilə və müzakirə oluna biləndir; məkan, zaman, obrazlar bir-biri ilə tam – 100% "uyğun" dur. Ancaq mütəxəssislərin 50%-i qəhrəmanların tənqidi düşünmədiyini bildirmişlər. Ekspertlərin digər 50%-i isə mətndə sətiraltı mənanın və hekayənin məzmununun şagirdlərdə müxtəlif fikirlərin yaranmasına "qismən" imkan verdiyini bildirmişdir.

Anketə verilmiş cavabları dəyərləndirdikdə mətnin tənqidi düşünmə bacarığı formalaşdırmaq üçün bütün lazımi xüsusiyyətlərə malik olmadığını, şagirdlərin

hekayənin məzmununu başa düşüb təhlil etmələri üçün əlavə səy göstərməyəcəklərinin şahidi oluruq.

## “ÜÇÜNCÜ İL”

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində “Dil, təhsil və cəmiyyət” bölməsində yerləşir. Hekayə Cəlil Məmmədquluzadəyə məxsusdur. “Molla Nəsrəddin” jurnalının 1923-cü il, 15 dekabr buraxlışında dərc olunmuşdur. Həcmi ümumilikdə 1.5 səhifədən ibarətdir.

### Mətnin məzmunu

Hekayə satirikdir. Mətndə məktəblərdə tədris olunan “Üçüncü il” kitabından bəhs olunur. Hansı ki, kitabın dili başa düşülən deyildir. Əsərin qəhrəmanı hətta başa düşülmədiyinə görə kitabın bir neçə səhifəsini cırıb atır. Daha sonra isə həmin hissədən nümunələr oxuyaraq dili korlayan müəllifi qınayır.

**Cədvəl 5.3** “ Üçüncü il” adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | S | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 1 | 25 | 1 | 25 | 2 | 50 | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | 2 | 50 | 1 | 25 | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |

Ekspert rəyini dəyərləndirsək, onların 75 %-i "Üçüncü il" mətnində məntiqi ardıcıllığın düzgün olduğunu, əsas ideyanın şərh edilən və müzakirə olunan olduğunu, hekayənin tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verdiyini bildirmişlər. 50 % ekspert mətndə zaman, məkan, obrazlar və hadisələrin axarının bir-birləri ilə əlaqəli olmadığını nəzərə çatdırmışdır. Mütəxəssislərin 50 %-i mətnin hədəf kütlə tərəfindən başa düşülməsinə, şagirdlərdə müxtəlif suallar yaratmasına və həmin suallara cavablar axtarmağa yönəltməsinə "qismən uyğundur" rəyini vermişlər.

Hekayənin tənqidi düşünmə bacarığı formalaşdırıb formalaşdırmaması məsələsinə gəldikdə isə anketə verilmiş cavabları dəyərləndirdikdə mətnlə bağlı bir çox əksikliklərin olduğunu görürük.

## "SİZİ TƏBRİK EDİRƏM, QIZLAR!"

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində "Dil, təhsil və cəmiyyət" bölməsində yerləşir. Əsər Seyfəddin Dağlıya məxsusdur. "Bahar oğlu" romanından ixtisarla verilmişdir. Həcmi ümumilikdə 3 səhifədən ibarətdir.

### Mətnin məzmunu

Əsərin əsas qəhrəmanı Cəfər texnikuma yola düşür. Ancaq bu dəfə o tək deyil. Yanında iki balaca-məktəbli qız da var. Cəfər onları məktəbə yazdırmağa nail

olmuşdur. Ancaq bir məsələ vardır ki, böyük qardaşı Hüseynqulu qızların məktəbə getməsini istəmir. Səbəbi isə dağlı qızlarının məktəb görməməsidir. Hüseynqulu, əgər qızlar təhsil alarsa dağlı camaatının onları qınayacağını düşünür.

**Cədvəl 5.4** "Siz Təbrik Edirəm Qızlar!" adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | S | % | s | % | s | % | S | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 4 | 100 | | | | | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 4 | 100 | | | | | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | 1 | 25 | 3 | 75 | | | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | 1 | 25 | 1 | 25 | 2 | 50 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 4 | 100 | | | | | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |

Ekspertlərin "Sizi təbrik edirəm, qızlar" mətninə verdikləri rəy belədir: 100% mütəxəssis mətnin məntiqi ardıcıllığında bir problem olmadığını, hədəf kütlə tərəfindən başa düşüldüyünü, mətnin məzmununun şagirdlərdə müxtəlif fikirlərin yaranmasına səbəb olduğunu bildirmişlər. 75% ekspert helkayənin

qəhrəmanlarının tənqidi düşünmədiyini nəzərə çatdırmışlar. 50 %-i isə sətiraltı mənanın qismən olduğunu bildirmişdir.

Şagirdlərdə tənqidi düşünmə bacarığını formalaşdırmaq üçün ədəbi mətnlərdən tələb olunan xüsusiyyətlərdən biri də qəhrəmanlarının tənqidi düşünməsidir. Ekspertlərin fikrincə, sözü gedən mətndə qəhrəmanlar tənqidi düşünmür. Bundan əlavə sətiraltı mənaların azlığı da bu mətnin şagirdələri düşündürmədiyini göstərmişdir. Ona görə də, hekayəni tam olaraq tənqidi düşünmə bacarığı formalaşdıracaq mətn hesab etmək olmaz.

## “BİR AĞACIN HEKAYƏSİ”

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində sayca ikinci bölmə olan “Müvəffəqiyyət və cəmiyyət” bölməsində yerləşir. Əsər Vüqar Adilova məxsusdur. Həcmi ümumilikdə 2 səhifədən ibarətdir.

### Mətnin məzmunu

Hekayə bir ağacın dilindən təsvir olunduğuna görə alleqorik mətn hesab olunur. O, yol kənarında bitən tənha bir ağac olsa da, kölgəsində istirahət edən insanların, istəmədən də olsa eşitdiyi söhbətlərin, budaqlarında oynayan uşaqların sayəsində çox şeylərin şahidi olmuşdur. Ağac sözlərindən ümidsizlik tökülən insanlara, soyuq və şaxtali havada yazın gəlişinə ümidini itirməyən ağacları nümunə göstərir. Onun yarpaqlarını qoparıb, budaqlarını qıran insanları isə yalnız özünü düşünüb, ətraf aləmi nəzərə almayan eqoist adlandırır. Ağacların xüsusiyyətlərini isə eqoist insan xarakterinə qarşı qoyur. Onlar istər təbiətə verdiyi oksigenə, istərsə də insanlara bəxş etdiyi barlarına görə heç bir qarşılıq gözləmir, əksinə bunu özləri üçün sevinc mənbəyi hesab edirlər.

**Cədvəl 5.5** "Bir Ağacın Hekayəsi" adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | S | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | 2 | 50 | 2 | 50 | | | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 2 | 50 | 2 | 50 | | | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 4 | 100 | | | | | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 3 | 75 | | | 1 | 25 | 4 4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |

"Bir ağacın hekayəsi" ilə bağlı ekspertlərin hamısı mətndə əsas ideyanın şərh edilə bilən olduğunu söyləmişdir. 75 %-i isə məntiqi ardıcıllığın, məzmunun gerçək həyatla əlaqəli olmasını, tənqidi düşünmə üçün lazım olan zehni fəaliyyətin güclənməsinə tam imkan verdiyini və əsas ideyanın xaricində əlavə ideyalara da açıq olduğunu bildirmişlər. 50 % ekspert hekayənin qəhrəmanlarının tənqidi düşünmə sərgiləmədiyini və məzmununun şagirdləri düşündürmədiyini bildirmişdir.

Qəhrəmanları tənqidi düşünməyən və məzmunu şagirdlərin hərtərəfli düşünməsinə xidmət etməyən hekayə tələblərə cavab vermir. Ekspertlərin rəyindən belə bir nəticə əldə etmək olar ki, hekayə şagirdlərdə tənqidi düşünmə bacarığını formalaşdırmaq üçün lazımi xüsusiyyətlərə malik deyildir.

**"ƏN YAXIN PLANET"**

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində "Müvəffəqiyyət və cəmiyyət" bölməsində yerləşir. Əsər Elxan Elatlıya məxsusdur. "Ən yaxın planet" romanından ixtisarla verilmişdir. Həcmi ümumilikdə 2.5 səhifədən ibarətdir.

**Mətnin məzmunu**

Hekayədə 40 yaşlı alim-tədqiqatçı Aqşin Fəridzadənin həyatından bəhs olunur. O, ömrünün böyük bir qismini elmə həsr etmişdi. Sonda isə insanları addımbaaddım izləyən kamera ixtira etmişdir. Onun kəşfindən yalnız institutun rektoru və köməkçisi xəbərdar idi. İxtirası ilə bağlı Müdafiə Nazirliyinə gedəcəyi gün iki şəxs onu təhdid edərək məlumatları almaq istəyəndə Fərid ölməyi ixtirasını düşmənə verməkdən üstün tutur.

**Cədvəl 5.6** "Ən Yaxın Planet" adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | S | % | S | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 1 | 25 | 1 | 25 | 2 | 50 | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | 1 | 25 | 3 | 75 | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | 2 | 50 | 2 | 50 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | 1 | 25 | | | 3 | 75 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 1 | 25 | | | 3 | 75 | 4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | 1 | 25 | | | 3 | 75 | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 1 | 25 | | | 3 | 75 | 4 | 100 |

“Ən yaxın planet” mətnini qiymətləndirən ekspertlərin 75 %-i hədəf kütlə tərəfindən “qismən” başa düşülən olduğunu, 25 %-i isə başa düşülmədiyini bildirmişdir. 50 % mütəxəssis qəhrəmanların tənqidi düşünmə bacarığı sərgiləmədiyini, digər 50 % -i isə “qismən” formalaşdırdığını bildirmişdir. 75 % ekspert mətnin “qismən” sətiraltı məna daşıdığını, düşünmə üçün lazım olan zehni fəaliyyətin güclənməsinə imkan verdiyini, əsas ideyanın xaricində əlavə ideyalara açıq olduğunu qeyd etmişlər.

Bir mətnin hədəf kütlə tərəfindən anlaşılan olmaması şagirdin həmin hekayənin ideyasını, qəhrəmanının xarakterini düzgün başa düşməməsinə gətirib çıxarır. Belə bir mətnnin şagirdlərdə tənqidi düşünmə bacrığını formalaşdırması çətindir.

**“AĞ GÖYƏRÇİN”**

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində “Müvəffəqiyyət və cəmiyyət” bölməsində yerləşir. “Fiyuzat” jurnalının 2011-ci il buraxlışında dərc olunmuşdur. Həcmi ümumilikdə 3 səhifədən ibarətdir.

**Mətnin məzmunu**

Hekayə bir evin eyvanına göyərçinlərin gəlməsi ilə başlayır. Quşlar elə eyvandaca yuva qururlar. Qış aylarında onların ətçə balalarının donaraq ölməsi ev sahibinin quş yuvasını evinə daşımasına səbəb olur. Bir müddətdən sonra quşlar yenidən bala çıxarırlar. Evin kiçik qızı bütün bu hadisələri maraqla izləyir. Bir gün göyərçinin balaları evin içindəcə can verib ölürlər. Olduqca qəmgin olan ev sahibi - ata bunun əsas səbəbini araşdırır. Sonda aydın olur ki, hər şeyin səbəbkarı siqaret tüstüsü imiş. Bir neçə gün öncə qaynı həyat yoldaşı ilə onlara qonaq gələndə evdə papiros çəkmiş, tüstüsü isə göyərçin balalarını öldürmüşdür.

**Cədvəl 5.7** "Ağ Göyərçin" adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | S | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 4 | 100 | | | | | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | 1 | 25 | 2 | 50 | 1 | 25 | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 1 | 25 | 2 | 50 | 1 | 25 | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | 1 | 25 | 2 | 50 | 1 | 25 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | 1 | 25 | 3 | 75 | | | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 1 | 25 | 3 | 75 | | | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna bilər. | 4 | 100 | | | | | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin gücləndirilməsinə imkan verir. | 1 | 25 | 3 | 75 | | | 4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 1 | 25 | | | 3 | 75 | 4 | 100 |

Ekspert rəylərinə əsasən, “Ağ göyərçin” hekayəsində mətn xüsusiyyətləri düzgün, əsas ideyası şərh edilə, müzakirə oluna biləndir. Ancaq 75 %-nin dəyərləndirməsinə görə mətndə sətiraltı ifadələr yoxdur, şagirdləri düşünməyə və tənqidi düşünməyə vadar etmir. 50 % mütəxəssis mətnin gerçək həyatla əlaqəli olmadığını, mətnin verdiyi mesajların şagirdlərdə heç bir sual yaratmadığını, qəhrəmanların tənqidi düşünmə sərgiləmədiyini bildirmişdir. Bu cür əksiklikləri olan mətn şagirdlərdə heç vaxt tənqidi düşünmə bacarığını inkişaf etdirə bilməz.

## “BİR ŞAHİDİN BEŞ ŞƏHİDİ”

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində “Mənəviyyat və cəmiyyət” bölməsində yerləşir. Hekayə Elmira Qasımovaya məxsusdur. Həcmi ümumilikdə 2.5 səhifədən ibarətdir.

### Mətnin məzmunu

Hekayədə Xocalı faciəsi zamanı bir ananın şahidi olduğu hadisələrdən bəhs olunur. Evindən çətinliklə də olsa ayrılan ana beş övladından ikisini özü ilə götürür. Digər ikisi ataları ilə, biri isə qaynatası ilə getməli olur. Qışın sərt soyuğunda ana çətin, keşməkeşli yollarla irəliləyir. Tanış insanların cəsədləri ilə rastlaşır. Qaynatası ilə oğlunun birinin öldüyünü görür. Ancaq ana ümidini üzmədən, övladlarının yaşaması üçün yoluna davam edir.

**Cədvəl 5.8** “Bir Şahidin Beş Şəhidi” adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | S | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | 4 | 100 | | | | | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 1 | 25 | | | 3 | 75 | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | 1 | 25 | 2 | 50 | 1 | 25 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | 1 | 25 | 2 | 50 | 1 | 25 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 1 | 25 | 2 | 50 | 1 | 25 | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 2 | 50 | | | 2 | 50 | 4 | 100 |

“Bir şahidin beş şəhidi” adlı hekayə ilə əlaqədar ekspertlərin hər biri mətnin gerçək həyatla əlaqəli olduğunu bildirmişlər. Ekspertlərin 75 %-i mətndə məntiqi ardıcıllığın düzgün olduğunu; hədəf kütlə tərəfindən tam başa düşüldüyünü; əsas ideyanın şərh edilə bilən və müzakirə oluna bilən olduğunu; zaman, məkan, obrazlar və hadisələrin axarı baxımından bir-biriləri ilə əlaqələndirilə bilindiyini göstərmişlər. Mütəxəssislərin 50 %-nin fikrincə hekayənin qəhrəmanları tənqidi düşünmür, mətndə heç bir sətiraltı ifadə yoxdur,

şagirdlərdə müxtəlif fikirlərin yaranmasına xidmət etmir. Hekayədəki əksikliklər şagirdlərdə tənqidi düşünmə bacarığının formalaşdırılmasının qarşısını alır.

## "ŞAH ABBAS VƏ ÇƏKMƏÇİ"

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində "Mənəviyyat və cəmiyyət" bölməsində yerləşir. "Rəvayətli ifadələr" kitabından götürülmüşdür. Həcmi ümumilikdə 2 səhifədən ibarətdir.

**Mətnin məzmunu**

Hekayə dərviş paltarı ilə şəhəri gəzən Şah Abbasın çəkməçi kişinin evinə gəlməsi ilə başlayır. Şah Abbas kişinin evində şadlıq görüb səbəbini soruşur. Çəkməçi cavabında nə olur olsun evinə ət, yağ, düyü alıb gətirə bildiyini, Allaha şükür etdiyini, buna görə də xoş əhval-ruhiyyədə olduqlarını söyləyir. Şah bilərəkdən bütün ölkədə çəkməçiliyi ləğv edir, gəlib görür ki, kişi çörəkpulu qazanmaq üçün su satmaqla məşğul olur. Çəkməçini ikinci dəfə sınağa çəkir, su satmağı da qadağan edir. Növbəti gəlişində öyrənir ki, çəkməçi saray gözətçisi işləyir. Ona verilən xəncəri isə gizlin kirayə verib maaş alana qədər pul qazanır. Şah onun yanına gəlir və əmr edir ki, məhbusun başını vursun. Çəkməçi özünü itirməyərək xəncəri çıxararkən:

"... məhbusun bir günahı yoxdursa xəncərim qınından çıxarkən taxta olsun". -deyir. Hər kəs taxta qılıncı görüb təəccüblənsə də Şah Abbas hər şeyi başa düşür. Kişinin ağıllı hərəkətləri, həyat tərzi onun xoşuna gəlir. Çəkməçiyə var-dövlət bağışlayır.

**Cədvəl 5.9** “Şah Abbas Və Çəkməçi” adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | F | % | F | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | 4 | 100 | | | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | 3 | 75 | 1 | 25 | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | 1 | 25 | 3 | 75 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | 1 | 25 | 3 | 75 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 2 | | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 2 | | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 2 | | | | 2 | 50 | 4<br>4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 1 | 25 | 1 | 25 | 2 | 50 | 4 | 100 |

75 % mütəxəssis mətndə məntiqi ardıcıllığın düzgün olduğunu, IX sinf şagirdləri tərəfindən tam başa düşüldüyünü, zaman, məkan, obrazlar və hadisələrin axarı baxımından bir-biriləri ilə əlaqələndiriləbilən olduğunu bildirmişdir. Ekspertlərin yekdil rəyi ilə “Şah Abbas və çəkməçi” hekayəsinin gerçək həyatla heç bir əlaqəsi olmadığı cavabı verilmişdir. Onların 75 %-i mətnin verdiyi mesajların şagirddə suallar yaratmadığını və onları bu suallara cavab

axtarmağa yönləndirmədiyini bildirmişdir. 25 % ekspert qəhrəmanların tənqidi düşünmə sərgiləmədiyini, hekayədə sətiraltı ifadələrin olmadığını bildirsə də, həmin meyarlar üzrə 75 % mütəxəssis hekayədə bu xüsusiyyətlərin "qismən" mövcud olduğunu ifadə etmişlər.

Şagirdlər mətndən öyrəndikləri informasiyanı reallıqla əlaqələndirib, gözləri önündə canlandıra bilmirlərsə; hekayənin ideyası ilə bağlı onlarda müxtəlif suallar və həmin suallara cavab axtarmaq istəyi yaranmırsa, bu mətn şagirdləri tənqidi düşünməyə vadar edə bilməz.

**"QARI DAĞI"**

Bu mətn IX sinif Azərbaycan dili dərsliyində "Mədəni irs və cəmiyyət" bölməsində yerləşir. Görkəmli yazıçı İlyas Əfəndiyev tərəfindən yazılan "Qarı dağı" hekayəsinin həcmi 3 səhifədən ibarətdir.

**Mətnin məzmunu**

Hekayə, şahın oğlu Məliktacın şəhərə hücum edərək qoca, cavan, uşağa aman vermədən buranı işğal etməsi ilə başlayır. Ancaq qələbəni qeyd etdiyi məqamda şahın oğlu sağalmaz xəstəliyə düçar olur. Şah oğlunun dərdinə çarə tapa bilmir. Bu vaxt ona işğal etdikləri şəhərdə falçı Ballı qarıdan söz açırlar. Hansı ki, o, bütün dərdlərin dərmanını bilir. Şah qarının ayağına gedib oğlunu sağaltmaq üçün ağız açmağa məcbur olur. Qarı Məliktacı sağaltmağa razı olur. Bütün şəhər qarını qınayıb, ona bu hərəkətinə görə nifrət edir. Şahzadə 11 gün içərisində şəfasını tapır. Daha sonra falçı qarı dağ çiçəklərindən şirin məlhəm hazırlayıb, canlara dərmandır deyib, ata-balaya içirdir. Şah və oğlu arvadın məlhəmə qatdığı zəhər ilə ölürlər. Beləliklə, qarı nənə elinə, vətəninə sevgisini sübut etmiş, düşməndən isə qisasını almış olur.

**Cədvəl 5.10** "Qarı Dağı" adlı mətnə uyğun ekspert rəyi

| Meyarlar | Uyğun | | Uyğun deyil | | Qismən Uyğun | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | s | % |
| 1. Mətndə məntiqi ardıcıllıq düzgündür. | 4 | 100 | | | | | 4 | 100 |
| 2. Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 3. Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | 4 | 100 | | | 4 | 100 |
| 4. Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 5. Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 6. Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |
| 7. Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | 3 | 75 | | | 1 | 25 | 4 | 100 |
| 8. Əsas ideya şərh edilə və müzakirə oluna biləndir. | 4 | 100 | | | | | 4 | 100 |
| 9. Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 4 | 100 |
| 10. Zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | 3 | 75 | 1 | 25 | | | 4 | 100 |
| 11. Mətn əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | 2 | 50 | 1 | 25 | 1 | 25 | 4 | 100 |

Kitabın sonuncu ədəbi mətni olan "Qarı dağı" hekayəsini dəyərləndirən ekspertlərin 100 %-i hekayədə məntiqi ardıcıllığın düzgün, əsas ideyanın şərh edilə bilən olduğunu bildirmişlər. 75 % mütəxəssis mətnin verdiyi mesajların şagirddə suallar yaratdığını; qəhrəmanların tənqidi düşündüyünü; hekayənin şagirdləri dərin düşünməyə vadar etdiyini; zaman, məkan, obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbilən olduğunu bildirmişlər. Ekspertlərin 4-ü də

mətnin gerçək həyatla uyğun olmadığını bildirmişdir. Bu nəticələr onu göstərir ki, həkayədə bəzi əksikliklər olsa da şagirdlərdə tənqidi düşünmə bacarığını qismən də olsa formalaşdıra bilər.

Müxtəlif ölkələrin şagirdlərinin təhsil nəaliyyətlərini artırmaq üçün beynəlxalq təşkilatlar tərəfindən təşkil olunan proqramların (PİSA, PİRLS) yoxladığı əsas bacarıqlardan biri də *oxu*dur. Şagirdlərdə oxu qabiliyyəti təkcə bədii qiraət, sözləri doğru tələffüz etmə, şifahi nitq vərdişlərinə yiyələnməklə deyil, qavrama, mətnlərdən məlumat əldə edərək əlaqələndirmə, izah etmə, təhlil etmə, dəyərləndirmə bacarıqlarını formalaşdırmaqla yarana bilər. Bütün bu bacarıqlar şagirlərin mətnlər üzərində işləməsi ilə formalaşdırır. 2006-2009-cu illərdə PİSA proqramına qoşulan Azərbaycan şagirdlərinin nəticələri o qədər də ürəkaçan deyildir. Təhsil üzrə mütəxəssis Təranə Hacıyeva bu illərdəki nəticələri təhlil etmiş və belə qənaətə gəlmişdir ki, şagirdlərimiz mətnlərdən ələdə etdikləri informasiyanı real hadisələrlə əlaqələndirir, anlayır, müqayisə edir. Ancaq onlar mürəkkəb mətnlərdə sətirlatı gizli məlumatları təyin və müqayisə etməkdə, şəxsi təcrübələri ilə əlaqələndirməkdə çətinlik çəkirlər (17, 27-37) Bu isə onlarda tənqidi düşünmə qabiliyyətinin formalaşmamasının göstəricisidir. Əslində asanlıqla demək olar ki, bütün bu nəticələrin basılıca səbəbi həmin illərdə IX sinif şagirdlərinin keçdiyi təhsil proqramının fənyönümlü və bilikyönümlü olması ilə əlaqədardır. Tədqiqatın bu bölməsində yeni standartlara uyğun yaradılmış dərsliklərdən biri olan IX sinif Azərbaycan dili kitabındakı ədəbi mətnləri ekspertlərin rəyi əsasında ayrı-ayrı təhlil edərkən belə nəticəyə gəlmək olar ki, bu gün yeni dərs vəsaitləri hələ də beynəlxalq tələblərə tam uyğun deyildir, ciddi dəyişikliklər edilməsi vacibdir.

**Tədqiqatın üçüncü sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın üçüncü sualı belədir: “Azərbaycan dili müəllimləri dərs prosesində ədəbi mətnlər üzərində necə işləyirlər?”

**Cədvəl 6.** Azərbaycan dili müəllimlərinin ədəbi mətnlərlə işləmə davranışlarının statistikası

| Maddələr | Hər zaman | | Tez-tez | | Bəzən | | Heç vaxt | | $\bar{X}$ |
|---|---|---|---|---|---|---|---|---|---|
| | say | % | say | % | say | % | Say | % | |
| 1.Hekayələr üzərində işləyərkən metodiki vəsaitdəki tapşırıqları eyni ilə tətbiq edirəm. | 28 | 50 | 23 | 41 | 5 | 9 | | | 3.41 |
| 2.Mətnlər üzərində işləyərkən müzakirə texnikalarından (debat, mübahisə, panel,...) istifadə edirəm. | 23 | 41 | 26 | 46.4 | 6 | 10.7 | | | 3.25 |
| 3.Mətnlər üzərində işləyərkən motivasiya üçün beyin fırtınası üsulundan istifadə edirəm. | 5 | 8.9 | 23 | 41 | 27 | 48.2 | 2 | 3.5 | 2.58 |
| 4.Ədəbi mətnlər üzərində işləyərkən "Altı Şapkalı Düşünmə" metodundan istifadə edirəm. | | | 3 | 5.3 | 28 | 50 | 25 | 44.6 | 1.6 |
| 5.Ədəbi mətnləri sual-cavab texnikasından istifadə edirəm | 33 | 59 | 23 | 41 | | | | | 3.58 |
| 6.Mətnlər üzərində işlərkən şagirdlərin özlərini ifadə etməyinə şərait yaradıram. | 51 | 91 | 5 | 9 | | | | | 3.91 |
| 7.Mətnlər üzərində işlərkən əlavə mənbələrdən və vəsaitlərdən istifadə edirəm. | 11 | 19.6 | 31 | 55.3 | 12 | 21.4 | 2 | 3.5 | 2.91 |
| 8.Mətnlər üzərində işləməmişdən əvvəl şagirdlərin buna hazırlıq səviyyələrini nəzərə alıram. | 40 | 71.4 | 7 | 12.5 | 8 | 14.2 | 1 | 1.8 | 3.53 |
| 9.Ədəbi mətnlər üzərində işləyərkən mühazirə metodundan istifadə edirəm. | 8 | 14.2 | 13 | 23.2 | 27 | 48.2 | 8 | 14.2 | 2.37 |
| 10.Dərsin motivasiya mərhələsində mətnlə əlaqəli müxtəlif və şagirdlərin şərh edə biləcəyi materyallar (rəsm, hekayə, film və s.) gətirirəm | 4 | 7.1 | 17 | 30.3 | 35 | 62.5 | | | 2.44 |
| 11.Mətnləri oxumadan öncə motivasiya yaratmaq məqsədi ilə şagirdlərlə müzakirə şəraiti yaradıram. | 26 | 46.4 | 27 | 48.2 | 3 | 5.3 | | | 3.41 |
| 12.Mətnlər üzərində işləyərkən şagirdləri daha az danışdırıram. | | | 4 | 7.1 | 15 | 26.7 | 37 | 66 | 1.41 |
| 13.Şagirdlərə dərsin sonunda hekayə ilə əlaqəli gözləntilərimi deyirəm. | 21 | 7.5 | 10 | 17.8 | 20 | 35.7 | 5 | 9 | 2.83 |
| 14.Mətnlərlə işləyərkən şagirdlərin müxtəlif oxuma texnikalarından (tənqidi, not almaq, | 26 | 46.4 | 26 | 46.4 | 4 | 7.1 | | | 3.39 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| işarə etmək, sual verərək oxuma, təxmin edərək və s.) istifadə etməsinə şərait yaradıram. | | | | | | | | | |
| 15.İstifadə edilən oxu texnikasına ayrılan vaxtı mən müəyyən edirəm. | 31 | 55.3 | 11 | 19.6 | 14 | 25 | | | 3.3 |
| 16.Şagirdlərə ədəbi mətnlərdəki sətiraltı mənaları tapmağa yönəlmiş suallar tərtib edirəm. | 12 | 21.4 | 29 | 51.7 | 13 | 23.2 | 2 | 3.5 | 2.91 |
| 17.Hekayələrin başa düşülməsi üçün oxunub xülasə olunması ilə kifayətlənirəm. | | | 6 | 10.7 | 20 | 35.7 | 30 | 53.5 | 1.57 |
| 18.Mətnləri anlama və şərh etmə müddətində metodiki vəsaitdəki suallarla kifayətlənirəm. | 3 | 5.3 | 5 | 9 | 20 | 35.7 | 28 | 50 | 1.69 |
| 19.Mətnləri anlama və şərh etmə zamanı metodiki vəsaitdən əlavə suallar hazırlayıram. | 12 | 21.4 | 34 | 60.7 | 7 | 12.5 | 3 | 5.3 | 2.98 |
| 20.Şagirdlərin mətnlə bağlı cavab verə bilmədikləri və ya yanlış cavab verdikləri sualları mən cavablandırıram. | 21 | 37.5 | 15 | 26.7 | 20 | 35.7 | | | 3.01 |
| 21.Mətnlə bağlı şagirdlərin sual verməsinə şərait yaradıram. | 49 | 87.5 | 7 | 12.5 | | | | | 3.87 |
| 22.Şagirdlərdən müxtəlif sual və ya cavab verənləri təqdir edirəm. | 38 | 67.8 | 12 | 21.4 | 2 | 3.5 | 4 | 7.1 | 3.5 |
| 23.Şagirdlərin mətnə fərqli yanaşmalarına şərait yaradıram. | 33 | 58.9 | 19 | 33.9 | 4 | 7.1 | | | 3.51 |
| 24.Şagirdlərin mətnin məzmunu ilə bağlı məişətdə rastlaşdıqları hadisələrlə əlaqələndirib fikir bildirmələrinə şərait yaradıram. | 27 | 48.2 | 27 | 48.2 | 2 | 3.5 | | | 3.44 |
| 25.Şagirdlərin mətnin məzmunu ilə bağlı olan nümunələri mətnlə əlaqələndirmələrinə şərait yaradıram. | 21 | 37.5 | 28 | 50 | 7 | 12.5 | | | 3.25 |
| 26.Dərs prosesində müxtəlif audiovizual materiallardan istifadə edərək şagirdlərin mətnə yönəlmiş suallar verməsini təmin edirəm. | | | 19 | 33.9 | 31 | 55.3 | 6 | 10.7 | 2.23 |
| 27.Şagirdlərə mətndəki səbəb-nəticə əlaqələrini qurmalarına şərait yaradıram. | 19 | 33.9 | 30 | 53.5 | 7 | 12.5 | | | 3.21 |
| 28.Ədəbi mətnlərdə əsas və köməkçi ideyaların tapılması üçün şagirdlərə yönəldici işarələr verib cavabları onlardan gözləyirəm. | 28 | 50 | 22 | 39.2 | 6 | 10.7 | | | 3.39 |
| 29.Müzakirəyə yalnız nəaliyyətləri yüksək olan şagirdləri qatıram. | | | 4 | 7.1 | 9 | 16 | 43 | 76.8 | 1.3 |
| 30.Ədəbi mətnlərlə işləyərkən şagirdlərin şərh etmə gücünü istifadə etməsinə şərait yaradıram. | 38 | 67.8 | 17 | 30.3 | 1 | 1.8 | | | 3.66 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 31.Dərsin sonunda, şagirdlərdən dərsi qisa xülasə ilə dəyərləndirilmələrini istəyirəm. | 18 | 32.1 | 29 | 51.7 | 9 | 16.1 | 3.16 |
| 32.Şagirdlərin, ədəbi mətnlərdən gündəlik həyatla bağlı nəticə çıxarmalarına şərait yaradıram. | 32 | 57.1 | 22 | 39.2 | 2 | 3.5 | 3.53 |
| 33.Təlimin sonunda şagirdlərimi mövzu ilə bağlı tədqiqat aparmağa yönəldirəm. | 18 | 32.1 | 32 | 57.1 | 6 | 10.7 | 3.21 |

Cədvəldən görüldüyü kimi Azərbaycan dili müəllimlərinin ədəbi mətnlər üzərində işləmə davranışları belədir.

Aritmetik ortalamanı nəzərdən keçirdikdə 1.3 ilə 3.91 arasında dəyişdiyini görürük. Ən aşağı ortalama 29-cu maddə olan "Müzakirəyə yalnız nailiyyətləri yüksək olan şagirdləri qatıram."aiddir. Bu maddəni dəyərləndirən müəllimlərin 76.8 %-i "heç vaxt" deyə cavab vermişdir. Anketdəki digər aşağı - 1.41 aritmetik ortalama isə 12-ci maddə olan "Mətnlər üzərində işləyərkən şagirdləri daha az danışdırıram." aiddir. Müəllimlərin 66%-i bu suala "heç vaxt" cavabını vermişdilər. 17-ci - "Hekayələrin başa düşülməsi üçün oxunub xülasə olunması ilə kifayətlənirəm." maddəsinə cavab verən müəllimlər isə 1.57 ortalama ilə 53.5 %-i "heç vaxt" cavabını vermişdir.

Ən yüksək göstərici 6-cı sualın – "Mətnlər üzərində işlərkən şagirdlərin özlərini ifadə etməyinə şərait yaradıram." cavabında verilmişdir. 3.91 aritmetik ortalama ilə 91% müəllim bu sualı "hər zaman" deyə qiymətləndirmişdir. Digər yüksək ortalama 3.87 ilə 21-ci maddə olan "Mətnlə bağlı şagirdlərin sual verməsinə şərait yaradıram."a aiddir. Həmin müəllimlərin 87.5 %-i bu sualı "hər zaman" deyə cavablandırmışdır. 30-cu maddəyə - "Ədəbi mətnlərlə işləyərkən şagirdlərin şərh etmə gücünü istifadə etməsinə şərait yaradıram." 67.8% müəllim 3.66 aritmetik ortalama ilə "hər zaman" cavabını vermişdir.

Yuxarıdakı statistikanı dəyərləndirdikdə aydın olur ki, müəllimlərin tənqidi düşünmənin nə demək olduğundan, həmin bacarığı formalaşdırmaq üçün şagirdlər üçün necə şərait yaradıldığından xəbərləri vardır və həmin bacarığı şagirdlərdə formalaşdırmaq üçün müəyyən addımlar atırlar.

**Tədqiqatın dördüncü sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın dördüncü sualı belədir: "Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən ən çox hansı öyrənmə metodlarından istifadə edirlər?"

Tədqiqatın bu sualı ilə bağlı nəticələr müəllimlərə paylanan anketin 34-cü bəndində verdikləri cavabların əsasında çıxarılmışdır. Cavablar aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl** 7. Azərbaycan dili müəllimlərinin ən çox istifadə etdikləri metodlar

| Təlim metodları | Təlim metodlarından üstünlük sırası | | | | | |
|---|---|---|---|---|---|---|
| | Sıra | | Sıra | | Sıra | |
| | f | % | F | % | F | % |
| Beyin həmləsi | 21 | 37.5 | 14 | 25 | 4 | 7.1 |
| Sual – cavab | 3 | 5.3 | 2 | 3.6 | 6 | 10.7 |
| Müzakirə | 8 | 14.3 | 10 | 17.8 | 9 | 16.1 |
| Rollu oyun | 1 | 1.8 | 1 | 1.8 | 5 | 8.9 |
| Prezentasiya (təqdimat) | 0 | 0 | 2 | 3.6 | 0 | 0 |
| Tədqiqatın aparılması | 6 | 10.7 | 9 | 16.1 | 10 | 17.8 |
| Təşkilati metod | 0 | 0 | 0 | 0 | 1 | 1.8 |
| Mühazirə | 0 | 0 | 0 | 0 | 2 | 3.6 |
| Digər | 3 | 5.3 | 4 | 7.1 | 1 | 1.8 |
| Cavabların sayı | 41 | 73.2 | 42 | 75 | 39 | 70 |
| İtirilmiş məlumat | 15 | 26.8 | 14 | 25 | 17 | 30.3 |
| Cəmi | 56 | 100 | 56 | 100 | 56 | 100 |

Cədvəldə verilmiş statistika aşağıdakı qarafikdə daha aydın şəkildə göstərilmişdir.

**Şəkil 4.** Azərbaycan dili müəllimlərinin ən çox istifadə etdikləri metodların qrafiki




Toplanmış məlumatlara əsasən Azərbaycan dili müəllimlərinin ən çox ilk sırada istifadə etdikləri metodların sıralaması belədir: Müəllimlərin 37.5 % -nin ən çox istifadə etdiyi metod "Beyin həmləsi", 5.3 %-i "Sual-cavab", 14.3 %-i "Müzakirə", 1.8 %-i "Rollu oyun" , 10.7 %-i "Tədqiqatın aparılması" , 5.3 % - i isə digər öyrətmə metodu şəklində cavab vermişlər. Tablodan da aydın olur ki, müəllimlərin ən çox istifadə etdikləri metod "Beyin həmləsi" dir. Müəllimləri "Digər" cavabları isə "Praqnozlu oxu", "İfadəli oxu", "Lüğətdən istifadə"dir.

Müəllimlərin ikinci ən çox istifadə etdikləri metodlar isə 25 % səslə "Beyin həmləsi", 3.6 %-i "Sual-cavab", 17.8 %-i "Müzakirə", 1.8 %-i "Rollu oyun" , 3.6 %-i "Təqdimat", 16.1 %-i "Tədqiqatın aparılması" , 7.1 %- i isə digər öyrətmə metodu şəklində cavab vermişlər. Tablodan da aydın olur ki, müəllimlərin ən çox istifadə etdikləri metod "Beyin həmləsi" dir. Müəllimlərin "Digər" cavabları isə "Praqnozlu oxu" , "Əsərin xəritəsi", "Mikrafon", "İfadəli oxu" - dur. Bu ifadələrin heç biri təlim metodlarına metodlarına daxil deyil.

Üçüncü ən çox istifadə olunan metodlar isə bunlardır: 17.6 % -nin ən çox istifadə etdiyi metod "Tədqiqatın aparılması", 10.7 %-i "Sual-cavab", 16.1 %-i "Müzakirə", 8.9 %-i "Rollu oyun", 1.8 %-i "Təşkilati metod", 7.1 %-i "Beyin

həmləsi”, 3.6%-i “Mühazirə”, 1.8 % - i isə digər öyrətmə metodu şəklində cavab vermişlər. Tablodan da aydın olur ki, müəllimlərin ən çox istifadə etdikləri üçüncü metod “Tədqiqatın aparılması” dır. “Digər” cavaba isə yalnız bir müəllim “Praqnozlu oxu” cavabını yazmışdır.

Beləliklə müəllimlərin çoxunun “Beyin həmləsi” , “Müzakirə, “Tədqiqatın aparılması” metodlarından istifadə etdikləri aydın olur. Veysova təlim metod və texnikalarının Blum taksanomiyasına görə inkişaf təsnifatını aşağıdakı cədvəldə vermişdir (34, 53)

| TƏLİMİN MƏQSƏDLƏRİ | METOD VƏ TEXNİKALAR |
|---|---|
| Bilik | “Əqli hücum”, Klaster, Təqdimat, Müşahidə |
| Anlama | Diskussiya, Suallar |
| Tətbiq | Rollu oyun, Problemin həlli |
| Analiz | Debatlar, Modelləşdirmə, Kub |
| Sintez | Yaradıcılığı stimullaşdıran üsullar |
| Qiymətləndirmə | Meyar üzrə qiymətləndirmə |

**Cədvəl 8.** Blum taksanomiyası və təlim metodlarının təsnifatı

Dərs prosesində ən çox istifadə edilən metodlarla cədvəli qarşılaşdırsaq belə bir nəticə əldə etmək olar ki, Azərbaycan dili müəllimləri Blum taksanomiyasına əsasən *bilik, anlama* və müəyyən qədər də *tətbiq etmə* səviyyəsində təlim keçirlər. Məlumdur ki, tənqidi düşünmə üst düşünmə prosesi olduğundan Blum taksanomiyasının yüksək pillələrinə uyğundur. Buradan da aydın olur ki, Azərbaycan dili müəllimləri tənqidi düşünmənin inkişafına uyğun olan təlim metodlarından kifayət qədər istifadə etmirlər.

**Tədqiqatın beşinci sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın beşinci sualı belədir: “Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən istifadə edə biləcəkləri öyrənmə metodları haqqında məlumatlıdırlarmı? ”

**Cədvəl 9.** Azərbaycan dili müəllimlərinin ən çox istifadə etdikləri öyrənmə metodlarına verdikləri cavabların bölgüsü

| Cavablar | I.seçim | | II.seçim | | III.seçim | | $\bar{X}$ | % |
|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | | |
| Hər hansı bir təlim metodu yazanlar | 41 | 73.2 | 42 | 75 | 39 | 70 | 40.7 | 72.7 |
| Digər | 3 | 5.3 | 4 | 7.1 | 1 | 1.8 | 2.3 | 4.7 |
| İtirilmiş məlumat | 15 | 26.8 | 14 | 25 | 17 | 30.3 | 15.3 | 27.4 |
| Cəmi | 56 | 100 | 56 | 100 | 56 | 100 | 56 | 100 |

Cədvəldəki məlumatlar incələndikdə Azərbaycan dili müəllimlərinin sorğu-anketin açıq tipli - 34-cü maddəsinə verdikləri cavablar belədir: Azərbaycan dili müəllimləri 40.7 ortalama ilə hər hansısa bir öyrənmə metodundan istifadə edirlər. 2.3 aritmetik ortalama ilə cavab yazan müəllimlərin seçdikləri təlim metodları doğru deyildir. Müəllimlər, 15.3 ortalama ilə heç bir öyrənmə metodu yazmamışlar.

Beləliklə, buradan aydın olur ki, müəllimlərin 72.7 %- təlim metodlarından xəbərdardır, 4.7 %-i təlim metodlarını başqa dərs fəaliyyətləri ilə qarışdırırlar, 27.4 %-i isə ümumiyyətlə bu suala cavab verməmişlər.

Onu da qeyd etmək lazımdır ki, müəllimlərin çox hissəsi istifadə etdikləri təlim metodu ilə texnikası arasındakı fərqi bilmədiklərindən suallara cavab verərkən yalnız texnikaların adlarını çəkmişlər. Təlim texnikaları müəllimin seçmiş olduğu metoddan xəbər verdiyindən tədqiqatçı tərəfindən uyğunlaşdırılaraq yazılmışdır.

Bu cavablardan aydın olur ki, müəllimlərin xeyli hissəsinin təlim metodları və texnikaları haqqında anlayışları vardır. Əgər həmin müəllimlər mütəmadi

olaraq tənqidi düşünmənin inkişafına kömək edən təlim metodlarından istifadə edərlərsə şagirdlərdə bu bacarıq daha tez formalaşar.

**Tədqiqatın altıncı sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın altıncı sualı belədir: "Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən metodiki vəsaitdən başqa əlavə mənbələrdən və vəsaitlərdən istifadə edirlərmi?"

Tədqiqatda qoyulan bu problem anketin 1, 18 və 19-cu suallarının cavabları əsasında hazırlanmışdır və aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 10.** Müəllimlərin metodiki vəsaitdəki tapşırıqlar üzərində işləməsi

| Maddələr | Hər zaman | | Tez-tez | | Bəzən | | Heç vaxt | | X̄ |
|---|---|---|---|---|---|---|---|---|---|
| | say | % | Sa y | % | say | % | say | % | |
| 1.Hekayələr üzərində işləyərkən metodiki vəsaitdəki tapşırıqları eyni ilə tətbiq edirəm. | 28 | 50 | 23 | 41 | 5 | 9 | | | 3.41 |
| 18.Mətnləri anlama və şərh etmə müddətində metodiki vəsaitdəki suallarla kifayətlənirəm. | 3 | 5.3 | 5 | 9 | 20 | 35.7 | 28 | 50 | 1.69 |
| 19.Mətnləri anlama və şərh etmə zamanı metodiki vəsaitdən əlavə suallar hazırlayıram. | 12 | 21.4 | 34 | 60.7 | 7 | 12.5 | 3 | 5.3 | 2.98 |

Müəllimlərin metodiki vəsaitdəki tapşırıqlar üzərində işləmə şəkilləri aşağıdakı qrafikdə daha aydın verilmişdir.

**Şəkil 5.** "Hekayələr üzərində işləyərkən metodiki vəsaitdəki tapşırıqları eyni ilə tətbiq edirəm." sualına cavab qrafiki



Anketin 1-ci maddəsinə verilən cavablar belədir: müəllimlərin 50 %-i “hər zaman”, 41 %-i “tez-tez”, 9 %-i “bəzən” cavabını vermişlər. Belə ki, müəllimlərdən bir nəfər də olsun “heç vaxt” cavabını verməmişdir.

**Şəkil 6.** "Mətnləri anlama və şərh etmə müddətində metodiki vəsaitdəki suallarla kifayətlənirəm" sualına cavab qrafiki




Anketin 18-ci maddəsinə – “Mətnləri anlama və şərh etmə müddətində metodiki vəsaitdəki suallarla kifayətlənirəm.” ifadəsinə verilən cavablar belədir: müəllimlərin 5.3 %-i “hər zaman”, 9 %-i “tez-tez”, 35.7 %-i “bəzən”, 50 %-i isə “heç vaxt” cavabını vermişlər.

**Şəkil 7.** "Mətnləri anlama və şərh etmə zamanı metodiki vəsaitdən əlavə suallar hazırlayıram." sualına cavab qrafiki



Anketin 19-ci maddəsinə – "Mətnləri anlama və şərh etmə zamanı metodiki vəsaitdən əlavə suallar hazırlayıram." ifadəsinə verilən cavablar belədir: müəllimlərin 21.4 %-i “hər zaman”, 60.7 %-i “tez-tez”, 12.5 %-i “bəzən”, 5.3 %-i isə “heç vaxt” cavabını vermişlər.

Cavabları incələdikdə məlum olur ki, Azərbaycan dili müəllimləri metodiki vəsaitlərdə olan tapşırıqları eyni ilə istifadə etdirlər. Ancaq müasir dövr müəllimindən tələb olunan basılıca cəhətlərdən biri də onun şagirdlərlə birgə dərslikdən, metodiki vəsasaitdən kənar fəaliyyət göstərməsidir. Kitablardan asılı qalan müəllim heç vaxt müstəqil dərs prosesi qura bilməz. Bu isə onu göstərir ki, müəllimlərimiz hələ də ənənəvi təlimin təsiri altındadırlar. Onlar üçün hazırlanmış “qəlib”dən kənara çıxmaq üçün təşəbbüskarlıq göstərmirlər. Demək ki, Azərbaycan dili müəllimlərində tənqidi düşünmə bacarığı kifayət qədər formalaşmamışdır. Tənqidi düşünmə bacarığı formalaşmamış müəllim şagirdlərə bu keyfiyyəti aşılaya bilməz .

Digər iki maddəni dəyərləndirdikdə, Azərbaycan dili müəllimləri mətnlər üzərində işləyərkən metodiki vəsaitdən kənarda müxtəlif suallar hazırladıqlarını bildirmişlər. Ancaq bu, “Hekayələr üzərində işləyərkən metodiki vəsaitdəki tapşırıqları eyni ilə tətbiq edirəm.” ifadəsi ilə üst-üstə düşmür. Çünki, metodiki vəsaitdən asılı olan müəllim heç vaxt kitabdan kənar fərqli suallar hazırlamaz.

**Tədqiqatın yeddinci sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın yeddinci sualı belədir: “Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən ənənəvi təlim metodlarından hansı sıxlıqla istifadə edirlər?”

**Cədvəl 11.** Azərbaycan dili müəllimlərinin ənənəvi təlim metodlarından istifadəsi

| Maddələr | Hər zaman | | Tez-tez | | Bəzən | | Heç vaxt | | X̄ |
|---|---|---|---|---|---|---|---|---|---|
| | say | % | say | % | say | % | say | % | |
| 9. Ədəbi mətnlər üzərində işləyərkən mühazirə metodundan istifadə edirəm. | 8 | 14.2 | 13 | 23.2 | 27 | 48.2 | 8 | 14.2 | 2.37 |
| 12. Mətnlər üzərində işləyərkən şagirdləri daha az danışdırıram. | | | 4 | 7.1 | 15 | 26.7 | 37 | 66 | 1.41 |
| 15. İstifadə edilən oxu texnikasına ayrılan vaxtı mən müəyyən edirəm. | 31 | 55.3 | 11 | 19.6 | 14 | 25 | | | 3.3 |
| 17. Hekayələrin başa düşülməsi üçün oxunub xülasə olunması ilə kifayətlənirəm. | | | 6 | 10.7 | 20 | 35.7 | 30 | 53.5 | 1.57 |
| 20. Şagirdlərin mətnlə bağlı cavab verə bilmədikləri və ya yanlış cavab verdikləri sualları mən cavablandırıram. | 21 | 37.5 | 15 | 26.7 | 20 | 35.7 | | | 3.01 |

Azərbaycan dili müəllimlərinin müəllim mərkəzli təlim qurması aşağıdakı qrafikdə göstərilmişdir:

**Şəkil 8.** Azərbaycan dili müəllimlərinin "Ədəbi mətnlər üzərində işləyərkən mühazirə metodundan istifadə edirəm." fikrinə uyğun cavab qrafiki




Anketin 9-cu maddəsi olan "Ədəbi mətnlər üzərində işləyərkən mühazirə metodundan istifadə edirəm." fikrinə müəllimlər belə münasibət bildirmişlər. Müəllimlərin 14.2 %-i "hər zaman", 23.2 %-i "tez-tez", 48.2 %-i "bəzən", 14.2 %-i "heç vaxt" cavabını vermişlər.

**Şəkil 9.** Azərbaycan dili müəllimlərinin "Mətnlər üzərində işləyərkən şagirdləri daha az danışdırıram." fikrinə uyğun cavab qrafiki




Anketin 12-ci maddəsi olan "Mətnlər üzərində işləyərkən şagirdləri daha az danışdırıram." fikrinə müəllimlər belə münasibət bildirmişlər. Onların 7.1 %-i "tez-tez", 26.7 %-i "bəzən", 66 %-i "heç vaxt" cavabını vermişlər. Sorğuya "hər zaman" deyə cavab verən müəllim yoxdur.

**Şəkil 10.** Azərbaycan dili müəllimlərinin "İstifadə edilən oxu texnikasına ayrılan vaxtı mən müəyyən edirəm." fikrinə uyğun cavab qrafiki




Anketin 15-ci maddəsi olan "İstifadə edilən oxu texnikasına ayrılan vaxtı mən müəyyən edirəm." fikrinə müəllimlər belə münasibət bildirmişlər. Onların 55.3 %-i "hər zaman", 19.6 %-i "tez-tez", 25 %-i "bəzən" cavabını vermişlər. Sorğuya "heç vaxt" deyə cavab verən müəllim yoxdur.

**Şəkil 11.** Azərbaycan dili müəllimlərinin "Hekayələrin başa düşülməsi üçün oxunub xülasə olunması ilə kifayətlənirəm." fikrinə uyğun cavab qrafiki




Anketin 17-ci maddəsi olan "Hekayələrin başa düşülməsi üçün oxunub xülasə olunması ilə kifayətlənirəm." fikrinə müəllimlər belə münasibət bildirmişlər. Onların 10.7 %-i "tez-tez", 35.7 %-i "bəzən", 53.5 %-i "heç vaxt" cavabını vermişlər. Sorğuya "hər zaman" deyə cavab verən müəllim yoxdur.

**Şəkil 12.** Azərbaycan dili müəllimlərinin "Şagirdlərin mətnlə bağlı cavab verə bilmədikləri və ya yanlış cavab verdikləri sualları mən cavablandırıram." fikrinə uyğun cavab qrafiki



Anketin 20-ci maddəsi olan "Şagirdlərin mətnlə bağlı cavab verə bilmədikləri və ya yanlış cavab verdikləri sualları mən cavablandırıram." fikrinə müəllimlər belə münasibət bildirmişlər. Onların 37.5 %-i "hər zaman", 26.7 %-i "tez-tez", 35.7 %-i "bəzən" cavabını vermişlər. Sorğuya "heç vaxt" deyə cavab verən müəllim yoxdur.

Müəllimlərin verdikləri cavablar incələndikdə onların mühazirə metodundan çox az istifadə etdiklərinin, mətnləri təhlil edərkən şagirdləri daim danışdırdıqlarının, hekayənin xülasəsini şərh etməkdən çox onun mahiyyətini öyrətməyə cəhd etdiklərinin şahidi oluruq. Bu hadisələr şagirdlərin tənqidi düşünməsinin inkişafına şərait yaratsa da müəllimlərin digər suallara verdikləri cavablar bunun əksini sübut edir. Belə ki, oxuma metoduna ayrılan zamanın müəllimlər tərəfindən şagirdlərin fikri nəzərə alınmadan təyin edilməsi, öyrənənlərin cavab verə bilmədikləri sualları müəllimlərin özlərinin cavabladırması onu sübut edir ki, şagird mərkəzli təlimə tam keçid edilməmişdir. Bu hadisə onu göstərir ki, təlim prosesi zamanı müəllimlər hələ də mərkəzdədirlər, ən doğru informasiyanı bilən də, problemlərin düzgün həlli yollarını tapan da onlardır. Belə bir mühitdə şagirdlər düşünmür, qərar qəbul edə bilmirlər və beləliklə, onlarda tənqidi düşünmə formalaşmır.

**Tədqiqatın səkkizinci sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın səkkizinci sualı belədir: "Azərbaycan dili müəllimləri ədəbi mətnlər üzərində işləyərkən şagirdlər üçün tənqidi düşünmə bacarığını inkişaf etdirə biləcək mühit yarada bilirlərmi?"

**Cədvəl 12.** Azərbaycan dili müəllimlərinin demokratik mühit yaratması

| Maddələr | Hər zaman | | Tez-tez | | Bəzən | | Heç vaxt | | $\bar{X}$ |
|---|---|---|---|---|---|---|---|---|---|
| | say | % | say | % | say | % | say | % | |
| 6. Mətnlər üzərində işlərkən şagirdlərin özlərini ifadə etməyinə şərait yaradıram. | 51 | 91 | 5 | 9 | | | | | 91 |
| 21. Mətnlə bağlı şagirdlərin sual verməsinə şərait yaradıram. | 49 | 87.5 | 7 | 12.5 | | | | | 3.87 |
| 23. Şagirdlərin mətnə fərqli yanaşmalarına şərait yaradıram. | 33 | 58.9 | 19 | 33.9 | 4 | 7.1 | | | 3.51 |

Cədvəldəki statistika aşağıdakı qrafikdə göstərilmişdir.

**Şəkil 13.** Azərbaycan dili müəllimlərinin "Mətnlər üzərində işlərkən şagirdlərin özlərini ifadə etməyinə şərait yaradıram." fikrinə uyğun cavab qrafiki




Anketin 6-cı maddəsi olan "Mətnlər üzərində işlərkən şagirdlərin özlərini ifadə etmələrinə şərait yaradıram." fikrinə müəllimlər belə münasibət bildirmişlər. Onların 91 %-i "hər zaman", 9 %-i "tez-tez" cavabını vermişlər. Sorğuya "bəzən" və "heç vaxt" deyə cavab verən müəllim yoxdur.

**Şəkil 14.** Azərbaycan dili müəllimlərinin "Mətnlə bağlı şagirdlərin sual verməsinə şərait yaradıram." fikrinə uyğun cavab qrafiki



Anketin 21-ci maddəsi olan "Mətnlə bağlı şagirdlərin sual verməsinə şərait yaradıram." fikrinə müəllimlər belə münasibət bildirmişlər. Onların 87.5 %-i "hər zaman", 12.5 %-i "tez-tez" cavabını vermişlər. Sorğuya "bəzən" və "heç vaxt" deyə cavab verən müəllim yoxdur.

**Şəkil 15.** Azərbaycan dili müəllimlərinin "Şagirdlərin mətnə fərqli yanaşmalarına şərait yaradıram." fikrinə uyğun cavab qrafiki




Anketin 23-cü maddəsi olan "Şagirdlərin mətnə fərqli yanaşmalarına şərait yaradıram." fikrinə müəllimlər belə münasibət bildirmişlər. Onların 58.9 %-i "hər zaman", 33.9 %-i "tez-tez", 7.1 %-i "bəzən" cavabını vermişlər. Sorğuya "heç vaxt" deyə cavab verən müəllim yoxdur.

Yuxarıda göstərilmiş sorğuların nəticələrindən aydın olur ki, bu gün müəllimlər təlim prosesi zamanı şagirdlərin özlərini ifadə etmələrinə, onların mətnlərlə bağlı müxtəlif suallar vermələrinə, hekayədə baş verənlərə fərqli münasibət bildirmələrinə şərait yaradırlar. Bu o deməkdir ki, müəllimlər dərs prosesi zamanı demokratik mühit yaratmağa çalışırlar. Demokratik mühitin tənqidi düşünmənin formalaşdırırılmasındakı rolu haqqında yuxarıda – nəzəri hissədə daha ətraflı məlumat verilmişdir. Ancaq demokratik mühit problemi geniş anlayış olduğundan yalnız bu üç sualın cavabı ilə belə bir nəticəyə gəlmək olmaz

ki, bu gün müəllimlər şagirdlər üçün tam azad, müstəqil, bərabərhüquqlu mühit yaradırlar. Bu tamamilə başqa bir tədqiqatın araşdırma problemi ola bilər.

**Tədqiqatın doqquzuncu sualı ilə bağlı araşdırma və şərhlər:**

Tədqiqatın doqquzuncu sualı belədir: "Azərbaycan dili müəllimlərinin gender bərabərliyi və istifadə etdikləri tənqidi düşünmənin inkişafına yönəlmiş təlim metodları arasında əhəmiyyətli fərq vardırmı?"

Tədqiqatın hələ lap əvvəlində - "Metod" bölməsində (bax: Cədvəl 1.) müəllimlərin gender bölgüsü verilmişdir. Buradan aydın olur ki, tədqiqata cəlb olunan müəllimlərin hamısı qadınlardır. Belə ki, məktəblərdə gender bərabərliyi ciddi şəkildə pozulmuşdur. Ona görə də, bu istiqamətdə tədqiqat sualının cavabı statistik olaraq incələnməmişdir.

Gender bərabərliyinin pozulması səbəbləri ayrı bir tədqiqat işinin mövzusu ola bilər.

# V BÖLMƏ

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Bu bölmədə disertasiya işinin nəticəsi və yeni tədqiqatlar üçün təkliflər qeyd olunmuşdur.

## 5.1 Nəticə

Tədqiqat sualları ilə əlaqəli nəticələr aşağıdakılardır:

1. Tədqiqatın birinci sualının, yəni, tənqidi düşünmə bacarığını inkişaf etdirə biləcək mətnlərdən gözləniləcək keyfiyyətlər ekspertlər tərəfindən qiymətləndirilmiş və **Cədvəl 4. -**də göstərilmişdir.
   Mütəxəssislərin fikrincə, bir mətnin şagirdləri tənqidi düşündürə bilməsi üçün onun mövzusunda məntiqi ardıcıllıq düzgün olmalı, hədəf kütlə tərəfindən başa düşülməli, hekayənin qəhrəmanları tənqidi təfəkkürə malik olmalı, məzmunda sətiraltı ifadələr olmalı, əsas ideya şərh edilə və müzakirə oluna bilən olmalıdır.
2. Araşdırmanın ikinci sualı da birincidə olduğu kimi ekspertlər tərəfindən cavablandırılmışdır. IX sinif dərsliyində olan ədəbi mətnlər sorğu-anketlərin köməkliyi ilə mütəxəssislər tərəfindən dəyərləndirilmişdir. Anketlərdəki meyarlar birinci tədqiqat sualının nəticələri əsasında hazırlanmışdır. Ancaq seçilən 10 mətnin şagirdlərin tənqidi düşünmə bacarığının inkişafına kömək etmədiyi nəticəsi əldə edilmişdir. Belə ki, mətnlərin bir çoxunda sətiraltı ifadələrin olmadığının, şagirdin hekayələrin əsas ideyasını başa düşməsi üçün əlavə səy göstərməyə ehtiyacın olmadığının, mətnin qəhrəmanlarının tənqidi düşünmədiyinin və s. şahidi oluruq.
3. Tədqiqatın üçüncü sualının nəticələri məktəblərdə Azərbaycan dili müəllimlərinə paylanmış sualların cavabları əsasında əldə olunmuşdur. Azərbaycan dili müəllimlərinin sorğu-anketi cavablandırmaları əsasında belə qənatə gəlmək olar ki, onların tənqidi düşünmə bacarığının nə olduğundan xəbərləri vardır. Ancaq

müəllimlər bu bacarığı şagirdlərdə formalaşdırmaq üçün düzgün metod və texnikalardan istifadə edə bilmirlər.

4. Tədqiqatın dördüncü sualı müəllimlərin şagirdlərlə ədəbi mətnlər üzərində işləyərkən istifadə etdikləri metodlarla bağlı idi. Azərbaycan dili müəllimlərinin çoxu "Beyin həmləsi", "Müzakirə, "Tədqiqatın aparılması" metodlarından istifadə edirlər. Adı çəkilən metodlar isə şagirdlərin tənqidi düşünmə bacarığının inkişafı üçün istifadə olunacaq metodlar deyildir.
5. Tədqiqatın beşinci sualına uyğun toplanmış məlumatları incələdikdə Azərbaycan dili müəllimlərinin 72.7 %-i təlim metodlarından xəbərdar olduqlarının, 4.7%-i təlim metodlarını başqa dərs fəaliyyətləri ilə qarışdırdıqlarının, 27.4%-i isə ümumiyyətlə bu suala cavab vermədiyinin şahidi oluruq.
6. Tədqiqatın altıncı sualının cavabı 10-cu cədvəldə verilmişdir. "Hekayələr üzərində işləyərkən metodiki vəsaitdəki tapşırıqları eyni ilə tətbiq edirəm." sualına 50% müəllimin "hər zaman" cavabını verməsi müəllimlərin metodiki vəsaitdən asılı vəziyyətdə təlim keçdiklərinin göstəricisidir. Demək ki, Azərbaycan dili müəllimlərində tənqidi düşünmə bacarığı kifayət qədər formalaşmamışdır. Tənqidi düşünmə bacarığı inkişaf etməmiş müəllim şagirdlərdə bu fəaliyyəti tam formalaşdıra bilməz.

   Cədvəldəki digər maddələri dəyərləndirdikdə, Azərbaycan dili müəllimləri mətnlər üzərində işləyərkən metodiki vəsaitdən kənarda müxtəlif suallar hazırladıqlarını bildirmişlər. Ancaq bu, "Hekayələr üzərində işləyərkən metodiki vəsaitdəki tapşırıqları eyni ilə tətbiq edirəm." ifadəsi ilə üst-üstə düşmür. Çünki, metodiki vəsaitdən asılı olan müəllim heç vaxt kitabdankənar fərqli suallar hazırlamaz.
7. Tədqiqatın yeddinci sualı da məktəb müəllimlərinə paylanmış anket-sorğunun dəyərləndirilməsi nəticəsində əldə olunmuşdur. Müəllimlərin verdikləri cavablar incələndikdə onların mühazirə metodundan çox az istifadə etdiklərinin, mətnləri təhlil edərkən şagirdləri daim danışdırdıqlarının, hekayənin xülasəsini şərh etməkdən çox onun mahiyyətini öyrətməyə cəhd etdiklərinin şahidi oluruq. Bu

hadisələr şagirdlərin tənqidi düşünməsinin inkişafına şərait yaratsa da müəllimlərin digər suallara verdikləri cavablar bunun əksini sübut edir. Belə ki, oxuma metoduna ayrılan zamanın müəllimlər tərəfindən şagirdlərin fikri nəzərə alınmadan təyin edilməsi, öyrənənlərin cavab verə bilmədikləri suallara müəllimlərin böyük hissəsinin özləri tərəfindən cavabladırılması onu sübut edir ki, şagird mərkəzli təlimə tam keçid edilməmişdir. Bu isə onu göstərir ki, təlim prosesi zamanı müəllimlər hələ də mərkəzdədirlər, ən doğru informasiyanı bilən də, problemlərin düzgün həlli yollarını tapan da onlardır. Belə bir mühitdə şagirdlər düşünmür, qərar qəbul edə bilmirlər və beləliklə, onlarda tənqidi düşünmə formalaşmır.

8. Səkkizinci tədqiqat sualı müəllimlərin şagirdlərdə tənqidi düşünmə bacarığı formalaşdıracaq mühitin yaratması ilə bağlı idi. Müəllimlərin verdikləri cavablar əsasında aydın olur ki, bu gün onlar təlim prosesi zamanı şagirdlərin özlərini ifadə etmələrinə, onların mətnlərlə bağlı müxtəlif suallar vermələrinə, hekayədə baş verənlərə fərqli münasibət bildirmələrinə şərait yaradırlar. Bu o deməkdir ki, müəllimlər dərs prosesi zamanı demokratik mühit yaradırlar.
9. Araşdırmanın doqquzuncu sualının nəticəsi təhsilin yeni bir problemini ortaya qoymuşdur. Bu gün Azərbaycan dili müəllimləri arasında gender bərabərsizliyi tədqiqatın bu sualının cavablandırılmasına mane olmuşdur.

Deyilən bütün fikirləri ümumiləşdirsək, ədəbi mətnlərin müasir dövr təhsilinin basılıca tələblərindən olan tənqidi düşünmə bacarığının inkişafı baxımından nə qədər önəmli olduğunun şahidi oluruq. Buna görə də Azərbaycan dili dərsliyindəki ədəbi mətnlər dəqiqliklə araşdırılmalı, seçilən mətnlər şagirdlərin dövrün tələblərinə uyğun olaraq bir şəxsiyyət kimi yetişdirilməsinə xidmət etməlidir.

## 5.2 Təkliflər

1. Yeni kurikuluma əsasən yaradılmış bütün Azərbaycan dili dərsliklərindəki mətnlər tədqiqat işində sadalanan tənqidi düşünmə meyarları əsasında incələnə bilər.
2. Araşdırma bütün Azərbaycan dili dərsliklərindəki ədəbi mətnləri tədqiq edərək daha geniş hala gətirilə bilər.
3. Araşdırma sadəcə 20 məktəblə kifayətlənməyib, bütün Azərbaycanı əhatə edən daha maraqlı və geniş əhatə dairəsində incələnə bilər.
4. Tənqidi düşünmə bacarığının mahiyyəti pedaqogika sahəsində daha geniş araşdırılaraq, müəllimlər üçün müxtəlif vəsaitlər halında çap olunmalıdır. Çünki, bu gün müəllimlərin bu anlayışı tam dərk etməsi üçün lazımi qədər vəsait yoxdur. Bununla da bu problemin həlli yolunda müəyyən addımlar atılmış olar.
5. Bu tədqiqat yalnız müəllimlərə paylanmış anketlər nəticəsində həyata keçirilmişdir. Şagirdlərə uyğun anket-sorğular hazırlayıb paylamaqla da müxtəlif araşdırmalar aparıb yeni nəticələr əldə etmək olar.
6. Azərbaycanda təfəkkürə əsaslanan yeni təhsillə bağlı sənədlərin bəzilərində tənqidi düşünmə bacarığının inkişafına dair məlumat ya yoxdur, ya da dolayı yolla bildirilmişdir. Şagirdlərdə bu bacarığı formalaşdırmaq üçün ilk növbədə Təhsil Nazirliyinin dövlət sənədlərində tənqidi düşünmə bacarığının vacibliyi məqsədlər şəkilində, aydın qeyd oluna bilər.
7. Başqa bir araşdırma müəllimləri yetişdirən ali təhsil ocaqlarında da aparıla və gələcək nəsil müəllimlərin tənqidi düşünmə bacarığının nə yerdə olması, bu bacarığın inkişafı üçün hansı addımların atılması haqqında nəticələr əldə oluna bilər. Çünki gələcək nəsil müəllimlərinin akademik bilikləri ali təhsil müəllimlərinin əlindədir.
8. Tənqidi düşünmənin mahiyyəti haqqında müxtəlif seminarlar, konfranslar, təlimlər, xüsusi layihələr və s. təşkil oluna bilər ki, ənənvi metodla təlim keçməyə alışmış müəllimlər bu tədbirlərdə iştirak edərək fəal təlim vastəsi ilə dərs keçməyi öyrənsinlər və beləliklə, yeni təfəkkürlü şagirdlər yetişdirsinlər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. “Azərbaycan 2020: Gələcəyə Baxiş” İnkişaf Konsepsiyasi, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı.
2. Abbasov Ənvər, “Yeni Kurikulumların səciyyəvi xüsusiyyətləri”, “Kurikulum” elmi-metodiki jurnalı, “Təhsil Nəşriyyat - Poliqrafiya”, № 1, 2008, s: 31-38
3. Azərbaycan dili 9. Dərslik. Tərtib edənlər: T.Hacıyev, S. Bektaşi, Y. Hüseynova. “Şərq-Qərb” nəşriyyatı, 2016
4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı.
5. Azərbaycan Respublikasinda Ümumi Təhsilin Konsepsiyasi (Milli Kurikulumu), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı.
6. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli 168 nömrəli Sərəncamı
7. Azərbaycan Respublikasinin Ümumtəhsil Məktəbləri Üçün Azərbaycan Dili (Dövlət Dili Kimi) Fənni Üzrə Təhsil Proqrami (Kurikulumu), Bakı, 2013.
8. Cüceloğlu D. Özgün Yaşam Üzerine Yakup Bey’le Söyleşiler, İyi Düşün Doğru Karar Ver, Remzi Kitapevi (2007), s: 349.
9. Çiğdem Çağlayan Öztürk. Ilköğretim sekizinci sinif öğrencilerinin bilimsel Süreç, eleştirel düşünme ve yaratici düşünme becerileri arasindaki ilişkinin incelenmesi, Ankara – 2013, s: 38
10. De Bono, “Altı şapkalı düşünme tekniği”, Remzi kitap evi, İstanbul, 2009, s:193-194
11. Demir, M. K. (2006). İlköğretim Dördüncü ve Beşinci Sınıf Öğrencilerinin Sosyal Bilgiler Derslerinde Eleştirel Düşünme Düzeylerinin Çeşitli Değişkenler

Açısından İncelenmesi, (Yayınlanmamış Doktora Tezi), Gazi Üniversitesi, Ankara, s: 156

12. E.Nihal Ahioğlu-Lindberg, "Piaget Ve Ergenlikte Bilişsel Gelişim", Kastamonu Eğitim Dergisi, Ocak 2011 Cilt:19 No:1, s: 1-10

13. Erkan Şenşekerci, Asude Bilgim. "Eleştirel düşünme öğretimi", Fen-edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, sayı 9, 2008, s: 15-43.

14. Əlizadə Əbdül, "Dərslik-Müəllim-Dərs", "Kurikulum" elmi-metodiki jurnalı, "Şərq-Qərb", № 1, 2011, s:8-11

15. Faruk Arıcı, " "Altı Şapkalı Düşünme Tekniği"nin 7-ci sınıf öğrencilerinin akademik başarılarına etkisi", Yüksek Lisans Tezi, Erzurum, 2016, s:11

16. H.Gündoğlu. Eleştirel Düşünme ve Eleştirel Düşünme Öğretimine Dair Bazı Yanılgılar, Sosyal Bilimler 7/1 (2009) s: 57-74.

17. Hacıyeva Təranə, "PİSA 2009 Beynəlxalq Tədqiqatının nəticələri haqqında", "Kurikulum" elmi-metodiki jurnalı, "Şərq-Qərb", № 1, 2011, s:27-37

18. Hilal Karabacak. İlköğretim Öğrencilerinin Eleştirel Düşünme Becerileri Ve Beşinci Sinif Öğrencilerinin Eleştirel Düşünme Düzeyi, Yüksek Lisans Tezi, Erzurum Eylül, (2011).

19. İbrahimov Firədun, Hüseynzadə Rüfət. PEDAQOGİKA (dərslik), 2 clddə. I cild. – Bakı, Mütərcim, 2012, 706 səh.

20. İlkay Çelik, "İlköğretim II. Kademe Türkce ders kitaplarında yer alan öyküleyici metinlerin eleştirel düşünme becerisi kazandırma açısından incelenmesi", Mərsin Universitesi, Yüksek Lisans Tezi, Mərsin, 2011, s: 158

21. Kazancı, O. (1989). Eğitimde eleştirici düşünme ve öğretimi. Ankara: Kazancı Hukuk Yayınları.

22. Kenan Allahverdi, "John Deweyde Eleştirel Düşünme Yaklaşımı", Yüksek lizans tezi, Sosial Bilimler Enstitüsü, 2009, s: 124.

23. Metin Demir, Ufuk Uluçınar. Eleştirel Düşünmenin önemi ve öğretimi. Bilim ve aklın aydınlığında Eğitim. Nisan 2012, s: 62-66

24. Nəbiyeva Şəlalə. Ana dili tədrisi metodikasının aktual problemləri (metodik vəsait). Bakı, ADPU-nun mətbəəsi, 2010, 127 səh.
25. Novruzov Q. Ənənəvi təhsildən "düşünmə və təfəkkür məktəbi"nə doğru. Bakı, "Azərbaycan məktəbi" jurnalı, 2014/1, 15-23 səh.
26. Nuran Başoğlu, Betül Mutlu, "İlköğretim türkçe ders kitaplarinda yer alan metinlerin eleştirel düşünme eğitimine uygunluğu", Eylül 2012 Cilt:20 No:3 Kastamonu Eğitim Dergisi, s: 983-998
27. Rüstəmov F.A. Pedaqogika tarixi (Xarici ölkələrdə təhsil və pedaqoji fikir tarixi). Bakı, "Nurlan", 2006, 752 səh.
28. S.Atakan ALTINÖRS , "Düşünce İle Dil arasındakı İlişkiye Descartes'in Yaklaşimi", Sosyal Bilimler Enstitüsü Dergisi Sayı: 28 Yıl: 2010/1, s: 389-401.
29. S.Sadi Seferoğlu, Cenk Akbıyık; "Eleştirel düşünme öğretimi", H.Ü Eğitim Fakultesi Dergis, 30 (2006), s: 193-200.
30. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun,2010
31. Türkçe Metinlerde Bağdaşıklık ve Tutarlılık, Günümüz Dilbilim Çalışmaları, Yayına Hazırlayanlar: Prof.Dr. Ayşe Kıran, Doç.Dr. Ece Korkut, Dr. Suna Ağıldere, Multilingual Yayınları, Dilbilim Dizisi, 2003, İstanbul, s: 121-132.
32. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli qərarı.
33. Ümumi təhsil sistemində dərslik siyasəti, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 23.01.2006-cı il tarixli 33 nömrəli əmri.
34. Veysova Zülfiyyə, Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait, Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) , 2007, s: 155.

**İngilis dilində**

35. A Taxonomy for Learning, Teaching, and Assessing: A Revision of Bloom's Taxonomy of Educational Objectives. Anderson, L.W., Krathwohl, D.R., et al. (2001), 352 page.

36. Halpern, Diane F. (2003). Thoughts and Knowledge: An Introduction to Critical Thinking, New Jersey-London: Lawrence Erlbaum Associates, page: 209

37. Lipman, Matthew (2003). Thinking in Education: Cambridge University 304 page.

**Web saytlar**

38. http://ederslik.edu.az/player/index3.php?book_id=208#books/208/units/unit-1/page1.xhtml

39. http://edu.gov.az/az

40. https://jkurikulum.wordpress.com/

41. https://tez.yok.gov.tr/UlusalTezMerkezi/

# ƏLAVƏ

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
BAKI ŞƏHƏRİ üzrə TƏHSİL İDARƏSİ

AZ 1007, Bakı şəhəri
Xan Şuşinski 17

tel.: +994 12 599 12 22, faks: +994 12 599 12 22 (6196)
e-mail: info@bakuedu.gov.az

"07" dekabr 2017 il

№ 9080-01/06

**Xəzər Universitetinin rektoru**
**dr. Hasan Niknafsa**

**Surəti: Bakı şəhəri ümumtəhsil müəssisələrinin rəhbərlərinə**

**06.11.2017-ci il tarixli,**
**01/T-9111 nömrəli məktuba**

**Hörmətli Həsən müəllim!**

Xəzər Universitetinin Pedaqogika tarixi və nəzəriyyəsi ixtisasının magistr tələbəsi Aytən Rəşidlinin Təhsil fakültəsi şurası tərəfindən təsdiq edilmiş "IX sinif Azərbaycan dili dərs kitabındakı ədəbi mətnlərin şagirdlərdə tənqidi düşüncə bacarığının formalaşdırılması baxımından incələnməsi" adlı magistr tezisi mövzusunun tədqiqat planına əsasən Bakı şəhəri ümumtəhsil müəssisələrində Azərbaycan dili fənnini tədris edən müəllimlərin IX sinif Azərbaycan dili dərsliyi ilə əlaqədar görüşlərinin araşdırılması məqsədi ilə mütəxəssislər tərəfindən hazırlanmış sorğu-anket formasının məktəblərdə çalışan müəllimlər tərəfindən cavablandırılmasına etiraz etmirik.

**Hörmətlə,**

**Bakı Şəhəri üzrə**
**Təhsil İdarəsinin müdiri** **Məhəbbət Vəliyeva**

SORĞU - ANKET

Hörmətli müəllim,

Bu sorğu Xəzər Universiteti Təhsil Kafedrasında "lX sinif Azərbaycan dili dərs kitabında yer alan mətnlərin tənqidi düşünmə bacarığı qazandırma baxımından incələnməsi" adlı magistr tezisi çərçivəsində hazırlanmışdır. Sorğunu hazırlamaqda məqsəd, lX sinif Azərbaycan dili dərsliyindəki mətnlərin şagirdlərin tənqidi düşünmə bacarığını inkişaf etdirməsinə olan təsirini araşdırmaqdır.

Araşdırma müəllimlərin və ekspertlərin iştirakı ilə gerçəkləşəcək və müqayisəli təhlil üzərində qurulacaq.

Xahiş edirəm, cavablarınızda mümkün qədər açıq və **səmimi** olun; burada doğru və yanlış cavablar yoxdur. Sualları cavablandırmaq üçün sizdən təxminən 20 dəqiqə vaxt tələb olunacaqdır.

Nəzərinizə çatdırım ki, cavablarınızın məxfiliyinə tam riayət olunacaq və onlar bu tədqiqatdan başqa heç bir əlavə məqsəd üçün istifadə edilməyəcəkdir. Sorğu formasında adınızı qeyd etmək tələb olunmur.

**Birinci bölmə** sizin haqqınızda ümumi məlumatları əhatə edir.

**İkinci bölmə** təlim metod və texnikaları ilə bağlıdır

**Təlimatlar:** Xahiş edirəm, hər bir bölməyə başlamazdan əvvəl o bölmə ilə bağlı girişdə verilmiş təlimatları diqqətlə oxuyun və daha sonra sualları ona müvafiq cavablandırın. Zəhmət olmasa, sorğunu tam cavablandırdığınıza əmin olun.

**Vaxt ayırıb bu sorğuda iştirak etdiyiniz üçün Sizə bir daha təşəkkür edirəm!**

**Aytən Rəşidli**

## 1 HİSSƏ

ŞƏXSİ MƏLUMAT ANKETİ

Sizə ən uyğun olanını (X) işarələyin.

1. Cinsi: ( ) Qadın ( ) Kişi
2. İşlədiyiniz məktəbin adı / nömrəsi:

3. Məzun olduğunuz təhsil ocağının adı:

4. İş təcrübəsi:

( ) 1. 0-4 il

( ) 2. 5-9 il

( ) 3. 10-14 il

( ) 4. 15-19 il

( ) 5. 20 ildən çox

## II HİSSƏ

AZƏRBAYCAN DİLİ MÜƏLLİMLƏRİNİN ƏDƏBİ MƏTNLƏRLƏ İŞLƏMƏ TEXNİKALARI ANKETİ

| | **Maddələr** | Hər zaman | Tez-tez | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|---|
| 1. | Hekayələr üzərində işləyərkən metodiki vəsaitdəki şırıqları eyni ilə tətbiq edirəm. | | | | |
| 2. | Mətnlər üzərində işləyərkən müzakirə texnikalarından bat, mübahisə, panel,...) istifadə edirəm. | | | | |
| 3. | Mətnlər üzərində işləyərkən motivasiya üçün beyin nası üsulundan istifadə edirəm. | | | | |
| 4. | Ədəbi mətnlər üzərində işləyərkən “Altı Şapkalı şünmə” metodundan istifadə edirəm. | | | | |
| 5. | Ədəbi mətnləri sual-cavab texnikasından istifadə rəm | | | | |
| 6. | Mətnlər üzərində işlərkən şagirdlərin özlərini ifadə əyinə şərait yaradıram. | | | | |
| 7. | Mətnlər üzərində işlərkən əlavə mənbələrdən və aitlərdən istifadə edirəm. | | | | |
| 8. | Mətnlər üzərində işləməmişdən əvvəl şagirdlərin buna ırlıq səviyyələrini nəzərə alıram. | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 9. | Ədəbi mətnlər üzərində işləyərkən mühazirə todundan istifadə edirəm. | | | | |
| 10. | Dərsin motivasiya mərhələsində mətnlə əlaqəli müxtəlif şagirdlərin şərh edə biləcəyi materyallar (rəsm, hekayə, n və s.) gətirirəm | | | | |
| 11. | Mətnləri oxumadan öncə motivasiya yaratmaq məqsədi şagirdlərlə müzakirə şəraiti yaradıram. | | | | |
| 12. | Mətnlər üzərində işləyərkən şagirdləri daha az ışdırıram. | | | | |
| 13. | Şagirdlərə dərsin sonunda hekayə ilə əlaqəli dəntilərimi deyirəm. | | | | |
| 14. | Mətnlərlə işləyərkən şagirdlərin müxtəlif oxuma nikalarından (tənqidi, not almaq, işarə etmək, sual verərək ıma, təxmin edərək və s.) istifadə etməsinə şərait adıram. | | | | |
| 15. | İstifadə edilən oxu texnikasına ayrılan vaxtı mən əyyən edirəm. | | | | |
| 16. | Şagirdlərə ədəbi mətnlərdəki sətiraltı mənaları tapmağa nəlmiş suallar tərtib edirəm. | | | | |
| 17. | Hekayələrin başa düşülməsi üçün oxunub xülasə nmasının kifayətlənirəm. | | | | |
| 18. | Mətnləri anlama və şərh etmə müddətində metodiki aitdəki suallarla kifayətlənirəm. | | | | |
| 19. | Mətnləri anlama və şərh etmə zamanı metodiki aitdən əlavə suallar hazırlayıram. | | | | |
| 20. | Şagirdlərin mətnlə bağlı cavab verə bilmədikləri və ya lış cavab verdikləri sualları mən cavablandırıram. | | | | |
| 21. | Mətnlə bağlı şagirdlərin sual verməsinə şərait adıram. | | | | |
| 22. | Şagirdlərdən müxtəlif sual və ya cavab verənləri təqdir rəm. | | | | |
| 23. | Şagirdlərin mətnə fərqli yanaşmalarına şərait adıram. | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 24. | Şagirdlərin mətnin məzmunu ilə bağlı məişətdə tlaşdıqları hadisələrlə əlaqələndirib fikir bildirmələrinə ait yaradıram. | | | | |
| 25. | Şagirdlərin mətnin məzmunu ilə bağlı olan nümunələri tnlə əlaqələndirmələrinə şərait yaradıram. | | | | |
| 26. | Dərs prosesində müxtəlif audiovizual materiallardan fadə edərək şagirdlərin mətnə yönəlmiş suallar verməsini nin edirəm. | | | | |
| 27. | Şagirdlərə mətndəki səbəb-nəticə əlaqələrini malarına şərait yaradıram. | | | | |
| 28. | Ədəbi mətnlərdə əsas və köməkçi ideyaların tapılması in şagirdlərə yönəldici işarələr verib cavabları onlardan ləyirəm. | | | | |
| 29. | Müzakirəyə yalnız nəaliyyətləri yüksək olan şagirdləri ıram. | | | | |
| 30. | Ədəbi mətnlərlə işləyərkən şagirdlərin şərh etmə ünü istifadə etməsinə şərait yaradıram. | | | | |
| 31. | Dərsin sonunda, şagirdlərdən dərsi qisa xülasə ilə yərləndirilmələrini istəyirəm. | | | | |
| 32. | Şagirdlərin, ədəbi mətnlərdən gündəlik həyatla bağlı icə çıxarmalarına şərait yaradıram. | | | | |
| 33. | Təlimin sonunda şagirdlərimi mövzu ilə bağlı tədqiqat ırmağa yönəldirəm. | | | | |
| 34. | Ədəbi mətnlər üzərində işləyərkən ən çox istifadə iyiniz ilk 3 metodun adını yazın.<br>1.<br>2.<br>3. | | | | |

## III HİSSƏ

## "IX SİNİF AZƏRBAYCAN DİLİ DƏRSLİYİNDƏKİ ƏDƏBİ MƏTNLƏRİN TƏNQİDİ DÜŞÜNCƏ BACARIĞINI FORMALAŞDIRMASI BAXIMINDAN TƏHLİLİ "

Hörmətli Ekspert,

Bu sorğu Xəzər Universiteti Təhsil Kafedrasında "IX sinif Azərbaycan dili dərs kitabındakı mətnlərin tənqidi düşünmə bacarığı qazandırma baxımından incələnməsi" adlı magistr tezisi çərçivəsində hazırlanmışdır. Sorğunu hazırlamaqda məqsəd, IX sinif Azərbaycan dili dərsliyindəki mətnlərin şagirdlərin tənqidi düşünmə bacarığını inkişaf etdirməsinə olan təsirini araşdırmaqdır.

Aşağıdakı tabloda görmüş olduğunuz maddələrdən sizin üçün uyğun olanını (X) işarələməyiniz kifayətdir.

İştirak etdiyiniz üçün təşəkkürümü bildirirəm.

**Rəşidli Aytən**

| | Meyarlar | Uyğundur | Qismən uyğun | Uyğun deyil |
|---|---|---|---|---|
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgün olmalıdır. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşülən olmalıdır. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəli olmalıdır. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaratmalı və onları bu suallara cavab axtarmağa yönləndirməlidir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünə bilən olmalıdır. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanmalıdır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verilməlidir. | | | |

| | | | | |
|---|---|---|---|---|
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna bilən olmalıdır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verməlidir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axışı bir-birləri ilə əlaqələndiriləbilən olmalıdır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıq olmalıdır. | | | |

## IV HİSSƏ

“ IX SİNİF AZƏRBAYCAN DİLİ DƏRS KİTABINDAKI ƏDƏBİ MƏTNLƏRİN TƏNQİDİ DÜŞÜNCƏ BACARIĞI QAZANDIRMA BAXIMINDAN İNCƏLƏNMƏSİ”

1.“ANA QUCAĞI” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin.

| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
|---|---|---|---|---|
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |

| | | | | |
|---|---|---|---|---|
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

| 2.“ANA DİLİ” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin. | | | | |
|---|---|---|---|---|
| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

| 3.“ÜÇÜNCÜ İL” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin. | | | | |
|---|---|---|---|---|
| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

| 4.“SİZİ TƏBRİK EDİRƏM, QIZLAR” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin. | | | | |
|---|---|---|---|---|
| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

| | | | | |
|---|---|---|---|---|
| 5.“BİR AĞACIN HEKAYƏSİ” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin. | | | | |
| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

| 6.“ƏN YAXIN PLANET” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin | | | | |
|---|---|---|---|---|
| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

| 7.“AĞ GÖYƏRÇİN” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin. | | | | |
|---|---|---|---|---|
| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

8.“BİR ŞAHİDİN ŞƏHİDİ” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin.

| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
|---|---|---|---|---|
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

9.“ŞAH ABBAS VƏ ÇƏKMƏÇİ” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin.

| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
|---|---|---|---|---|
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənqidi düşünmə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

| 10.“QARI DAĞI” hekayəsini aşağıdakı meyarlar əsasında dəyərləndirin. | | | | |
|---|---|---|---|---|
| | Meyarlar | Uyğundur | Uyğun deyil | Qismən uyğundur |
| 1. | Mətndə məntiqi ardıcıllıq düzgündür. | | | |
| 2. | Hədəf kütlə (IX sinif) tərəfindən başa düşüləndir. | | | |
| 3. | Mətnin məzmunu gerçək həyatla əlaqəlidir. | | | |
| 4. | Mətnin verdiyi mesajlar şagirddə suallar yaradır və onları bu suallara cavab axtarmağa yönləndirir. | | | |
| 5. | Hekayənin qəhrəmanları tənhb +qidi düşüncə sərgiləyir. | | | |
| 6. | Mətnin məzmunu sətiraltı mənalara əsaslanır. | | | |
| 7. | Mətnin məzmunu şagirdlərdə müxtəlif fikirlərin yaranmasına imkan verir. | | | |
| 8. | Əsas ideya şərh edilə və müzakirə oluna biləndır. | | | |
| 9. | Mətn tənqidi düşünmə üçün lazım olan zehni məşğuliyyətin güclənməsinə imkan verir. | | | |
| 10. | Zaman, məkan obrazlar və hadisələrin axarı bir-biriləri ilə əlaqələndiriləbiləndır. | | | |
| 11. | Mətnlər əsas ideyanın xaricində əlavə ideyalara da açıqdır. | | | |

Tədqiqat aparılan məktəblərin siyahısı

1. 61 saylı tam orta məktəb
2. 18 saylı tam orta məktəb
3. V.Sadıqov adına 214 saylı tam orta məktəb
4. 138 saylı tam orta məktəb
5. 277 saylı tam orta məktəb
6. 312 saylı tam orta məktəb
7. 109 saylı tam orta məktəb
8. 23 saylı tam orta məktəb
9. 287 nömrəli "Zəkalar liseyi"
10. "Zəngi liseyi"
11. 176 saylı tam orta məktəb
12. 181 saylı tam orta məktəb
13. 10 saylı tam orta məktəb
14. 4 saylı tam orta məktəb
15. A. Məhərrəmov adına 95 saylı tam orta məktəb
16. Həzi Aslanov adına 175 saylı tam orta məktəb
17. 62 saylı tam orta məktəb-lisey
18. 129 saylı tam orta məktəb
19. 20 saylı tam orta məktəb
20. 76 saylı tam orta məktəb

**Araşdırılan ədəbi mətnlər**

## 1. ANA QUCAĞI

(ixtisarla)

İlk baharın ikinci ayında bir bazar ertəsi günü idi. Evin arxa tərəfindəki bağçada yaşıl otlar üzərinə sərilmiş xalının üstündə bir ana ilə uşağı oturmuşdular. Uşaq başını anasının dizinə dayayıb gözlərini anasının üzünə dikərək oradan hiss etdiyi ana şəfqətinin təsiri ilə anasının məhəbbətini daha da çox qazanmağa çalışırdı.

Birdən uşaq təlaşla yerindən qalxaraqətrafa diqqət kəsildi.

Anası: "Nə oldu, yavrum?" - deyə soruşdu.

- Qulağıma bir uşaq ağlaması gəlir.

- Bizim qonşunun uşağı olmalıdır, yəqin, anası döyür.

- Gedib baxımmı, ana?

- Olmaz!

Uşağın yalvarışına dözə bilməyən ana uzaqdan baxmağı, amma gördüyünü və eşitdiyi sözləri gəlib ona deməsini tapşıraraq övladına icazə verdi. Özü isə kitab oxumağa başladı. On beş-iyirmi dəqiqə keçməmiş uşaq qayıtdı:

-Ana! Ağlayan bizim qonşu Cabirə xalanın oğlu Raufdur. Anası: "Dünən nə üçün məktəbə getməmisən?" - deyib onu döyür. Rauf[1] da: "Getmədim və sabah da getməyəcəyəm ", - deyə anasına kobud sözlərlə cavab qaytarır.

- Ah! Bəxtsiz uşaq, yazıq uşaq!

- Ana, niyə belə deyirsən? Rauf anasına cavab qaytarır, onun sözünü dinləmir. Heç anaya da təhqiramiz sözlər söylənərmi?

- Övladım , haqlısan. Analar, atalar heç bir vəchlə təhqir oluna bilməzlər. Raufun burada əfv olunmayacaq bir qəbahəti var. Mənim ah çəkməyimin səbəbi başqadır.

- Nədir, anacan? Söylə, mən də bilim , demək, məktəbə getməyə başladıqdan sonra mən də dərsə getməsəm, sən məni döyəcəksən?

- Xeyr, quzum! Mən səni məktəbə gedənə qədər elə tərbiyə edəcəyəm ki, çətinliklərə, kötəklərə lüzum qalmayacaq. Rauf ağıllı, istedadlı uşaqdır. Fəqət anası övladını düzgün tərbiyə edə bilmir. Kötəklə əmrinə itaət[2] etdirməyə çalışır. Əgər o, məktəb görmüş bir qadın olsaydı, nə Rauf ona cavab qaytarardı, nə də anası uşağını məktəbə göndərməkdə çətinlik çəkərdi. Kim bilir, Raufun müəllimləri[3] də onun düzgün olmayan tərbiyənin qurbanı olmasından nə əziyyətlər çəkirlər...

-Ana! Bəs Rauf məktəbə getməzsə, necə olar?

- Məktəb görməyən adamlar cahil hesab olunurlar. Cahillər isə daim[4]başqalarının istəklərinə alət, işlərinə oyuncaq olurlar. İnsanı başqa varlıqlardan fərqləndirəcək bir şey varsa, o da elm, mərifət və sənətdir. Bunlar isə məktəbdə öyrədilir.

-Ana, məktəb dediyin necə yerdir?

- Övladım! "Məktəb, məktəb" deyib min cür misallarla sənin kiçik ağlına yerləşdirə bilmədiyim o əziz məkan (barmağı ilə kəndin ortasındakı böyük binanı göstərərək) bax odur.

O, o qədər uca, o qədər qiymətli, o qədər sevimli bir binadır ki, insan oraya gözləri qaranbq, zehni qapalı girər, gözləri nurlu, zehni açıq çıxar. Məktəb uşaqlar üçün ikinci evdir. Ora toplanan şagirdlər eyni ailənin[5] həyat məhsulu sayılırlar. Məhəbbət hissi orada öyrədildiyi kimi, hər gün yaxşı yaşamağın və millətinə, məmləkətinə, ata-anaya xidmət etməyin ən gözəli orada öyrədilir.

Məktəb maarif və elmin bağı, ağıl və fikir isə çiçəklərin meyvəsidir. Elm və mədəniyyət bir günəş, məktəb də o günəşin doğulduğu yerdir.

Orada olan müəllimlər ən asan üsulla öncə sizlərə hərfləri yazmağı, sonra yavaş-yavaş oxumağı öyrədəcəklər.

-Ana! Mən nə vaxt məktəbə gedəcəyəm?

- İki ildən sonra.

- Bəs mən o vaxta qədər nə edəcəyəm?

- İlk məktəbdə öyrənilməsi lazım olanları öyrənəcəksən.

- O ilk məktəb haradır?

**İsmayıl Həqqi**

## 2. ANA DILI

Gün batmışdı... Axşamın səssizliyi çökürdü yavaş-yavaş Təbrizin üzərinə. Küçələrdəki səslər rəsmi dairələrdən evlərinə qayıdan məmurların ayaq səsləri idi. Kənd Təsərrüfatı Bankında yorucu bir gün keçirmiş Şəhriyar bir az əvvəl evə çatıb anasının gözəl yeməklərlə bəzədiyi süfrəsinin başında oturmağa tələsirdi. Evlərinin yerləşdiyi küçəyə döndüyü zaman yadına düşdü dünən gecə yarımçıq qalmış şeiri. O an ağlında nə yorğunluğu qaldı, nə də anasının yeməkləri... Cibindən dünən yazdığı şeirini çıxarıb kürəyini divara söykədi və (yarımçıq, natamam) qalan şeirini tamamlamağa başladı. Axşam çöküb qaranlıq Təbrizi bürüyəndə o da yazdı şeirinin son misrasını və evlərinə (yollandı, qayıtdı). Çox böyük sevinclə qapıdan içəri girdi. Bu sevinc yasılı anasının yeməyini dadmaq istəyindən doğmurdu. Şeirini bitirmişdi, coşqusu bundan irəli gəlirdi. Süfrə başında oturmadan cibindən çıxardığı şeirini anasına oxumağa başladı. Şeirini oxuyub bitirdikdən sonra anasının üzünə baxdı, onun üzündə yox idi hər zamankı (təbəssümü, gülüşü). Halbuki hər şeirini anasına oxuduqda onun sevincini aşkar görərdi. Şəhriyar anasının bu soyuqluğuna dözə bilməyib:

- Anacan, yoxsa xəstələnmisən? - deyə soruşdu. Anası farsca xəstə olmadığını söylədi. Şəhriyar bu cavabdan çaşıb qaldı. Özünü tanıdığı gündən evdə hər kəs türkcə danışırdı. Hələ rəhmətlik atası buna daha çox diqqət edərdi.

Şəhriyar (heyrət, təəccüb) dolu baxışlarla anasından soruşdu:

- Ana, sən nə üçün farsca danışdın?

Ana oğlunun üzünə baxmadan (ürəyindəki, könlündəki) qüssəli və duyğulu bir səslə:

- Sən türkcə şeir yazmırsan ki, mən də sənə türkcə cavab verəm? Evimizdə həbs etdin türkcəni.

Ot kökü üstə bitər.

Türk dili ilə böyüdün, farsca yazırsan. Artıq şeirlərini dinləməyəcəyəm, - deyə cavab verdi.

Şəhriyarın rəngi qaçdı, əlindəki farsca yazdığı son şeirinin barmaqları arasından yerə düşdüyünü hiss etmədi. Yavaşca yan otağa keçdi. Onun fikri qarma-qarışıq olmuşdu. Üzünə bir ana şilləsi dəymişdi. Yeməyi unutdu. (Keçmiş, qədim) günlərə daldı. Atasının əlindən tutub Heydərbaba dağı ətəklərindəki kəndləri: Xoşginabı, Güllücəni necə dolaşdığını xatırladı. Oralarda dinlədiyi türkülər, kəlmələr, şahidi olduğu hadisələr zehninin gizli xəzinəsindən bir-bir çıxıb beyninə hakim oldu... Oturduğu yerdə uzandı. Öz-özünə: "Türkcə yazacağam... Bundan sonra türkcə yazacağam!" - dedi Şəhriyar.

...və ilk türkcə şeirini Heydərbaba dağma həsr etdi:

Heydərbaba, ildırımlar çaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətüzə, elüzə,
Mənim də bir adım gəlsin dilüzə.

Heydərbaba, kəhliklərin uçanda,
Kol dibindən dovşan qalxıb qaçanda,
Baxçaların çiçəklənib açanda,
Bizdən də bir mümkün olsa, yad elə,
Açılmayan ürəkləri şad elə.

**"Füyuzat" jurnalından, 2012-ci il**

## 3. ÜÇÜNCÜ İL
(ixtisarla)

Bir dərs kitabına rast gəldim, bu kitab mərhum Mahmud əminin "Üçüncü il" kitabıdır ki, hal-hazırda məktəblərimizdə oxunur və Maarif[1] Komissarlığında mövcud olan nəşriyyat[2] şöbəsinin izni ilə çap olunmuşdur. Dəxi nə söz? Kitab kitabdır, kitabın ki buynuzu olmaz? Nə irad? Nə tənqid? Amma mən bilmirəm, mən hamıdan ağıllıyam, ya hamı məndən ağıllıdır.

Sözüm burasındadır ki, mən bu gün böyük[3] oğlumun əlində kitabıgörüb aldım, baxdım, axıra kimi göz gəzdirdim və məcbur oldum, kitabın axırlarında bir neçə vərəqi cırıb tullayam kənara. Cırıb atdığım vərəqlər bunlardır:

Səhifə 184 - "Daşlar və mədəniyyət" ibarələrindən bir nümunə:

"Heyvanları böyüklükləri[4] ilə, şəkilləri ilə, üzvlərinin təxalifi ilə bir-birindən fərq və təmyiz etmək olur; fəqət daşlar bu vasitə ilə təfriq olunamaz...

Bununla belə dürlü-dürlü daqları bir-birindən ayırmaq üçün başqa övsaf təhri etməlidir..." Bu vərəqi cırıb tulladım, çünki bu dil bizim dil deyil.

Səhifə 186 - Dəmirin şənindən yazılan şeirlər:

"Burda nasıl çalışıyor şu sıtmalı əmələ...
Zavallıda vücud zəif, bəniz qansız, sırt qanbur.
Ayaq çılpaq, üsir sıqlam olmuş, üst çamur.
Əcəb, nədir çıqardıqı bunun bunca əmcələ?.."

Əgər burası nəsrlə yazılmış olsaydı, o vaxtda dəxi əmələnin qeydinə qalmışlar, - deyə saxlaya bilərdim. Amma bunu da cırıb tulladım. Əgər bunlar həqiqətdə şeirdirlərsə, onda nə lazım yaxşı uşaqlarımızı öz əlimizlə şeirdən iyrəndirmək?..

Səhifə 191 - Ədəbiyyat nümunələrindən parçalar.

"Mənahi: zövqünüzmü? Bir təhaşi yoqmu xaliqdən? Sizi niranə sövq etməzmi bu üsyanlar, insanlar?" Söz yox, bunu da tulladım.

Səhifə 193 - "Türk obasına siyahət".

Heyif, bilmirik ki, Sevim Bikə türk obasında yaşayan camaatla[5] nə dildə danışırdı; çünki bu hekayə ərəb dilində yazılıb. Bu səbəbdən kitabdan[6] cırılıb atılmalıdır ki, mən də elə elədim.

Səhifə 200 və 201 - təmuz və qış barəsində dərc olunan Tövfiq Fikrətin şeirlərini çap etmədən qabaq azərbaycanlıların dilinə çöndərməli idi.

Bunu da kitabdan çıxartdım.

Səhifə 203 - "Misir xatiratımdan". Çürük, məzmunu çürük, dili çürük, məsəli çürük.

Əgər bu kitabı yazan mərhum müəllimimiz kitabını bu şəkildə, bu dildə meydana qoyubsa, bu iş onun şəxsi işidir, onun ağlı belə kəsib.

Aman günüdür, nə dil olur-olsun, - qoy məcus dili olsun, - ancaq oxuyub qanmalı olsun.

**Cəlil Məmmədquluzadə**

**("Molla Nəsrəddin" jurnalı, 15 dekabr 1923-cü il)**

## 4. "SİZİ TƏBRİK EDİRƏM, QIZLAR!"

("Bahar oğlu" romanından, ixtisarla)

Cəfər öz dostları ilə birlikdə Bakı Sənaye Texnikumuna daxil oldu.

İndi o, on yeddi yasılı bığ yeri təzəcə tərləmiş, bəstəboy, arıq bir gənc idi. Əyninə qara mahuddan tələbə kostyumu geymiş, boğazına qara qalstuk vurmuşdu. Furaşkasında və pencəyinin yaxalığında çəkic və açar nişanları vardı. Bürünc düymələri par-par parıldayırdı. Onu təzə libasda görən qardaşlarının dodaqları qımışır, anasının gözləri yaşarırdı. Dəstəqız olmuşSona indi Cəfərə ehtiyatla yanaşır, heyran-heyran uzaqdan ona tamaşa etməkdən doymurdu... Əmisi oğlunun saçlarını daraması balaca qızın xüsusilə xoşuna gəlirdi. Cəfərin yandan iki hissəyə ayrılmış gur, qara telləri içində ağaran qısa xətt Sonaya nədənsə özünün qalın, xurmayı hörükləri qədər uzun görünür, xəyalı bu intəhasız yolda gəzməkdən yorulmurdu.

Cəfər öz yeni paltarında ilk dəfə evdən çıxıb texnikuma yollandı. Qonum-qonşu sevinc və həsədlə Cəfəri bir-birinə göstərib pıçıldayırdı:

- Şahbikənin oğlu böyük adam olacaq!

- Maşallah!

-Allah saxlasın!..

Gənc oğlan da bu fərəhli baxışları görür, bu hərarətli səsləri eşidir, ürəyi şiddətli döyünürdü. O, açıq-aydın sevinirdi. Həm də yalnız özü uçun yox. Bu gün birinci dəfə olaraq evdən tək çıxmamışdı. Sonam və böyük qardaşı qızı Törəni də məktəbə aparırdı. O, qızların çadra altında qoltuqlarına vurduqları kitab-dəftərə

görə öz tələbə kostyumundan artıq məsud idi. Axı cavan oğlan balaca qızların bu böyük səadətinə asan nail olmamışdı...

Ancaq böyük qardaş Hüseynqulu tərəddüd etdi. Qızları məktəbə qoymaq təklifi ailədə ciddi mübahisə doğurdu. Kiçik oğlunun heç bir arzusuna qarşı çıxmayan ana da etiraz etmədi. Əjdər dərhal kiçik qardaşına səs verdi.

- Qızları məktəbə qoyaq?.. Düzünü deyim ki, mən bunda fəna bir şey görmürəm. Bilaks, oxumaqları yaxşıdır. Gözüaçıq olarlar, - dedi. - Ancaq o biri tərəfdən də camaatdan ehtiyat eləyirəm. El-gün, camaat nə deyər? Axı hələ Dağlı məhəlləsindən bir başıçarşabb məktəb üzü görməyib. Birdən-birə bizim başlamağımız necə olar?

- Lap yaxşı olar, - deyə Cəfər onun qəlbinə yol açdı. - Axı nə üçün biz ilk addımı atmaqdan qorxmalıyıq?

Nə səbəbə kimin isə bizim qabağımıza düşməsini gözləməliyik? Bəlkə, başqaları bunu dərk etmirlər? Olmaz ki, onlara da biz yol göstərək? Çox da dağlılardan hələ məktəbə gedən qız yoxdur, şəhərlilərdən ki var! Biz də bakılı deyilikmi? Bakıda dörd-beş

məhəllə varsa, biri də bizimdir. İçərişəhərlə Bayırşəhərin qızları artıq məktəb qapısını açıblar. Çəmbərəkəndlə Şahsevənlər də yavaş-yavaş hərəkətə gəlir. Dağlı məhəlləsindən də biz ləpir salarıq, camaat da ardımızca gələr... Bir də biz istədik-istəmədik, zəmanə özü bunu tələb edir. Əgər bu gün biz qızları məktəbə qoymasaq, sabah onlar özləri gedəcəklər. Niyə əcnəbilər oxusun, bizimkilər yox?

Hüseynqulu anasının və kiçik qardaşlarının bir-bir üzünə baxıb köks ötürdü:

- Nə deyirəm ki? Madam istəyirsiz, qoy qızlar da gedib oxusunlar!

Cəfər böyük qardaşının boynunu qucaqlayıb üzündən öpdü:

- Mən bilirdim ki, sən izin verəcəksən, - sonra dərindən ah çəkdi. - İndi gərək Heydəri də özün razı salasan!

Böyük qardaş güldü:

- Heydəri razı salmaq bütün məhəlləni razı salmaqdan çətindir.

Əjdər gülərək söhbətə qarışdı:

-Yoxsa sən də bəzi avamlar kimi Sonaya, Törəyə deyəcəksən ki:

Fikrini vermə nə elmə, nə ürfana, qızım!
Çoxdur elmin zərəri din ilə imana, qızım!
Oxuyub elm evini eyləmə virana, qızım!
Yoxdur elmin səməri qövmi-müsəlmana, qızım!”

Hüseynqulu maraqla soruşdu:

- Bunu kim deyib?

- “Babayi-Əmir”də yazıblar! - deyə Əjdər şeir müəllifinin kim olduğunun üstündən keçdi.

...Cəfər Sona ilə Törəni ilk qız məktəbinə yazdırdı...

**Seyfəddin Dağlı**

## 5. BİR AĞACIN HEKAYƏSİ

(ixtisarla)

Kim bilir, bu vaxta kimi nə qədər nağıl dinləmiş, neçə-neçə əhvalatlardan xəbərdar olmuşsunuz. Diqqətinizi yayındırmadan həyəcanla sona kimi dinlədikləriniz də olub, sadəcə, nəzakət xətrinə səbir edib qulaq asdıqlarınız da. Amma əminəm ki, bu vaxta kimi heç biriniz bir ağacın hekayəsini dinləməmişsiniz. Bəli, səhv başa düşmədiniz, sizi bir ağacın dünyasına qonaq aparıram. Hazırsınızsa, məni dinləyin!

Mən bir ağacam. Bütün günü maşınların şütüdüyü işlək magistraldan aynlıb ucqar kəndə doğru uzanan, yayda tozla dolu, payızda isə palçıqdan keçilməyən torpaq yolun kənarında dayanan iri gövdəli, qollu-budaqlı tənha bir ağac... Tənha dedim, çünki yan-yörəmdə bircə dənə də olsun, başqa ağac görə bilməzsən.Əslində, mənə "tamamilə tənha" demək də doğru olmaz. Çünki ilin bütün fəsillərində qonaq-qaralı oluram. Budaqdan budağa uçuşan qayğısız dəcəl quşlar, günün qızmar şüalarından və ya qəfil yaxalandıqları yağışdan qorunmaq

üçün ayaq saxlayan insanlar məni darıxmağa qoymurlar. Çox vaxt elə olur ki, eyni anda bir neçə nəfər sıx yarpaqlarımın əmələ gətirdiyi çətirdən istifadə etməli olur.

Belə anlarda darıxmağın nə olduğunu bilmirəm. O saat söhbət başlanır, mövzular bir-birini əvəz edir. Başqalarının danışığına qulaq asmağın günah olduğunu bildiyimdən onlara qulaq asmamağa çalışıram. Amma istəmədiyim halda, yenə də qulağıma gəlib çatan sözlərdən insanların fərqli xarakterlərə malik olduğunu başa düşmüşəm. Söhbətindən doymadığım xoş şimalı insanlara rast gəldiyim kimi, sözlərindən ümidsizlik tökülən insanları da çox görmüşəm. İnsanların bəzən ümidsizliyə yol vermələri məni çox düşündürür. Əgər sözlərimin səhv başa düşüləcəyindən çəkinməsəydim, ümidli olmağın nümunəsini özümüzdən, yəni ağaclardanverərdim. Qışın ən sərt şaxtalı günlərində belə bizi donmağa qoymayan, yaşadan baharın gələcəyinə olan ümidimizdir.

Səsim gəldiyi qədər hayqıraraq insanları ətraflarına baxıb düşünməyə çağırmaq istəyirəm. Amma, təəssüf ki, bu, mümkün deyil.

Sözləri kimi, əməlləri də insanların fərqli olduğunu göstərməkdədir. Kölgəmə sığındığı halda, məni incitməkdən çəkinməyib budaqlarımı sındıran, yarpaqlarımı qoparan o qədər insana rast gəlmişəm ki... Belə insanlar yalnız özlərini düşünürlər, ətrafdakıların düşdükləri vəziyyət onlar üçün maraqlı deyil. Yaxşı ki, hər hərəkəti ilə qayğıma qaldığını göstərmək istəyənlər daha çoxdur. Ya köklərimə su tökərək, ya bir-birinə mane olan budaqlarımı ayıraraq, ya da başqa bir yolla diqqətini göstərməyə çalışan bu insanlara olduqca minnətdaram. Elə zənn etməyin ki, biz kölgəmizdə yer verdiyimizə görə insanlardan həmişə nəsə gözləyirik. Əsla... Sadəcə olaraq, qəlblərin xoş diləklərlə dolub-daşması, başqalarının da səadətini düşünərək yaşaması, “mən” pərdəsini yırtıb “biz” deməyi bacarması bizi son dərəcə fərəhləndirir. Eşitdiyimə görə, qarşılıq gözləməkdən uzaq olmaq düşüncəsi biz ağacların yaradılışından mövcuddur. Nə yerin dərin qatlarından sorub gətirdiyimiz su və minerallarla bəsləyib yetişdirdiyimiz dadlı-dadlı meyvələri verərkən, nə də atmosferi insanın nəfəs alması üçün zəruri olan oksigenlə təmin edərkən heç bir təmənna

güdmürük. Yanmaqda olan şamın işığından istər bir nəfər istifadə etsin, istərsə daha çox insan onun ətrafına yığışsın. Onun üçün nə fərqi var ki? Biz də bacardıqca daha çox insana yararlı olmağa çalışırıq. Əlindəki meyvəni həvəslə yeyən bir balacanın gözlərindən oxunan sevinc bizim hamımızın ümumi sevincidir. Bundan daha gözəl nə ola bilər ki? Biz inanırıq ki, bu cür hallar dünyanı daha da gözəlləşdirəcəkdir.

Uzun müddətdir, dolub-daşan fikirlərim məni narahat edirdi, sizinlə bölüşüb, azacıq da olsa, yüngülləşmək istədim. Səbirlə məni dinlədiyiniz üçün sizə minnətdaram, inanıram ki, bundan sonra haradasa ağac gördükdə ona adi bir ağac kimi baxmayacaqsınız. İndicə danışdıqlarını yadınıza düşəcək, bizi doğma nəzərlərlə süzəcəksiniz. Bizim də sizin kimi sevgiyə, qayğıya ehtiyac duyduğumuzu unutmayacaqsınız.

Gəlin hamımız birlikdə dünyamızı gözəlləşdirmək üçün çalışaq.

**Vüqar Adilov**

## 6. ƏN YAXIN PLANET

(ixtisarla)

Noyabr ayı idi və Bakıda əsl qış havası özünü göstərirdi. Gizli elmi-tədqiqat institutunda iş gününün bitməsinə hələ üç saatdan çox qalırdı. Fizika-riyaziyyat elmləri doktoru, professor Aqşin Fəridzadə direktorun kabinetindən çıxıb qapını ehtiyatla örtdü. O, yaman dalğın görünürdü: elə bil nəsə pis bir hadisənin baş verəcəyi ürəyinə dammışdı.

...İnstitutun, demək olar, hər yerinə qoyulmuş yarıgizli kameralar aldıqları görüntüləri monitorun ekranına ötürürdü. Öz kürsüsündə əyləşmiş direktor institutda, foyedə və hətta giriş qapısının önündəki səkidə baş verənləri rahatca izləyə bilərdi.

1. Aqşin Fəridzadənin hələ qırx yaşı var idi, amma o, elmin hər bir sahəsindən məlumatı olan, istedadlı, yenilikçi bir alim kimi tanınmışdı. Lakin

insanların həyatına birbaşa müdaxilə edən bu elmi inqilaba şübhə ilə yanaşırdı. Yəni doğrudanmı, lazım idi bu? Yəni doğrudanmı, insanın ən adi azadlıqları da əlindən alınmalıydı?

2. Beləliklə, bəşəriyyətin həyatma qəribə bir əsr - kameralar əsri gəlmişdi. Hər yerdə, hər addımında bilməli idin ki, yaxınlıqda sənin hərəkətlərini izləyən və hətta onu yaddaşa köçürən kameralar ola bilər.

3. Uşaq vaxtı anası ona deyərdi ki, hara getsən, harada olsan, Allah səni görür. Deyirdi ki, bir otaqda, ya yolda, düzənlikdə, meşədə tək olsan da, Allahın nəzəri üstündədir. Qırx yaşlı professor bu gün də həmin deyilənlərə inanırdı. Harada olsa, nə iş görsə, özünü öz daxili vicdanının və bir də gözəgörünməz Allahın nəzarəti altında hiss edirdi. Çalışırdı ki, Allahın nəzərində pis olan heç bir iş görməsin.

4. Ancaq professor nəzarət kameralarının müsbət tərəfini də bilməmiş deyildi.

Aqşin səkidə saxladığı ağ rəngli “Opel”inin qapısını açıb maşına əyləşdi. Deyəsən, o, həyəcanını boğa bilmirdi və bu da səbəbsiz deyildi. İndi buradan çıxıb birbaş Müdafiə Nazirliyinə görüşə yollanacaqdı. Yalnız institutun direktoru Qüdrət Məmmədli, bir də köməkçisi Elnur bilirdi ki, Fəridzadə əhəmiyyətli kəşf edib və bu kəşf müharibə zamanı xeyli dərəcədə işə yaraya bilər.

Aqşin hələ Fransada işləyərkən bu kəşfin “əsasını qoymuş”, ancaq Bakıda davam etdirməyi daha məqsədəuyğun bilmişdi. Bu kəşfin sirrini yalnız Aqşin özü bilirdi və o, dünən bununla əlaqədar bütün riyazi hesablamaları, diaqramları, cədvəlləri - bir sözlə, istehsal üçün lazım olan gizli məlumatları bilgisayarın yaddaş kartına yerləşdirmişdi.Əgər bu yaddaş kartı düşmən əlinə keçsəydi, dəhşət olardı. Neçə illik gərgin zəhmətnin puça çıxması bir yana dursun, ixtirası düşmən əlində öz vətəninə qarşı tətbiq oluna bilərdi.

Əlini uzadıb radionu qoşdu, diktorun səsi maşının salonuna yayıldı: “Türkiyə bu günlərdə terrorçulara qarşı əməliyyatları gücləndirib...”

Aqşin sonra başqa radio dalğasını tutdu: "Bildiyiniz kimi, dünən - noyabrın 24-də respublika prezidenti cənab İlham Əliyev NATO Baş katibinin müavinini qəbul etmişdi. Bu görüşdə sərhəd təhlükəsizliyi məsələləri də geniş müzakirə edilmişdi. Bununla əlaqədar bu gün..."

Aqşin diqqətini toplayıb bu son məlumatı axıradək dinlədi. Bəli, dünya durduqca müharibələr, terror hadisələri baş verəcək, xırda və iri cinayətlər törədiləcəkdi. Dünya birləşib bunların qarşısını ala bilmir. Deməli, yaşamaq istəyən hər bir dövlət, ya millət güclü olmağa məcburdur.

Güclü olmağın yolu ilk növbədə elmdən, təhsildən, sonra isə iqtisadiyyat və güclü ordudan keçir.

Aqşin müharibə istəmirdi, istəyirdi ki, bütün dünya, eləcə də doğma ölkəsi sülh şəraitində yaşasın. insanlar bir-birini sevsinlər, "can" deyib "can" eşitsinlər. Amma nə olsun? Tale Azərbaycana məkrli, acgöz bir qonşu bəxş etmişdir. Bilirdi ki, Ermənistanla gec-tez müharibə olmalıdır. Bu müharibədə milli ordunun qalib gələcəyinə inanırdı. Dövlətinə, xalqına bir alim kimi verdiyi bu töhfənin sevinc hissi ona bəs idi.

Nəhayət, küçədə yaranmış tıxac açıldı və avtomobillər hərəkətə gəldilər. Aqşin qarşısını kəsən avtomobilin ləng hərəkətini görüb, onu tələsdirmək üçün siqnal verdi. Bu zaman sağındakı qapı açıldı. Qalın bığlı, enlisifət, qaraşın bir kişi özünü tələsik içəri salıb oturacaqda əyləşdi. Eyni zamanda arxadakı sağ qapıdan da salona gözünə qara eynək taxmış, üzü sızanaqlı kürən bir gənc girdi.

O, qalın gödəkcəsinin cibindən tapançasını çıxarıb Aqşinin böyrünə dirədi və təmiz fransız dilində:

- Yola davam et! - deyə göstəriş verdi.

- Siz kimsiniz axı? Məndən nə istəyirsiniz?

- Müdafiə Nazirliyinə apardığın materialları bura ver! Bitirdiyin elmi ixtiranın yekun nəticələrini deyirəm.

Aqşin özünü ələ aldı, gözü yolda olsa da, bütün diqqətini topladı: "Bu alçaqlar işin dünən bitdiyindən belə tez necə xəbər tuta bilərdilər axı? Satqın kim

ola bilərdi?" Vəziyyət olduqca qorxulu idi. Bu adamlar məqsədlərinə çatmaq üçün təkcə onu yox, qarşılarına çıxan hər kəsi öldürməyə hazır idilər.

Birdən Aqşinin ağlına qəfil fikir gəldi. Əgər o bunu həyata keçirə bilsəydi, öz canını xilas edə bilməsə də, ölkəsinin milli təhlükəsizlik orqanları son dərəcə əhəmiyyətli ixtiranın yazılmış olduğu yaddaş kartını ələ keçirə bilərdilər. Beləliklə, ixtirası düşmənlərə yox, Azərbaycana qismət olardı.

O, Azərbaycanın hüquq-mühafizə sisteminin çox güclü olduğunu bilirdi. Bilirdi və onların ustalığına dərindən inanırdı.

Fikrini qətiləşdirib, maşının sürətini artırdı. Professor Fəridzadə son ümid yeri olan planını həyata keçirmək üçün risk etməyə məcbur idi...

**Elxan Elatlı**

## 7. AĞ GÖYƏRÇİN

(ixtisarla)

Payız mülayim keçirdi. Hərdən göy üzü tutulur, çiskin yağış yağırdı. Qonaq otağına keçəndə qızımın eyvandakı quşa - məhəccərin üstündə sakitcə dayanan boynu və qanadlarının ucu qara olan ağ göyərçinə baxdığını gördüm. Sakitcə dedim:

-Aynabəndə yaxınlaşma, uçub gedər.

Axşamçağı ağ göyərçinin başqa bir göyərçinlə məhəccərə qonduğunu gördük. Onlar eyvandakı dəmir şkafa girdilər. Biz eyvana çıxıb onları narahat etmədik. Noyabr ayı idi. Havalar yağışlı, dumanlı keçirdi. Belə havalarda göyərçinlər dəmir şkafdan çıxmırdılar. Bu quşların gəlişi, mehriban davranışı hamımızda xoş ovqat yaratmışdı.

Qış gəldi. Seyrək qar yağdı, havalar soyudu. Ağ göyərçini eyvanda görmədiyindən qızım narahat olmuşdu. Səhər göyərçinlərdən biri uçub gedəndən sonra qızım eyvana çıxdı, ağ göyərçin dəmir şkafda çör-çöpdən düzəlmiş yuvada tərpənməz oturmuşdu. O nə görmüşdüsə,"Ata, tez bura gəl", - deyə təşvişlə məni

çağırdı. Mən yaxınlaşdım, ağ göyərçini ehmalca götürdüm. Gördüyüm mənzərə qəlbimi ağrıtdı: yuvadakı ətcə göyərçin balası donub ölmüşdü. Ağ göyərçini isti otağa gətirib iri qutuya, yumşaq parçanın üstünə qoydum. Qızım onun qabağına çörək qırıntıları tökdü. Göyərçiin hərəkətsiz qalmışdı. Axşam qaranlıq çökdü. Eyvanda lampa işığında bir küncə qısılmış ikinci göyərçini götürüb ağ göyərçinin yanına gətirdim.

Bütün qışı göyərçinlər hər səhər uçub gedir, axşamlar qayıdırdılar. Onlar eyvanın məhəccərində görünəndə qapını açırdıq. Quşlar otağın döşəməsinə enən kimi sakitcə gedib "yuvalarında" dincəlirdilər.

Günlər bir-birini əvəz edirdi. Ağ göyərçin öz adi həyatını yaşayırdı. Onun kürt yatması, iki bala çıxarması ailədə hamını sevindirdi. Göyərçin balalarını bəsləyib böyütmək üçün otaqda şərait yaratdıq. Ancaq piyalədə su qoysaq da, dəni az-az verirdik. Qanadları və quyruğu boz rəngli ləkələrlə örtülmüş göyərçin balaları günü-gündən böyüyürdü. Har səhər yem dalınca gedən ağ göyərçin qayıdarkən qanadlarını açıb özünü otağın eyvana açılan şüşəli qapısına çırpır, sürüşüb aşağı düşür, yenidən bir də uçub özünü qapıya çırpırdı. Bunu görən kimi biz qapını açırdıq, ağ göyərçin də balalarının yanına uçurdu. Hər gün ana göyərçin balalarına baş çəkir, onlara dən, su verir, sonra məhəccərə qonub onu gözləyən göyərçinə qoşularaq uçub harasa gedirdi.

Bir gün işdən qayıdanda əl-üzümü yuyub balaca göyərçinlərə baş çəkmək istədim. Qonaq otağına keçəndə quruyub qaldım. Göyərçin balaları otaqda yox idi, döşəmə isə tərtəmiz silinmişdi.

- Zərifə, göyərçinlər hanı? - deyə heyrətlə həyat yoldaşımı səslədim. O, otağa gəldi, günahkar kimi yavaşdan dedi:

- Bu nə bəla idi, bilmirəm. Göyərçinlər birdən-birə öldü. Buraları da yığışdırdım ki, qız məktəbdən gələndə görməsin.

Mən donuxmuş vəziyyətdə qalmışdım. Bəs səhər erkən özünü qapıya çırpıb balalarını görmək istəyən ağ göyərçinə nə cavab verəcəyik? - deyə fikirləşdim. Bu fikir məni sıxırdı.

Qızım məktəbdən gələn kimi otağa cumdu ki, balaca göyərçinləri görsün. Otaqdan qışqıra-qışqıra mətbəxə, anasının üstünə qaçdı, hay-küy qopdu. Anası nə dedisə, qızım sakitləşdi, yanıma gəlib dedi:

-Ata, göyərçinləri dayım Bayıla aparıb. Onlara kim baxacaq?

Anasının həqiqəti gizlədərək ağlabatan yalan uydurduğunu başa düşüb dinmədim. Həyat yoldaşım kiçik yaşlarından şəkər xəstəliyinə düçar olan qızımızın həyəcan keçirməsini istəmirdi. O:

- Dayın bağçada yuva düzəldəcək, - dedi - Göyərçinlər üçün ora daha yaxşı olar.

Gecəyarısına kimi yata bilmədim. Fikrimdə götür-qoy etsəm də, göyərçin balalarının ölüm səbəbini tapa bilmədim.

Tanış bir quşbazın yanına getdim. Qoca quşbazın göyərçinləri havada cövlan edir, o da quşların uçuşuna baxırdı. Yaxınlaşıb salamlaşdım, sakitcə dayanıb gözlədim. Sonra ondan soruşdum:

- Sizcə, göyərçin balalarının ev şəraitində birdən-birə ölməsinə nə səbəb ola bilər?

Qoca quşbaz fikirləşmədən dərhal dedi:

-Papiros tüstüsü. Tüstü onun qənimidir.

Qaynımın həyat yoldaşı ilə bizə gəlməsini xatırladım. Mən papiros həvəskarı deyiləm. Hərdənbir evdə siqaret yandırıb çəkmək istəyəndə həyat yoldaşım dərhal öz etirazını bildirər, siqareti söndürməyimi xahiş edərdi: "Tüstü divarlara, örtüklərə yapışdı, söndür, sən Allah!". Tbz pəncərəni açırdı ki, otağın havası təmizlənsin.

Mənim siqareti yandırmağımla söndürməyim bir olurdu. Ancaq qardaşı gələndə dərhal külqabını tapıb masanın üstünə qoyar, o da papirosunu yandırar, ara vermədən bir-birinə calayar, tüstü-duman, acı qoxu evə dolardı. Bacı qardaşına bir kəlmə söz deməzdi ki, xətrinə dəyər. Mən ona qardaşının yanında deyərdim: “Deyəsən, qardaşının papiros tüstüsü bal dadır”. Hamı bu sözümə gülərdi. O da deyərdi: “Əlbəttə... qardaşımın qadasını alım”.

Göyərçin balaları olan otaqda qardaşının "bal tüstüsü"nün zəhərə döndüyünü həyat yoldaşım ağlına belə gətirməyib. Qoca quşbazın fikrini ona deyəndə təəccübləndi: "Aman, Allah, keç günahımızdan", - dedi və gözləri yaşardı.

İki gün idi ki, göyərçinlər görünmürdü. Yəqin, inciyib getmişdilər. Özümü günahkar sayır, iztirab çəkirdim. Bir yerdə qərar tuta bilmirdim. Eyvana çıxdım. Birdən ağ göyərçinin məhəccərə qonması məni diksindirdi. Həyəcanla ona baxdım. Ağ göyərçin məhəccərin sağ tərəfində, sakitcə, küskün halda dayanmışdı. Sonra məhəccərin üstü ilə mənə sarı gəlib qığıldaya-qığıldaya sağ əlimin üstünü dimdikləməyə başladı. Mən məhəccərdən tutub durmuşdum, ağ göyərçinə ürəyi soyuyana qədər dərimi didməyə imkan verdim. Ağ göyərçinə təsəlli verməyə gücüm yox idi: qəhər məni boğurdu.

Ağ göyərçin uçub getdi, bir daha qayıtmadı. Onun müsibəti qəlbimdə silinməz iz buraxdı.

**Didərgin, "Füyuzat" jurnalından, 2011-ci il**

## 8. BİR ŞAHİDİN BEŞ ŞƏHİDİ

Azərbaycanın dilbər guşəsi Qarabağda baharın gözəl bir çağında - gül-çiçəyin bir-birinə vurulub nəğmə oxuyan vaxtında göyçək bir qız uşağı dünyaya göz açdı. Ailənin sevinci, fərəhi olan bu qızın adını Gülyaz qoydular. Gülyaz böyüdükcə şirin dili, səmimiyyəti, işgüzarlığı ilə hamının istəklisinə çevrilir, şən gülüşləri, ürəyəyatımlı nəğmələri ilə sanki təbiətə meydan oxuyurdu. Göydən ələnən qar onun nəğmələrində elə bil ki çiçək yağışı idi. Yağışın həzin səsinə səs verib zümzümə edərdi, lakin ən çox sevdiyi bahar fəsli idi. Yaşıl dona bürünmüş çöl-çəmən, ağ-çəhrayı libas geymiş ağaclar, yayın ən isti vaxtında belə, başı ağ örpəkli uca dağların möhtəşəmliyi onun qəlbini, ruhunu qanadlandırırdı. Ev işlərini görəndə də, bulaqdan su gətirəndə də, qonşuya isti fəsəlini pay aparanda da nəğmə oxuyardı. Gülyazın toyu da elə baharda oldu.

...O, bəxtəvər idi: ailəsi, övladları. Gülyazın dilindən nəğmələr əskik olmurdu, hələ desən, laylaların da sayı artmışdı: beşinci oğul böyüdürdü axı!

Bu xoşbəxtliyin üstünü qara buludlar aldı. Əvvəlcə daş davasına başlayan “arxalı çaqqallar” sonra bir az da qızışıb avtomatla, top, mərmi ilə meydan sulamağa başladılar. Qarabağ torpağında daha nəğmələr eşidilmədi. Onların səsini “Alazan”ın, “Kristal”ın gurultuları əvəz etsə də, Gülyazgil evlərindən çıxıb getməyi heç ağıllarına belə gətirmirdilər. Lakin silah namərd düşməndə, mərdlik, kişilik, yurdsevərlik bizdə...

Soyuq fevral gecəsi topların səsindən, zərbindən yer-göy lərzəyə gəldi. Sütun-sütun alovlar ərşə yüksəldi. Əlisilahlı həyat yoldaşı tələsik evə gəlib onları evdən çıxartdı. Oğlanlarından birini ağsaqqal qayınata, ikisini həyat yoldaşı götürdü. Gülyaz sonbeşiyini belinə bağladı və ən böyük oğlu - ulu babası İbrahimxəlil xan Cavanşirin adı verilmiş balasının əlindən tutub yola düzəldi. Həyat yoldaşı onu tələsdirsə də, Gülyaz evindən, elindən ayrıla bilmirdi. O, ayaq saxlayıb geriyə baxır - baxırdı: orada onun əzizlərinin qəbri, doğma ev-eşiyi, vətəni, yurdu qalırdı. Evindən yalnız balalarını - gələcəyini götürmüşdü. “Bu necə müharibədir? Axı müharibənin də, düşmənçiliyin də bir qaydası var”, - deyə özünə yüz dəfə sual vermişdi.

Müdhiş gecənin soyuğu, yurdunu alt-üst edən mərmilərin səsi onu fikirlərdən ayırdı. Pərən-pərən düşmüş həmyerlilərinə qoşulub yoldaşının arxasınca getdi. Bu gediş nə ağır, nə çətin gediş idi? Ayaqlar sustalır, gözlər qaralır... Ətraf od tutub yanır, insanların fəryadı yeri-göyü lərzəyə gətirir... Bəs qarşıda onu nə gözləyir? Arxa düşmən, qənşər düşmən... Qışın ilik donduran soyuğu da sanki onların qəsdinə durmuşdu... Gülyaz dəstədən geri qalmışdı. Ətrafda atılan mərmilər, şaqqıldayan avtomat cərgəsi, irəlilədikcə rastlaşdığı həmyerlilərinin qanlı cəsədləri onu haldan çıxarmışdı... Birdən Gülyazın qulağına zarıltılı səs gəldi. Qadın səs gələn tərəfə yaxınlaşanda milli ordumuzun əsgəri ona qırıq-qırıq: “Bacı, üzümü qibləyə çevir.

“Bacı, üzümü qibləyə çevir. Bax, görürsən, son ana qədər silahımı yerə qoymamışam, sizin qarşınızda üzüm qara deyil. Amma heyifki, sizi axıra qədər müdafiə edə bilmədik, halal edin... ” — deyib başını qarın üstünə qoydu. Sanki

onun gəlişini gözləyirmiş kimi ürəyini boşaldıb gözlərini yumdu. Gülyaz dəhşət içində ona baxır, nə edəcəyini bilmirdi. Axı bu vurhavurda, meşənin içində qiblənin istiqamətni haradan biləydi? Təntimiş Gülyaz elə bir az qabağa getmişdi ki, qoca qayınatasının və yanındaca balasının qanlı cəsədləri ilə rastlaşdı. Qəhərlənmiş gəlin bir gecədə gördüklərindən özünü itirmişdi: həyəcandan, qorxudan, qan qoxusundan, soyuqdan tir-tir əsirdi. Lakin bilirdi ki, getməlidir. Çətin olsa belə, getməlidir. Əgər yubansa, özünü də, körpələrini də güdaza verə bilər. Gülyaz ona sığınmış balalarına baxıb özünü toplayaraq yenə də yoluna davam etdi... ...səhər qan içində açıldı.

**Elmira Qasımova**

## 9. ŞAH ABBAS VƏ ÇƏKMƏÇI

Şah Abbas dərviş paltarında şəhəri gəzərkən bir evdən çalıb-oynamaq səsi eşidir və maraqlanıb qapını döyür.

Ev yiyəsi qapını açır, "dərviş"i qəbul edir, ona yemək-içmək verir, söhbətə başlayırlar. Şah Abbas kişinin şadlığının səbəbini soruşur. Ev yiyəsi cavabında deyir:

- Mənim evimdə həmişə şadlıqdır. Özüm çəkməçiyəm, gündə iki qran[1] pul qazanıram, düyü, ət, yağ alıb gətirirəm, arvad plov bişirir, axşam onu yeyirik və şadlanmağa, çalıb-oynamağa başlayırıq. Sabahın fikrini çəkmirik, çünki o iki qranı nə cür olsa, qazanıbgətirəcəyəm.

Kişinin sözləri Şah Abbasa xoş gəlir, lakin o, çəkməçini yoxlamaq uçun soruşur

- Yaxşı, bəs ... (bir halda ki, əgər) sabah Şah Abbas əmr edib çəkməçiliyi ləğv edərsə, onda necə dolanacaqsan?

Çəkməçi cavabında deyir:

- A kişi, kefini heç pozma! Çəkməçiliyi ləğv edər, gedib başqa işlə məşğul olaram. Mən iki qranımı harada olsa, qazanacağam.

Şah Abbas səhər sübhdən xudahafizləşib sarayına gedir və car çəkdirir: "Mənim ölkəmdə çəkməçilik edən ağır cəzalanacaq".

Dərhal çəkməçi dükanları bağlanır.

Axşam qaranlıq düşəndə Şah Abbas yenə də paltarını dəyişib çəkməçi yaşayan evə gedir. Yaxınlaşdıqda yenə də çalıb-oynamaq səsi eşidir. İçəri girir, çəkməçidən bu gün hansı yolla pul qazandığını soruşur. Kişi cavab verir:

- Allah vurub Şah Abbası ki, mənə mane olsun. O, çəkməçiliyi ləğv etdi, mən isə su paylayıb iki qranımı qazandım.

Sabahısı gün Şah Abbas su paylamağı da qadağan edir, lakin yenə də axşam kişinin öz vaxtını kef və şadlıqla keçirdiyini görür.

Şah kişini pul qazanmaq imkanlarından məhrum etmək üçün sabahısı gün əmr edir ki, onu götürüb saray qapısı ağzında bütün günü keşikçi qoysunlar. Əmr dərhal yerinə yetirilir. Həmin günün axşamı Şah Abbas yenə dərviş paltarı geyib çəkməçinin evinə gedir və eyni şadyanalığın şahidi olur.

"Dərviş" bugünkü kef məclisini hansı pulla təşkil etdiyini kişidən soruşur. O, cavab verərək

deyir ki, gözətçi olduğu zaman belinə bağladığı xəncəri qınından çıxarıb girov qoymuş, onu taxta xəncərlə əvəzləmişdir. Padşahdan maaşını alanda xəncəri geri götürəcəkdir.

Sabahı gün Şah Abbas çəkməçini pərt etmək məqsədilə məclis qurur, dustaqxanadan öldürülməli olan bir adamı gətirtdirir.Gözətçi paltarı geymiş çəkməçinin məhbusun boynunu vurması şərtilə onu edam etməyi əmr edir. Kişi vəziyyətin ağır olduğunu başa düşür, lakin özünü itirməyərək əllərini göyə qaldıraraq deyir:

- Ulu Tanrım ... (əgər, o şərtlə, madam ki) bu məhbus günahkardırsa, mənim xəncərim onu tən yarı bölsün, əgər onun günahı yoxdursa, xəncərim qınından çıxarkən dönüb taxta olsun!

O bu sözləri deyib xəncərini çıxarır və hamı onun taxtadan olduğunu görüb təəccüb edir.

Təkcə Şah Abbas kişinin hiyləsini başa düşüb gülür, ....................................... şahın xoşuna gəlir, çəkməçiyə çoxlu var-dövlət bağışlayıb deyir:

- Mən sənin kefini pozmaqdan ötrü nə qədər tədbir gördümsə də, bir nəticə vermədi. Həqiqətən, kefcil olan adam üçün kef, dərd çəkən üçün isə dərd əskik olmaz. Get, şadlıqla yaşa!

**“Rəvayətli ifadələr" kitabından**

## 10. QARI DAĞI

(ixtisarla)

Şəhər otuz doqquz gün mühasirədə qalaraq uzaq məmləkətdən gələn şahın qoşunu ilə vuruşdu. Qırxıncı gün şahın iyirmi yasılı oğlu Maliktac beş yüz nəfər seçmə pəhləvanla hasarın bir tərəfindən hücum edib şəhərə girdi. Onun ardınca bütün qoşun yol tapıb şəhərə doldu.

Yerli əhalinin inadından və təslim olmaq üçün dəfələrlə edilmiş təklifi rədd etmələrindən qəzəblənmiş şah vəziri Taygöz Yusifi çağırıb kimsəyə aman verməməyi əmr etdi. Taygöz Yusif şəhərin sağ qalmış yeddi min əhalisini uşaqdan böyüyə qılıncdan keçirdi. Evlər dağıldı. Qan su yerinə axdı.

Üçgünlük qırğından sonra şah şəhərdən çıxıb yaşıl bir təpə üstündə çadırlar qurdurdu. Üç gün, üç gecə şadyanalıq etməyi, qalibiyyət badələri qaldırmağı qoşun əhlinə əmr etdi. Yetmiş yeddi şeypur şahlar şahının qələbəsi şərəfinə gurladı. Lakin elə bu vaxt şahın qorxunc vəziri Taygöz Yusif içəri girib, hökmdarın hüzurunda yerə qədər təzim etdi. Şah:

- Hardasan, vəzir?! — dedi. - Yoxsa mənim qələbəmin təntənəsi sənin üçün mənasızdır?

Taygöz Yusif bir daha yerə qədər təzim edib:

- Qibleyi-aləm, - dedi, - mən aciz Yusif sənin sadiq qulunam. Şahlar şahının hüzuruna gecikməyimin səbəbi var. Oğlun Maliktac xəstələnmişdir.

- Nə danışırsan, vəzir! - deyə şah ayağa qalxdı.

Şahzadə Maliktac qonşu çadırda qızdırma içində yatırdı. Hökmdar vəzirin müşayiəti ilə çadıra daxil oldu, əlini onun alnına qoydu:

- Oğlum, Maliktac! - deyə həyəcanla səsləndi.

Lakin xəstədən cavab gəlmədi. Şah rəngi ağarmış halda üzünü vəzirə sarı çevirib, qorxulu və titrək səslə:

- Bu saat hər tərəfə çaparlar göndərilsin, - dedi, - Qoy dünyanın bütün biliciləri buraya toplansın.

Səhəri vəzir qayıdıb:

- Qibleyi-aləm, - dedi, - şəhərdə ancaq tək-tək qocalar, uşaqlar qalıb, qırılan qırılıb, sağ qalanlar da gecə ikən meşələrə qaçıb. Çox axtarandan sonra bir falçı qarıya rast gəldik.

Şah qəzəblə soruşdu:

- Bəs falçı nə oldu?

- Gəlmədi. Şahzadənin yanına gətirilməsini istədi.

-Aha! - deyə şah kibrlə gülümsədi.

- Mən onu ocağa atdırıb yandırardım, qibleyi-aləm, ancaq...

Şah vəzirin sözünü kəsib:

- Taxt-rəvan hazırlansın, - deyə əmr etdi.

Hökmdar öz rəiyyəti ilə birlikdə insan cəsədləri ilə dolu xaraba küçələrdən keçib balaca bir komanın qabağında dayandı.

Şahzadəni ehtiyatla içəri gətirdilər. Yarımqaranlıq evin içində ucaboylu bir qarı durmuşdu. Şah daxil olan zaman o, yerindən qımıldanmadı, təzim etmədi, bir heykəl sükunəti ilə dayanıb durdu.

Şah keçib xəstənin baş tərəfində qoyulmuş döşək üstündə əyləşərək:

- Qarı, - dedi, - deyirlər sən sağalmaz dərdlərə dəva edirsən. Budur, mənim oğlum Maliktac od tutub yanır. Səndən əlac istəyirəm, qarı. Əgər onu sağaltsan, evinin dirəklərini qızıla tutduracağam. Əgər xəyanət etsən, cəhənnəm kimi zəbanə çəkib yanacaqsan.

Qarı:

- Mən anayam, - dedi.

Sonra dağlara gedib, bir ətək çiçək gətirdi. Onlann şirəsini çəkib qaşıq-qaşıq xəstənin boğazına tökdü. Gecə-gündüz yanından tərpənmədi.

Şəhərdə sağ qalmış yerliləri ona lənət yağdırdılar. Güneylərdə oturan qocalar onu gördükdə gözlərini endirib ayaqlarının ucuna baxdılar, yadellilərin nəzərindən iraq yerdə görüşən arvadlar başlarını bulayıb:

- Eh, Ballı qarı imansız oldu, - dedilər.

Qarı həmyerlilərinin bütün bu nifrətini sükutla qarşılayır, hər gün dağlara gedir, qucaq-qucaq çiçək gətirir, xəstəni müalicə edirdi. Axı o, ana idi...

Nəhayət, yeddi gündən sonra şahzadə gözlərini açıb yemək istədi. On birinci gün isə onun tamamilə sağalıb ayağa qalxdığını xəbər verdilər.

Şah falçıya bir kisə qızıl verib:

- Qarı, — dedi, — çiçəklərin hikmətni aç, mənə söylə.

Qan başını bulayıb:

- O sirri mən heç kəsə aça bilmərəm, hökmdar, - dedi. - Ancaq oğluna o çiçəklərdən çəkilmiş elə dərman verərəm ki, bir də azar üzü görməz.

Bu sözlərdən sonra qarı qızılgül rəngli maye ilə dolu bir kasa gətirdi. Şah kasanı alıb burnuna tutdu:

- Bu, müşkdür, ənbərdir, nədir, qarı? Ətri insanı bihuş edir.

- O, dünyanın ən nadir çiçəklərindən çəkilib, - deyə qan cavab verdi.

Hökmdar dərmanı yarısına qədər özü içib, qalanını da oğluna verərək:

And içirəm ki, mən ömrümdə bu şirinlikdə şərbət içməmişəm, - dedi, - Bu çiçəklərin sirrini mənə də öyrət.

- Atılan ox bir daha geri qayıtmaz, hökmdar, hər dəqiqənin bir hökmü var, - deyə Ballı qarı dilləndi.

Şahzadə qalan şirəni son damlasına qədər içib, kasanı qarıya qaytardığı zaman falçı rahat nəfəs aldı.

Bu zaman şah mədəsində hiss etdiyi dəhşətli ağrıdan sarsıldı, əl atıb vəzirin çiynindən yapışdı. Elə bu anda şahzadə də kökündən qırılmış sərv kimi silkələnib arxasında dayanmış qara qulun qucağına aşdı.

- Zəhər! - hökmdarın sinəsindən vəhşi bir səs qopdu.

- Bəli, zəhər... - deyə Ballı qarı arxayınlıqla təkrar etdi.

Şah yerdə ilan kimi qıvrılan oğluna baxıb:

- Qarı, — dedi, — heç olmasa, oğluma bir çarə elə. Axı sən onu ölümdən qurtarmışdın, axı sən deyirdin, mən anayam.

- Bəli, qibleyi-aləm! — deyə Ballı qarı ah çəkdi. — Mən anayam!..

Şah ilə oğlu dəhşətli əzablardan sonra öldülər...

Taygöz Yusifin əmri ilə qarını öz otağında qoyub qapını bağladılar. Sonra qoşun əhlinin hər biri onun koması üzərinə bir at torbası torpaq tökdü, qarının koması üstündə hündür bir təpə qalxdı. Yağan yağışlar onun torpağını bərkitdi. Gələn bahar təpədə sarı tikanlı boz qanqallar bitdi. Təpəyə "Qarı dağı" dedilər.

**İlyas Əfəndiyev**